**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

Əlyazması hüququnda

**ƏSGƏROVA NİGAR NİZAMİ QIZI**

# MÜASİR MƏRHƏLƏDƏ ABŞ-ın YAXIN ŞƏRQ SİYASƏTİ

İxtisas: 5502.01 Ümumi tarix

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər: t.e.d., prof., əməkdar elm xadimi,**
**Dövlət Mükafatı Laureatı T.T.Mustafazadə**

**Bakı-2018**

# MÜNDƏRİCAT

**GİRİŞ**........................................................................................................ **3**

**I FƏSİL. ABŞ-ın Yaxın Şərqdə enerji təhlükəsizliyi siyasəti**............................ **16**

**1.1.** ABŞ-ın enerji siyasətinin formalaşmasında və onu şərtləndirən amillərdə Yaxın Şərq regionu ........................................................................... 16

**1.2.** ABŞ-ın Yaxın Şərq regionu nefti uğrunda mübarizəsi........................... 33

**II FƏSİL. ABŞ-ın Yaxın Şərq siyasətində İsrailin təhlükəsizliyinin yeri**.......... **49**

**2.1.** ABŞ-İsrail strateji müttəfiqlik münasibətinin yaranması və tarixi inkişaf mərhələləri ................................................................................. 49

**2.2.** İsrail-Fələstin münaqişəsi və ABŞ-ın mövqeyi ..................................... 63

**III FƏSİL. ABŞ-ın antiterror siyasətində Yaxın Şərq regionu** ........................... **90**

**3.1.** 11 sentyabr 2001-ci ilə qədər ABŞ-ın antiterror siyasətində Yaxın Şərq regionu ........................................................................................ 90

**3.2.** 11 sentyabr 2001-ci ildən sonra ABŞ-ın antiterror siyasətində Yaxın Şərq regionu............................................................................... 102

**NƏTİCƏ** ..................................................................................................... **124**

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT** .................................... **133**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir tarix elminin ən mühüm istiqamətlərindən biri ümumi tarix sahəsinə dair siyasi, sosial-iqtisadi, hərbi, beynəlxalq və eləcə də, dövlətlərarası münasibətlərin formalaşmasında böyük dövlətlərin siyasəti məsələlərinin elmi və siyasi tədqiqi tarixin bu sahəsinin öyrənilməsində çox mühüm əhəmiyyət kəsb edir. Bu gün beynəlxalq hüququn bütün prinsiplərinin pozulduğu bir şəraitdə dünya xalqlarına və ölkələrinə öz iradəsini qəbul etdirmək siyasəti yeridən ABŞ-ın Yaxın Şərq siyasəti dünyanın aparıcı elmi araşdırma mərkəzlərinin diqqətindədir.

Qeyd etmək lazımdır ki, Amerika Birləşmiş Ştatlarının yarandığı XVIII əsr, xüsusən də, XIX əsrin sonlarından bu günədək beynəlxalq münasibətlər sistemində mühüm yer tutur. ABŞ-ın güclü iqtisadi dəyişimi və dağıdıcı iki dünya müharibəsi qədim Avropada formalaşmış siyasi quruluşu darmadağın etdi və XX əsrin ortalarına kimi onun qlobal siyasətdə mərkəz mövqeyə sahib olmasına imkan yaratdı. 1991-ci ildə ABŞ-ın beynəlxalq aləmdə yeganə güclü rəqibi olan Sovet İttifaqı dağıldıqdan və soyuq müharibə başa çatdıqdan sonra o, dünyanın yeganə fövqəl və ya “hipergüc”ə malik bir ölkəsinə çevrildi.

ABŞ II Dünya müharibəsindən sonra iqtisadi, siyasi və hərbi baxımdan dünya siyasətində dominant gücə sahib olmaqla yanaşı, beynəlxalq münasibətlər sisteminə müsbət və ya mənfi mənada təsir etmək iqtidarında olmuş və hər zaman qlobal liderlik üçün mübarizə aparmışdır.

Tədqiqat işi müasir beynəlxalq münasibətlər sisteminin qurulmasından, yəni, əsasən, 1945-ci ildən 2016-cı ilə kimi olan dövrdə ABŞ-ın Yaxın Şərqdə yürütdüyü siyasətdən bəhs edir. Bu siyasəti, onun istiqamətləri və şərtləndirən amillərinin aktuallığını izah etməzdən öncə, Yaxın Şərq istilahına aydınlıq gətirmək lazımdır. Tarixən qəbul olunmuş ənənəvi Rusiya və ya Sovet terminologiyasına, eləcə də Azərbaycanda qəbul edilmiş terminologiyaya əsasən bizim Yaxın Şərq dediyimiz region Qərb ölkələrinin müəllifləri tərəfindən Orta Şərq anlamına gəlir. İngilis dilində tərcümədə “the Middle East” Orta Şərq deməkdir. Yaxın Şərq istilahı ancaq MDB

ölkələri və Rusiya Federasiyası elmi dairələrində istifadə olunur. Çünki Moskvadan baxanda bu region Yaxın Şərqdir. Lakin Amerikadan, Avropadan və ya digər qonşu regionlardan baxanda bu region heç də Yaxın Şərq kimi görünmür. Bu məsələyə bu günün elmi prizmasından baxılmasına ehtiyac vardır.

ABŞ və Yaxın Şərq regionu ölkələri arasında münasibətlər keçən əsrdə baş vermiş dinamik dəyişikliklərin nəticəsi idi. Qeyd edilən dəyişikliyin məğzini anlamaq üçün bu dövr təqdim olunan dissertasiya işində tədqiq edilmiş və bununla yanaşı, müasir dövrdə ABŞ-ın Yaxın Şərq siyasətinin mahiyyətinin açılmasına cəhd göstərilmişdir. Tədqiq edilən mövzu dissertasiya işi kimi başlıca olaraq üç istiqamətdə araşdırılmışdır: ABŞ-ın enerji təhlükəsizliyinin təmini və enerji siyasəti, İsraillə müəyyən maraqlar üzərində qurulmuş güclü və dayanıqlı müttəfiqlik və qlobal hədəyə çevrilmiş beynəlxalq səviyyədə terrorla mübarizə.

XX əsrin əvvəlində Yaxın Şərq ABŞ-ın xarici siyasətində heç də önəmli yer tutmurdu və bu vəziyyət həmin əsrin 50-ci illərindən sonra dəyişməyə başladı. Bu dövrdən etibarən Vaşinqton öz gücünü Yaxın Şərqə doğru yönəltdi və böyük siyasi nüfuza malik olaraq, regionun əsas güc mərkəzinə çevrildi. Bu, regionun geo-strateji əhəmiyyətindən, ilk növbədə onun zəngin enerji ehtiyatlarından və çox zaman ABŞ-ın öz təşəbbüsü ilə müşayiət olunan qeyri-sabit siyasi mühiti ilə əlaqəli idi.

ABŞ-ın regiona göstərdiyi marağın əsasını zəngin karbohidrogen ehtiyatı təşkil etmişdir. Ucuz və milyardlarla ton neftin əldə edilməsi üçün mübarizə qaçılmaz idi. Regionda süni şəkildə qeyri-sabit hərbi-siyasi vəziyyət yaratmaq və bu vəziyyəti saxlamaq, dünyanın digər supergüclərinin regiona müdaxiləsinin qarşısını almaq və bu vəziyyətdən istifadə edərək ucuz neft axınını təmin etmək ABŞ-ın Yaxın Şərqdəki maraqlarının əsasını təşkil edirdi. Malik olduğu siyasi nüfuzdan əlavə ABŞ regionda daha da möhkəmlənmək üçün gələcəkdə də hərbi və iqtisadi güc tətbiq etmək niyyətini açıq şəkildə nümayiş etdirirdi.

1979-1982-ci illərdə ABŞ-ın sayca 39-cu prezidenti Cimmi Karterin milli təhlükəsizlik məsələləri üzrə sabiq məsləhətçisi mərhum Zbiqnev Bjezinki Yaxın Şərq regionun ABŞ-ın milli strategiyasında rolu haqqında bildirmişdir ki, Qazaxıstandan və Azərbaycandan tutmuş Səudiyyə Ərəbistanına kimi olan ölkələrin

demək olar ki, hamısı neft hasil edən ölkələrdir və bu da bölgənin əhəmiyyətini artırır. Belə ki, münasib qiymətlərlə enerjidaşıyıcılarına malik olma ehtiyacı iqtisadi sahədə dinamik inkişaf baxımından üç nəhəng region-Şimali Amerika, Avropa və Şərqi Asiya üçün həyati əhəmiyyət daşıyır. Məhz bu səbəbdən "bu regionda strateji dominantlıq, lap elə maskalanmış şəkildə əməkdaşlığa söykənsə belə, dünya hegemonluğuna nail olmaq üçün əhəmiyyətli addım oldu". [75, s.45]

ABŞ növbəti illərdə öz maraqlarının qorunması naminə regionda güclü bir müttəfiq axtarışına çıxdı. "Soyuq müharibə" kontekstində ABŞ Yaxın Şərqin hansısa bir ölkəsinin Sovet İttifaqı ilə yaxın münasibət qurmasına yol verməməyə çalışmışdır. İsrail dövlətinin yaranmasında bilavasitə həlledici rol oynamayan ABŞ bu ölkəni müttəfiq kimi seçdi və digər ölkələrlə də münasibət saxlamağa və onlar arasında nüfuzunu qorumağa çalışırdı. Öz maraqlarını heç nəyə qurban verməyi düşünməyən ABŞ İsrail dövlətinin regionda güclənməsi, ərazisinin genişləndirilməsi üçün aparılan kiçik və ya böyük miqyaslı hərbi əməliyyatlara göz yumdu və bəzən də İsrailin "haqlı" olduğunu bəyan etdi.

ABŞ dövlətinin perspektivindən yanaşdıqda ölkənin yeritdiyi xarici siyasətin tarixi iki hissəyə ayirır: 11 sentyabr 2001-ci ilə qədər olan dövr, 11 sentyabr 2001-ci ildən sonrakı dövr.

2001-ci ildən etibarən ABŞ və İngiltərənin təşəbbüsü ilə Yaxın Şərq dünyanın ən təlatümlü və təhlükəli regionuna çevrildi. XX əsrin 90-cı illəri ərzində Yaxın Şərq regionunda terrorçulara qarşı mübarizə aparılırdı. Bu mübarizə əl-Qaidə terror şəbəkəsinin 11 sentyabrda ABŞ-a hücumundan sonra əsaslı şəkildə dəyişdi. Dünyanın siyasi quruluşunu dəyişən bu hadisələrindən sonra ABŞ özünün Yaxın Şərq siyasətində köklü dəyişiklik etdi. Belə ki, xarici siyasətdə Yaxın və Orta Şərq ölkələrinə müdaxiləni əsas götürdü. Regionda "qeyri-demokratik rejimlər" pərdəsi altında həmin ölkələrə hərbi-siyasi müdaxilə və hakimiyyətlərinin devrilməsi, bu regiona demokratiya gətirmə niyyəti və ən əsası terrora qarşı müharibə XXI əsrin əvvəllərində ABŞ-ın Yaxın Şərqdə yürütdüyü siyasətin başlıca istiqamətlərindən birini təşkil edirdi.

Müasir mərhələdə ABŞ-ın Yaxın Şərq siyasətinin tədqiq olunması Azərbaycan Respublikası üçün də mühüm əhəmiyyət kəsb edir. Belə ki, coğrafi baxımdan Azərbaycan Respublikası bu regiondan məsafəcə heç də uzaqda yerləşmir. Azərbaycan dövləti regionda baş verən hadisələri daim izləyir. Azərbaycan Respublikası bütün dünyada, eləcə də Yaxın Şərq regionunda sülhün bərqərar olunmasına tərəfdardır və bunun həyata keçməsi üçün nəzərəçarpacaq dərəcədə vacib addımlar atmışdır. Azərbaycan dövləti terrorun sərhəd tanımadığını, terrorçunun isə dininin, milliyətinin, irqinin olmaması amilini anlayır və müasir dünyada sülhə və əmin-amanlığa təhlükə doğuran istənilən neqativ hallarla mübarizə aparmağın labüdüyünü qəbul edir. Məhz bu səbəbdən Azərbaycan Respublikası Yaxın Şərqdə terrora qarşı mübarizədə ABŞ-ın Cənubi Qafqazda etibarlı müttəfiqlərindəndir. Lakin bununla belə Azərbaycan Respublikasının özünün 30 ilə yaxındır erməni terrorundan əziyyət çəkməsinə baxmayaraq, ABŞ dövlətinin bu məsələdə mövqeyi birmənalı deyildir. NATO ilə Azərbaycan Respublikası arasında 1994-cü ildə bağlanmış Sülh Naminə Tərəfdaşlıq sənədi çərçivəsində Azərbaycan sülhməramlı qüvvələri Yaxın Şərqdə (İraq və Əfqanıstda) xidmət etmiş və regionda sülhün yenidən bərpa olunması üçün səylərini əsirgəməmişdirlər.

Digər bir səbəb isə, ABŞ-ın Yaxın Şərqdə olduğu kimi Azərbaycanda da enerji maraqlarının mövcud olması ilə əlaqədardır. Dissertasiya işi Yaxın Şərq regionunda enerji maraqlarının dərindən tədqiqi bizim gələcəkdə strateji hədəflərimizin elmi araşdırma çərçivəsində müəyyən olunması baxımından da çox aktualdır.

Son illər Çin Xalq Respublikasının və əsasən, texnologiyanın inkişafına əsaslanan “pələng ölkələri” fonunda Şərqi və Cənub-Şərqi Asiyanın iqtisadi və hərbi baxımdan sürətli inkişafı rəsmi Vaşinqtonu diqqəti müəyyən mənada Yaxın Şərq regionundan Asiya regionuna yönətlməyə vadar etsə də, Yaxın Şərqin zəngin enerji ehtiyatları, Vaşinqtonun başlıca müttəfiqi olan İsrailin təhlükəsizliyinin təmin edilməsi və böyük güclərin siyasi maraqlarının toqquşması ABŞ-a bir daha bu regionu diqqətdən kənar saxlamağın mümkünsüzlüyünü yada salır.

II Dünya müharibəsi başa çatdıqdan sonra, soyuq müharibə dövründən başlayaraq, yəni 1945-ci ildən 2016-cı ilə kimi olan bir müddətdə ABŞ-ın Yaxın Şərq

siyasəti yuxarıda qeyd edildiyi kimi konkret üç istiqamətdə-ABŞ-ın Yaxın Şərqdə enerji təhlükəsizliyinin təmin edilməsi, ABŞ-İsrail müttəfiqliyi və ABŞ-ın Yaxın Şərq regionunda terrora qarşı mübarizəsi araşdırılmamışdır. Qeyd edilən hər üç istiqamətin araşdırılması dissertasiya işini elmi cəhətdən aktual edən başlıca amildir.

Bütün yuxarıda göstərilənlərə əsaslanaraq demək olar ki, müasir mərhələdə ABŞ-ın Yaxın Şərq siyasətinin əsaslı tədqiqi elmi və siyasi aktuallıq kəsb edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işi xronoloji cəhətdən müasir mərhələdə ABŞ-ın Yaxın Şərqdə yürütdüyü siyasəti əhatə edir. Burada əsas dövr kimi 1945-ci il II Dünya müharibəsi bitdikdən 2016-cı il ABŞ-ın sayca 44-cü prezidenti Barak Obama adminstrasiyasının hakimiyyətinin son müddətinə kimi olan dövr götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri:** Mövzunun öyrənilmə vəziyyəti ABŞ-ın Yaxın Şərq siyasətinin tarixini dərindən və ətraflı tədqiqinə ehtiyacın böyük olmasını ortaya çıxarır. Hazırki tədqiqatın məqsədi yeni dünya düzəni qurulduqdan sonra mövcud tarixi ədəbiyyat materialları, rəsmi internet saytları, məlumatlar, liderlərin çıxışları, siyasi analitiklərin şərhləri və proqnozları, bu sahədə elmi təqdqiqat aparmış mütəxəssislərin elmi işləri və s. əsasında kompleks şəkildə və obyektiv araşdırılaraq, ABŞ-ın Yaxın Şərq siyasətini, onun xüsusiyyətlərini, regional və beynəlxalq münasibətlərə təsirini öyrənməkdən ibarətdir.

ABŞ-ın Yaxın Şərq siyasəti heç də müasir dövrdə, yəni yeni dünya nizamı qurulduqdan sonra formalaşmamışdır. Bu siyasətin tarixi I Dünya müharibəsi, lakin lap fəal şəkildə regiona müdaxiləsi II Dünya müharibəsindən sonra baş vermişdir. Bunun bir sıra səbəbləri vardır. Bu səbəblər ətraflı araşdırılaraq və təhlil edilərək dissertasiya işində öz əksini tapmışdır.

Yuxarıda sadalananları nəzərə alaraq, əsas diqqət aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir:

- Yaxın Şərqdə ABŞ-ın maraqlarını müəyyən etmək;
- ABŞ-ın regionda iştirakının əsas mərhələlərini müəyyənləşdirmək;
- Tədqiq olunan dövrdə Yaxın Şərqdə yeni qüvvələr balansını və ABŞ-ın siyasətində dəyişiklikləri təhlil etmək;

- ABŞ-ın Yaxın Şərq siyasətində İsrail və onun təhlükəsizliyinin təmini məsələsini və onun həm İsrail, həm də ABŞ üçün əhəmiyyətini araşdırmaq;
- XXI əsrin ilk illərindən ABŞ-ın Yaxın Şərqdə terrorla mübarizə və müharibəsinə dair tədqiqat aparmaq;
- Regionda olan münaqişələr və onların həlli istiqamətində görülən işləri öyrənmək;
- ABŞ-ın Yaxın Şərq siyasətinin mahiyyətini müəyyənləşdirən daxili və siyasi faktorları işıqlandırmaq.

**Mövzunun öyrənilmə səviyyəsi.** ABŞ-ın Yaxın Şərq siyasətinə dair ən çox ədəbiyyat əcnəbi, xüsusilə də ingilis dilindədir və dissertasiya işi də müasir mərhələyə aid olduğu üçün tədqiqat zamanı ən son çapdan çıxmış kitablardan istifadə olunmuşdur. Bunlardan biri Favaz A. Gergesin 2012-ci ildə çapdan çıxmış "Obama və Yaxın Şərq" əsəridir və Azərbaycan tarixşünaslığında ilk dəfədir ki, bu əbəbiyyat tədqiqata cəlb olunur. [174] Müəllif kitabında Barak Obama adminstrasiyasının Yaxın Şərq siyasətinin əsaslarını və ondan öncəki prezident Corc Uoker Buş adminstrasiyasının XXI əsrin əvvəlində İraqa hərbi müdaxiləsi və bu müdaxilənin nəticəsi kimi regionda gərgin olan vəziyyəti daha da qəlizləşdirərək bu siyasətin həyata keçirilməsində yaratdığı çətinlikləri tədqiq etmişdir. Kitabda müəllif, əsasən, Barak Obama hakimiyyətə gəldikdən sonra onun və adminstrasiyasının Yaxın Şərqə dair siyasi kursunu, terrora qarşı müharibənin başqa terminlə əvəz edilərək eyni siyasətin həyata keçirilməsini, demokratiya dalğasının regiona gətirilməsini və bunun region üçün əhəmiyyəti, bölgədə yaşayan xalqların buna nə dərəcədə hazır olub olmamasını tədqiq edir. Mövzu tədqiq olunarkən, ABŞ-ın Yaxın Şərq siyasətinin fərqli aspektlərini müqayisəli şəkildə təhlil etmək üçün, müəllifin bu əsəri ilə yanaşı, terrorizm və Ərəb dünyasında Qərbin bu siyasətinə qarşı baş qaldıran etiraz və qiyamlardan bəhs edən digər "Yaxın Şərq. Ərəb dünyasında inqilab" və "Əl-Qaidənin yüksəlişi və enişi" adlı tarixi əsərlərindən də istifadə olunmuşdur. [173]

Kayli Bakster və Şahram Əkbərzadənin müəllifi olduğu "ABŞ-ın Yaxın Şərqdə xarici siyasəti. Amerikaya əks meyillərin tarixi kökləri" adlı əsərində ABŞ-ın Yaxın

Şərq siyasətinin tarixi kökləri, II Dünya müharibəsindən sonra bu regiona artan marağı, regionda gedən siyasi proseslər, müharibələr, İsrail dövlətinin yaranması və onun yaranması ilə bağlı həllinə bu günə kimi nail olunmayan İsrail-Fələstin münaqişəsi ətraflı şəkildə araşdırılmışdır. [195] 11 sentyabr hadisələrindən sonra ABŞ-ın İraqa hərbi müdaxiləsi və onun nəticələri, ABŞ tərəfindən yürüdülən ikili siyasət və bu siyasətin nəticəsində ABŞ dövlətinə qarşı mənfi meylərinin yaranması əsaslı şəkildə tədqiq edilmişdir. Kitabda verilən məlumatların dərindən öyrənilməsi və eləcə də istinad edilən mənbələr və onların araşdırılması dissertasiya işinin yazılması üçün mühüm əhəmiyyət kəsb edir.

Corc Uoker Buş adminstrasiyasının siyasətini araşdırmaq, İraqa müdaxilənin və terrora qarşı müharibənin görünməyən və ictimaiyyətə məlum olmayan səbəblərini təhlil etmək dissertasiyada bu mövzuya aid düzgün nəticələr çıxartmağa imkan verir. Kamal Akmaralın 2005-ci ildə çapdan çıxmış "Ben Bush Evangelist Bush" adlı əsərində müəllif Buş və onu dəstəkləyənlərin əsl simaları, gizli məqsədləri, törətdikləri cinayətləri və hədəflərini əsərdə açıq şəkildə bəyan etməyə çalışır. [48] Müəllif kitabda Buşu və onu dəstəkləyələrin evangelist olduqlarını iddia edir. Evangelistlər incildən moizələr oxumaqla, təlimlər keçməklə və ya xüsusi məlumatlar verməklə digər dindən olan insanları xristian dininə yönəldən böyük sayda üzvlərə malik missioner qrupdur. Müəllif onların sayının günü gündən artdığını, evangelistlər üçün İsa Məsihin də mənsub olduğu bütün dünyadakı israiloğullarını bügünki İsrail torpaqlarından daha böyük torpaqlara sahib bir İsrail dövlətinə toplanmalarının zəruri olduğunu, bu dövlətin ərazisi bütün Mesopotamiyanı, xüsusən də müqəddəs torpaqları əhatə etməli olduğunu və burada bir nəfər də olsun müsəlmanın qalmalı olmadığını istəyirlər. Onların fikrincə, "Amerikanı idarə edən, dünyanı idarə edir".

2008-ci ildə Fərid Zəkəriyyə tərəfindən yazılmış "Amerikadan sonrakı dünya" adlı əsəri dissertasiya işinin yazılması zamanı öyrənilmiş və istifadə olunmuşdur. [200] Əsər, əsasən, 2000-2007-ci illər ərzində dünyada gedən proseslərdən bəhs edir. Əsərdə XXI əsrdə baş vermiş bir sıra proseslərin hansı nəticələrə səbəb olacağı, bu dəyişikliklərin ABŞ və onun dominant mövqeyinə necə təsir edəcəyi, sülh-müharibə, iqtisadiyyat-biznes, fikir və mədəniyyət prizmasından yanaşıldıqda bu əsrin dünyaya

nə vəd edəcəyi ilə bağlı araşdırmalar aparılmışdır. Bu istiqamətdə ABŞ-ın siyasi mövqeyini öyrənmək dissertasiya işinin yazılması baxımından olduqca vacibdir.

ABŞ-ın Yaxın Şərq siyasətini şərtləndirən başılca amillərdən biri regionun zəngin neft yataqlarına malik olmasıdır. Məhz bu amil ABŞ-ın regionda neft uğrunda apardığı siyasəti ətraflı araşdırmaq zərurətini yaradır. Conatan Kukun müəllifi olduğu "İsrail və sivilizasiyaların toqquşması" adlı kitabında Yaxın Şərqdə neft uğrunda aparılan mübarizələr, bunların sırasına Körfəz müharibələri, Səddam rejiminin devrilməsi, buna neokonservativ baxış və İsrailin rolu haqqında ətraflı araşdırmalar aparılmışdır. [193] Regionun müasir dünya tarixinin bu bölməsinin öyrənilməsində kitabın özünəməxsus yeri vardır.

ABŞ-ın Yaxın Şərq siyasətinin formalaşmasına təsir göstərən ən başlıca amillərdən biri İsrail dövləti və onun təhlükəsizliyi məsələsidir. Bu siyasətin formalaşmasında heç şübhəsiz ki, İsrail lobbisinin çəkisi çox ağırdır. ABŞ-ın bu regiona qarşı yürütdüyü siyasəti araşdırarkən, ABŞ, İsrail dövləti və İsrail lobbisinin qarşılıqlı münasibətləri, ABŞ-İsrail müttəfiqliyinin yaranması, lobbinin fəaliyyətini ətraflı araşdırmaq çox vacibdir. Məhz bu səbəbdən, Con J. Mearşaymer və Stefen M. Valtun müəllifi oldugu "İsrail lobbisi və ABŞ-ın xarici siyasəti" adlı kitabı çox qiymətlidir. [190]

II Dünya müharibəsindən sonra bir-birini əvəz edən ABŞ prezidentləri və onların doktrinalarında Yaxın Şərq siyasətinin təzahürü, Ərəb-İsrail, xüsusilə İsrail-Fələstin münaqişələri, intifadalar (üsyanlar), inqilablar, terror aktları, müharibələr, münaqişələrin həllinə çalışıldığı sülh danışıqları və s. məqamlar Peter L.Hahnın müəllifi olduğu "Münaqişələr və çal-çarpaz atışma. ABŞ və Yaxın Şərq 1945-ci ildən sonra" əsərində dərindən tədqiq edilmişdir. [216]

2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-ın Yaxın Şərqdə terrora qarşı müharibəsi İraqa müdaxilə ilə başladı. İraqa müdaxilə beynəxalq ictimaiyyətin kəskin narazılığına səbəb oldu. Bir sıra müəlliflər beynəlxalq ictimaiyyətin etirazı fonunda müəllifi olduqları kitablarda ABŞ-ın ikili siyasətini kəskin tənqid edərək, Corc Uoker Buş adminstrasiyasının İraqa müdaxiləsinə heç bir bəraətin olmadığını xüsusi vurğulayırdı. Çünki ABŞ İraq ərazisində heç də iddia etdiyi kütləvi qırğın silahlarının

inkişaf etdirilməsinə dair bir sübut tapa bilməmişdir. Lakin ABŞ-ın və xüsusilə Buş adminstrasiyasının siyasətini dəstəkləyən və ona bəraət qazandıran tədqiqat işləri vardır. Biz dissertasiya işində hər iki tərəfin baxışlarını əks etdirməyə çalışmışıq.

Bu tip əsərlərdən biri F.Fukuyamanın müəllifi olduğu, rus dilinə tərcümə olunmuş və dissertasiya işi zamanı məhz tərcümə variantından istifadə edilmiş “Amerika yol ayrıcında: demokratiya, hakimiyyət, neokonservativ miras” kitabıdır. [141] Bu əsərdə müəllif İraqa hücum addımını pisləyir, müharibənin heç bir mənasının olmadığını bildirir və qeyd edir ki, demokratiyanın zor gücü ilə qurulması heç bir nəticə verməyəcək.

Dissertasiya işinin əsasını ABŞ-ın Yaxın Şərq siyasətinin müasir mərhələdə araşdırılması, bu siyasətin formalaşması, onun səbəblərini, regionda gedən tarixi-siyasi prosesləri araşdırmaq üçün A.Y.Olimpiyevin müəllifi olduğu və 2004-cü ildə nəşr edilmiş “Yaxın və Orta Şərq. Beynəlxalq münasibətlərin aktual probemləri” adlı əsəri tədqiqat işinə cəlb edilmişdir. [114] Olimpiyevin əsərində əsas diqqət XX əsrin ortalarından sonlarına doğru Yaxın Şərqdə gedən tarixi-siyasi proseslər, münaqişələr, İsrail-Fələstin sülh danışıqları, regionda təhlükəsizlik problemləri, terrorizm təhlükəsinin regionda baş qaldırmasına yönəlmişdir.

2003-cü ildə Elman Nəsirli tərəfindən “ABŞ və dünya 11 sentyabr hadisələrindən sonra” adlı kitabı bu mövzuda yazılmış elmi əsərdir. Əsərdə müəllif terrorizmin mahiyyətini, xüsusiyyətini və onun tarixinin ətraflı şəkildə izahını vermişdir. [11] 11 sentyabr hadisələri və bu hadisələrdən sonra ABŞ-ın terrora qarşı müharibəsi, beynəlxalq terrorizmə qarşı aparılan mübarizə geniş şəkildə təhlil olunmuşdur. Əsər geniş mənbə bazası əsasında yazılmışdır. Dissertasiya işində ABŞ-ın terrora qarşı mübarizəsi geniş şəkildə araşdırılmış və adı çəkilən ədəbiyyatdan təqdim olunan dissertasiya işi zamanı istifadə olunmuşdur.

Tədqiqat işində müqayisəli paralellər apararkən Şiryayev B.A, [147] Suslov.D.V, [128] İvanov O.P, [96] Starichenok.V.V, [127] Melnikov Y.M, [110] Ali Tariq, [150] Bar-Siman-Tov Yaaov, [153] Bregman Ahron, [154,155] və s. kimi həm rus müəllifləri, həm fərqli milliyyətdən olan müəlliflərin ingilis dilində yazılmış, ingilis dilində rus dilinə tərcümə edilmiş və digər əsərlərə müraciət edilmişdir.

**Tədqiqatın mənbə bazası.** Təqdim edilən dissertasiya işinin və tədqiq edilən problemin araşdırılmasında bir sıra çox əhəmiyyətli mənbələrdən istifadə edilmiş və elmi dövriyyəyə cəlb edilmişdir. İstifadə olunmuş mənbələr qruplaşdırılaraq, aşağıdakı şəkildə aydın təqdim edilir:

- ABŞ və Yaxın Şərq dövlət və hökumət başçılarının çıxış, məruzə və bəyanat ları [211], [ 210]
- ABŞ, Azərbaycan, Rusiya, Pakistan, İsrail və digər ölkələrdə nəşr olunmuş dövrü mətbuat materialları [306]
- ABŞ Dövlət Departamentinin məlumatları [163]
- ABŞ Müdafiə Departamentinin yaydığı rəsmi məlumatlar [304]
- ABŞ-ın keçmiş dövlət və hökumət başçılarının memuarları [165],[202]
- Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatları [163], [257]
- ABŞ-da fəaliyyət göstərən Pyu, [292] Minilliyin İnkişafı Fondu, Böyük Yaxın Şərq və Şimali Amerikaya dair təşəbbüs fondu [253] və s. bu kimi qeyri-hökumət təşkilatlarının hesabatları və apardıqları sorğular.

Elmi-texniki nailiyyətlər bilavasitə yuxarıda göstərilən mənbələrə beynəlxalq şəbəkə vasitəsilə çıxış imkanı vermiş və bir çox hesabat, yazışmalar, memuarlar elektron formada internet vasitəsilə əldə edilmiş və tədqiqat prosesində mühüm mənbə funksiyasını həyata keçirtmişdir.

ABŞ-ın keçmiş və ilk qadın dövlət katibi olmuş Madlen Olbraytın 2006-cı ildə işıq üzü görmüş və rus dilinə tərcümə olunmuş “Din və dünya siyasəti” adlı əsəri tədqiqat işi üçün çox qiymətli bir mənbə hesab oluna bilər. [115] İraq müharibəsindən sonra ölkəsinə qarşı qismən və ya tam da olsa itirilmiş inamı geri qaytarmağa çalışan müəllif Avropa ilə münasibətlərə önəm verir. Buş adminstrasiyasının hesaba alınmamış nəticələrlə qarşılaşmağını və buraxdığı səhvləri qeyd etməsinə baxmayaraq, xanım Olbrayt demokratiyanın, bərabərliyin, azadlığın, dini dəyərlərin və ABŞ-ın bu dəyərləri yaymaq üçün xoşməramlı niyyətini, “kimsəsizləri qorumaq üçün” aparılmış “ədalətli” müharibələri xüsusi vurğulayaraq, Buş adminstariyasının atdığı hər bir addıma bəraət qazandırmış kimi olur.

Yuxarıda göstərilən ədəbiyyatdan əlavə ABŞ, Rusiya Federasiyası, Türkiyə Cumhuriyyəti və bir sıra Avropa ölkələrinin dövrü mətbuatda çap olunmuş qəzet, jurnal materialları, Yaxın Şərqə dair, xüsusilə ABŞ-da fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının, institutlarının hesabatları ilə də tanış olunmuşdur. Qeyd olunan materialların öyrənilməsi dissertasiya işinin yazılmasına yardım göstərmişdir.

Yuxarıda adları çəkilmiş mənbələrin bəzilərindən ABŞ-ın Yaxın Şərq siyasətinin başlıca istiqamətlərinin müəyyən edilməsində, regionda ABŞ-ın maraqları, onun Yaxın Şərq nefti hesabına enerji təhlükəsizliyinin təmin etməsi siyasətinin təhlil olunmasında, regionun bu günə kimi həll olunmamış münaqişələrinin araşdırılmasında, dünyanın qlobal probleminə çevrilmiş zaman, məkan, din, milliyyət, xalq amilinin heç birini özündə ehtiva etməyən və dünyanın heç bir ölkəsinin sığortalanmadığı bəşəri bəlaya çevrilən terrorizm fenomeninin əsas təhlükəsizlik problemi kimi öyrənilməsində istifadə olunmuşdur.

**Tədqiqatın metodoloji əsası.** Təqdim olunan və tədqiqata cəlb edilmiş ilkin mənbələrin materiallarının və tədqiqatlardakı faktların, ümumiləşdirmələrin, mülahizələrin obyektiv təhlili dissertasiyanın metodoloji əsasını təşkil edir. Dissertasiya işində qarşıya qoyulan məsələləri tədqiq edərkən mövcud fakt və hadisələrin müqayisəli təhlilinə üstünlük verilmiş, nəzəri yanaşma metodu əsas götürülərək tarixçilik prinsipinə əməl olunmuşdur. Müəllif ABŞ-ın Yaxın Şərq siyasətinin tarixi ilə bağlı istənilən bir məsələni araşdırarkən ilk növbədə sinxron mənbələrin faktlarına əsaslanmış, həmçinin tarixi ədəbiyyatda həmin məsələlərlə bağlı mülahizələrə də diqqət yetirmiş, elmi ümumiləşdirmələrin aparılmasına, obyektiv elmi nəticələrin əldə olunmasına çalışmışdır.

**Tədqiqatın elmi yeniliyi:** ABŞ-ın Yaxın Şərq siyasəti haqqında fərqli dövrlərə aid müxtəlif dillərdə çoxlu sayda əsərlər və elmi işlər mövcuddur. Lakin buna baxmayaraq, tədqiqatın elmi yeniliyi ilk öncə müasir mərhələdə ABŞ-ın Yaxın Şərq siyasətinin kompleks şəkildə öyrənilməsi ilə əlaqədardır. Müasir mərhələdə ABŞ-ın Yaxın Şərq siyasətinin əsas istiqamətləri öyrənilərək ümumiləşdirmələr aparılmış və

sadaladığımız problemlər üzrə vacib elmi nəticələr əldə edilmişdir. O cümlədən dissertasiyada:

- ilk dəfə olaraq I Dünya müharibəsindən sonra ABŞ hökumətinin Yaxın Şərqdə siyasi vəziyyəti araşdırmaq üçün Kinq-Kreyn komissiyasının formalaşdırılması və regiona ezam edilməsinə dair araşdırmalar mənbələrin faktları əsasında müəyyənləşdirilmiş;
- ilk dəfə olaraq böyük xronoloji çərçivədə ABŞ-ın Yaxın Şərq siyasətinin tarixi inkişaf mərhələləri araşdırılmış, ABŞ-ın regionda siyasi və hərbi müdaxiləsi tədqiq edilmiş;
- ilk dəfə olaraq XX əsrin 60-cı illərindən başlayaraq, ABŞ daxilində və xarici ölkələrdə ABŞ-a məxsus hərbi obyektlərdə ona qarşı baş vermiş terror aktları, onların səbəbləri ayrıca təhlil edilmiş;
- ilk dəfə olaraq Corc Uoker Buş adminstrasiyasının Yaxın Şərq ölkəsi olan İraqa hərbi müdaxiləsi və nəticədə İraqda mövcud rejimin devrilməsi güclü mənbə və konkret faktlara əsaslanaraq araşdırılmış;
- Barak Hüseyn Obama adminstrasiyasının hakimiyyətə gəlməsi və onun hakimiyyəti illərində (2008-2016) ABŞ-ın Yaxın Şərq siyasətində baş verən dəyişikliklər ətraflı şəkildə işıqlandırılmış;
- ilk dəfə olaraq ABŞ-ın Yaxın Şərq neftindən asılılığı azaltmaq üçün apardığı siyasət, lakin eyni zamanda digər dövlətlərin regionda hegemonluğunun qarşısını almaq üçün atdığı addımlar geniş şəkildə tədqiq edilmiş;
- Yaxın Şərqdə ABŞ-ın yürütdüyü siyasətə birtəfəli baxılmamış, ABŞ-ın dövlət xadimlərinin memuarları mənbə kimi istifadə olunaraq, dünyanın və beynəlxalq ictimaiyyətin ABŞ-ın Yaxın Şərqdəki siyasətinə haqq qazandırmamasına baxmayaraq, öz ölkələrinin siyasətinə bəraət verməyə çalışması haqda faktlar təqdim edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** ABŞ-ın Yaxın Şərq siyasətinin özəlliklərinin müəyyən edilməsi, beynəlxalq münasibətlər sisteminə təsir etməsi praktik və nəzəri cəhətdən böyük əhəmiyyət kəsb edir. Dissertasiyanın özündə ehtiva etdiyi məlumatlar, alınan nəticələr və aparılmış ümumiləşdirmələr regional

münaqişələrin təkamülü və genezisinin aktual suallarına cavab verilməsi baxımından çox əhəmiyyətlidir.

İş prosesində əldə olunan nəticələr öyrənilən problemlə bağlı müəyyən proqnozların verilməsinə və qiymətləndirmələrin aparılmasına kömək edir. Dissertasiyanın materiallarından Yaxın Şərq problemi, ABŞ-ın bu regiondakı siyasəti ilə bağlı tədqiqatların aparılmasında, analitik materialların hazırlanmasında istifadə edilə bilər.

Bundan başqa, dissertasiya işindən tədris müəssisələrində problemlə bağlı dərsliklərin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında istifadə edilə bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitunun Elmi Şurası tərəfindən təsdiq olunub və həmin İnstitutun "Ümumi tarix" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları məqalə və tezis şəklində müxtəlif elmi məcmuələrdə dərc olunmuş, bir sıra elmi konfranslarda məruzə edilmişdir. Dissertasiya işi AMEA-nin "Ümumi Tarix" şöbəsində iki dəfə müzakirə olunmuşdur.

Bundan əlavə, tədqiqatçı 2018-ci il 16 iyun-30 iyul tarixlərində ABŞ Dövlət Departamentinin və ABŞ-ın Azərbaycan Respublikasındakı səfirliyinin dəstəyi ilə bu dövlətdə tədqiqatçı-alimlər üçün təşkil olunmuş və əsasən ABŞ-ın Yaxın Şərq siyasətinə həsr edilmiş "ABŞ-ın xarici siyasəti"i proqramda iştirak etmişdir. ABŞ Dövlət Departamenti, ABŞ Konqresi, BMT və ABŞ-ın bu təşkilatdakı nümayəndə heyətinin rəhbəri ilə görüş də daxil olmaqla, bir sıra digər hökumət və həmçinin, Pyu Araşdırmalar mərkəzi (Pew Research Center), Freedom House, Carnegi Şurası (Carnegie Council), Xarici Əlaqələr Şurası (Council on Foreing Relations), Amerika-İsrail İctimai Əlaqələr Komitəsi (AİPAC) və s. kimi qeyri-hökumət təşkilatlarında keçirilən görüşlərdə iştirak etmişdir. ABŞ-ın xarici siyasəti, xüsusilə də Yaxın Şərq siyasətinə dair aparılan müzakirələrdə iştirak etmişdir.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyatdan siyahısından ibarətdir.

# I FƏSIL

# ABŞ-ın YAXIN ŞƏRQDƏ ENERJİ TƏHLÜKƏSİZLİYİNİ SİYASƏTİ

## 1.1. ABŞ-ın enerji siyasətinin formalaşmasında və onu şərtləndirən amillərdə Yaxın Şərq regionu

Qlobal siyasətdə önəmli rol oynayan Amerika Birləşmiş Ştatları dünyanın yeganə fövqəlgücü kimi beynəlxalq münasibətlər sisteminə böyük miqyasda nüfuz etmək iqtidarındadır. Bir sıra sosial şərhçilərin "Amerika birbaşa və ya dolayı yolla planetdə mövcud olan hər bir insanın, cəmiyyətin və millətin həyatına nüfuz edir" fikrini bildirməsi heç də təəcüblü deyildir. [223,s.58] ABŞ-ın milli təhlükəsizlik siyasəti müvafiq tarixi mərhələyə uyğun olaraq, xarici siyasi reallıqlar əsasında formalaşır. Məhz bu səbəbdən ABŞ-ın strateji orientasiyasında baş vermiş hər hansı bir dəyişikliklər beynəlxalq əlaqələr və bütövlükdə, dünya ictimaiyyətinə təsir göstərən amillərlə birbaşa əlaqəlidir. ABŞ-ın xarici siyasət strategiyası fundamental əsaslara malikdir. Bu strategiya özündə ABŞ-ın milli maraqlarını həyata keçirməyi ehtiva edir.

Müasir dövrdə enerji siyasəti birbaşa olaraq, dünyada gedən siyasi proseslər və onun təsiri ilə əlaqəlidir. Neft bazarının inkişafına əhəmiyyətli dərəcədə təsir edən amillərdən biri ABŞ-ın müəyyən etdiyi siyasətdir. Milli təhlükəsizliyin təmin edilməsi ABŞ-ın xarici siyasətinin əsasını təşkil edir. Bunun ən mühüm tərəfi ölkənin enerji təhlükəsizliyinin təmin edilməsidir. [297]

Bəs Yaxın Şərqin ABŞ enerji siyasətində və ümumiyyətlə tarix boyu dünya siyasi səhnəsində çəkisinin bu dərəcədə ağır olması hansı səbəblərə əsaslanır? Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən olan Yaxın Şərq tarix boyu siyasi mübarizələrin cərəyan etdiyi önəmli regionlardan biri olmuşdur. Ortaq mədəni, dini və etnik ünsürləri özündə etiva edən cəmiyyətlərə sahib olmasına baxmayaraq, Yaxın Şərq illər ərzində yeraltı sərvətləri ilə dünyanın hegemon gücləri tərəfindən bölüşdürülməyə məruz qalmış, mübarizə və münaqişə mərkəzinə çevrilmişdir.

Regionun dünya siyasətində mühüm yer tutmasının bir sıra səbəbləri vardır. Bunlardan birincisi və bəlkə də, ən önəmlisi dünya enerji ehtiyatının başında duran neft amilidir. İkincisi, müsəvi, xristian və islam dininin bu torpaqlarda meydana gəlməsi və nəticə etibarı ilə bu dinə mənsub olan kütlələr arasında regionu mənimsəmək istəyi uğrunda mübarizənin aparılmasıdır. Üçüncü səbəb isə regionun əsrlər ərzində üç qitə arasında mədəni və iqtisadi körpü rolunu oynamasıdır. Sadalanan bu amillərin geniş şəkildə izahını vermək mövzunu anlamağa kömək edər.

Dünya neft ehtiyatının 65,3%-i Yaxın Şərq, 9,11%-i Cənubi və Mərkəzi Amerika, 7,3%-i Afrika, 6,2%-i keçmiş Sovet İttifaqı ərazisi, 6,1% Şimali Amerika, 4,2%-i Cənub-şərqi Asiya və 1,8%-i isə Avropanın payına düşür. [32, s.22] Rəqəmlərdən də göründüyü kimi Yaxın Şərqin enerji ehtiyatlarının həcmi Avropa və Asiya qitəsi ilə müqayisədə nəzərəçarpacaq dərəcədə çoxdur. Təbii qazın da dünya üzrə 36,1%-i Yaxın Şərq regionun payına düşür. Avropa neft ehtiyacının 75 %-i, Yaponyanın isə 90%-i məhz Yaxın Şərq nefti hesabına ödənilir. Çox mühüm strateji xammalın Yaxın Şərq regionunda toplaşması bu region uğrunda böyük dövlətlər arasında açıq-aşkar rəqabətin aparılmasına səbəb olmuşdur. Sənaye çevrilişindən sonra neft amilinin sənayenin inkişafında başlıca rol oynaması neft sənayesi güclü olan ölkələr üçün öz xarici siyasətini formalaşdırdıqları zaman bu məqamın nəzərə alması faktın vacibliyini bir daha ön plana çəkir. Yuxarıdakı rəqəmlər göstərir ki, dünyanın neft ehtiyatları baxımından Yaxın Şərq ən zəngin regiondur və təbii olaraq, inkişaf etmiş ölkələr bu regiona maraq göstərməkdədir. Məhz bu səbəbdən qloballaşan dünyada neft istehsal edən ölkələrin siyasi münaqişələrin və savaşların mərkəzində yer alması heç də təəccüblü deyil. Heç kimə sirr deyil ki, Yaxın Şərqin "işğalının" əsas səbəbi məhz neftdir. Belə ki, dünyanın mühüm neft ehtiyatlarının böyük hissəsinin bu bölgədə cəmləşməsi regionun başına bir bəla olmuşdur, savaşlar, terror aktları, insan itkisi bu regionun gündəlik həyat tərzinə çevrilmişdir.

Yaxın Şərqin dünya kapitalist sisteminin rəqabət meydana çevrilməsinə dair ABŞ siyasətçisi Noam Çomski öz fikrini belə ifadə edir: "Uzun müddətdir ki, Fars körfəzinin dünyanın neft ehtiyatı ilə zəngin olması məlumdur. Bu təbii ehtiyatın həcmi heç nə ilə müqayisə edilə bilməz. Bu regiona nəzarəti kim əldə edərsə, yalnız

o, ağlasığmaz dərəcədə zənginlik qazanar, eyni zamanda dünyanın idarə edilməsində söz sahibi olar. Çünki enerji mənbələrinə nəzarət çox mühüm bir amildir. İngiltərənin Yaxın Şərqdə qurduğu nizam və ona nəzarət tədricən ABŞ-a keçir. Nizam və ona nəzarət dedikdə, Qərb dünyasının, xüsusilə də ABŞ-ın bu regionda baş verən hadisələrə nəzarəti əlində saxlaması başa düşülür. Bundan başqa, bu, regionun zənginliyinin Qərbə, birbaşa olaraq, ABŞ və Böyük Britaniyaya axması demək idi. Məhz bu səbəbdən gəlirin Qərbə axması və iqtidarın Qərbin, xüsusən də, Vaşinqtonun əlində qalması çox vacibdir”. [33, s.325]

Yaxın Şərqin Qərbin güddüyü mənfəəti ödəməsinə baxmayaraq, bu regionda baş verən faciəvi və təhlükəli hadisələrə göz yumulmuş və hal-hazırda da yumulmaqdadır. Region ölkələri sənaye və iqtisadi cəhətdən inkişaf etməsələr də, neftə sahib olma baxımından dünyanın ən vacib mərkəzlərindən biri olduğundan, həm neftdən asılılığı davam edən, həm də dünya neft bazarını öz əlində saxlayan ölkələr üçün bu amil zənginlik deməkdir.

Əslində, Yaxın Şərqi dünya üçün bu dərəcədə önəmli edən yalnız neft amili deyil. Regiona əhəmiyyət qatan digər bir məqam dünyada yaşayan insanların böyük bir qisminin mənsub olduğu üç böyük dinin məhz bu regionda meydana gəlməsidir. Əslində, Yaxın Şərq əsrlər boyu sadəcə olaraq, mədəni başlanğıc yeri deyil, eyni zamanda Qərb və Şərq arasında mədəni dəyərlərin, sivilizasiyaların, inancların yarandığı və kəsişdiyi bir region olmuşdur. Qüds şəhəri həm müsəlman, həm xristian, həm də yəhudilər üçün müqəddəs məkanlarından biridir. Xristianlar Qüdsdə həcc ziyarətini həyata keçirirlər. Yəhudilərin məbəd divarının qalıqları bu şəhərdə yerləşir. Müsəlmanların da ilk qibləsi Qüdsdə olmuşdur. Məhz bu səbəbdən Yaxın Şərq bu üç dinin mənsubları üçün müstəsna bir regiondur. [37, s.5]

Xüsusilə də, Qüdsün Yaxın Şərqdə yerləşməsi bu regiona xüsusi bir özəllik qatır. Qüds şəhəri əsrlər ərzində dini çaxnaşmaların və münaqişələrin baş verdiyi şəhər olmuşdur. Buna ən uyğun misal Ərəb-İsrail müharibələri və regiondakı digər məzhəbə qulluq edən insanlar arasında olan münaqişələrdir. Bu cür münaqişələr regionda sülhün bərqərar olmasına maneə yaratmaqla yanaşı, Qərb dövlətlərinə regiona müdaxilə etmək üçün əlverişli şərait yaratmışdır.

Regionun digər bir özəlliyi “Avropa, Asiya və Afrika qitələri arasında mədəni və iqtisadi körpü rolunu” oynamasıdır. İpək, şəkər, sitrus meyvələri, kağız, barıt və kompas kimi Uzaq Şərqin malları Yaxın Şərq vasitəsilə Avropaya çatdırılmışdır. XV əsrdə dəniz yollarının kəşfi, daha sonrakı dövrlərdə Suveyş kanalının inşası və hava yollarından istifadə regionun bu səpkidə əhəmiyyətini azaltmışdır. Dünyanın ən önəmli su yolları olan Türk boğazları, Suveyş kanalı, Qırmızı dəniz, Bab-əl-Məndab boğazı, Hörmüz boğazı və Bəsrə körfəzi Yaxın Şərqdə yerləşir. Bu su yollarının nə dərəcədə mühüm əhəmiyyət kəsb etməsi 1956 və 1967-1970-ci illərdə Suveyş kanalının, 1980-ci illərdə isə Bəsrə körfəzinin bağlanması bu təhlükənin reallığını göstərdi. [56, s.74]

ABŞ-ın Yaxın Şərqdə enerji siyasəti və onu şərtləndirən amillər birdən birə formalaşmamışdır. Beynəlxalq münasibətlər sistemində güc balansının dəyişməsi, regionda baş verən proseslər və inkişaf edən dünyada ABŞ-ın artan maraqları, bitmək bilməyən istək və tələbləri bu amillərin formalaşmasına birbaşa təsir göstərmişdir. Bu amillərdən ən əsası ABŞ-ın öz ölkəsinə Yaxın Şərqin ucuz neft axınını təmin etməsi idi.

Qərb dövlətlərinin Yaxın Şərqin neft siyasətinə müdaxiləsi 1914-cü ildə Britaniya əsgələrinin İraqın cənubunda yerləşən Bəsrə şəhərinə gəlməsi ilə başlamışdır. Bu dövrdə ABŞ Yaxın Şərq neftinə və regionda müstəmləkəçilik siyasəti yeritməsinə çox da maraq göstərməmiş və xarici siyasət kursunun əsas istiqamətini cənubda Latın Amerikası və Karib hövzəsi, şərqdə isə Şərqi Asiya və Sakit okeanı hövzəsi təşkil etmişdir.

II Dünya müharibəsindən öncə də ABŞ bu regionun siyasətində yaxından iştirak etməmişdir. ABŞ-ın regiona olan marağı yalnız regionun neft sektoruna qoyulan investisiya, xüsusən də Osmanlı imperiyası tərkibində olan ərazilərdə təhsil və missioner fəaliyyəti ilə məhdudlaşırdı. ABŞ-ın missioner fəaliyyəti XIX əsrin əvvəllərində ABŞ ilə Osmanlı imperiyası arasında diplomatik əlaqələr qurulduqdan sonra başlamışdır. Missionerlər, əsasən, səhiyyə, din və təhsil sahəsində fəaliyyət göstərirdilər.

Yaxın Şərq ölkələrində Qərbin neft şirkətlərinin fəaliyyətə başlaması hələ XX əsrin ilk üç onilliyinə təsadüf edir. Uzun illər ərzində burada liderlik mövqeyində olan şirkətlər sırasında "Yeddi bacı" kimi tanınan və tamamilə regionun neft axınını nəzarətdə saxlayan neft (enerji) korporasiyaları idi. Bunlara ABŞ şirkətləri olan Exxon, Gulf Oil, Mobil, Chevron, Texaco, İngilis-holland şirkəti olan Royal Dutch Shell və Böyük Britaniya şirkəti olan British Petroleum daxil idi. Amerika şirkətləri üçün beynəlxalq neft biznesinə daxil olma, hər şeydən öncə ABŞ-ın sərhədləri xaricində amerikadaxili rəqabətin genişlənməsi demək idi. Çünki 7 şirkətin 5-i ABŞ şirkətləri idi. [233, s.45-46]

II Dünya müharibəsindən sonra isə Yaxın Şərqdə ağalıq edən dünyanın ən güclü dövlətlərindən biri olan ABŞ-ın regionda siyasətinin təməlini neft və hərbi-strateji mənafelər təşkil edirdi. ABŞ-ın siyasətində reallaşdırmaq istədiyi istənilən bir dəyişiklik, istənilən bir hərbi müdaxilə Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) istənilən bir gizli planı yalnız bir məqsəd üçün həyata keçirilmişdir: ölkəsini dünyanın ən mühüm enerji ehtiyatı olan ucuz və zəngin neft ilə təmin etmək. Misal üçün qeyd edək ki, 1947-ci ildə ABŞ silahlı qüvvələrinin sərf etdiyi yanacağın yarısı Ərəb dövlətləri tərəfindən təmin edilirdi. Bu fakta əsaslanaraq, MKİ-nin Yaxın Şərq neftinin "ABŞ-ın başlıca təhlükəsizlik mənbəyi" hesab etməsi heç də təsadüfi deyildi. [169, s.391] Mərkəzi Asiyada bir sıra neft ehtiyatlarının kəşf edilməsinə baxmayaraq, Yaxın Şərq hələ də dünyanın məlum neft ehtiyatlarının üçdən ikisinə sahib idi və bu ərazidə neftin istehsalı hələ də ucuz başa gəlirdi.

Soyuq müharibə kontekstində ABŞ Yaxın Şərqin enerji ehtiyatlarına xüsusi əhəmiyyət verməyə başladı. Region dünyada sübut olunmuş ən zəngin neft yataqlarına sahib idi və ABŞ rəsmiləri istər sülh, istərsə də, müharibə şəraitində Sovet İttifaqının neft ehtiyatlarına sahib olmasına imkan verə bilməzdi. ABŞ rəsmiləri həm də hesab edirdilər ki, daha geniş enerji təhlükəsizliyi tədbirləri çərçivəsində Yaxın Şərq regionunda Sovet İttifaqının təsirini sıfıra endirmək lazım idi. Bundan əlavə, regionda enerji maraqlarına sahib olan ABŞ Avropa və Yaponiya iqtisadiyyatının yenidən qurulması və canlanması üçün Yaxın Şərq regionun enerji ehtiyatlarından

istifadəsinə imkan verə bilməzdi, bununla belə Qərb yarımkürəsinin neft ehtiyatlarının qorunması da onlar üçün mühüm əhəmiyyət kəsb edirdi.

Yaxın Şərqin enerji ehtiyalarına birbaşa çıxış əldə etməsi 1950-ci illərdə də ABŞ üçün həyati əhəmiyyət daşıyırdı. Belə ki, 1955-ci ildə Yaxın Şərq dövlətlərinin sübut olunan neft ehtiyatları ümumilikdə 100-150 milyard barel arası təşkil etdiyi güman edilirdi, bu da ABŞ-ın sahib olduğu neft ehtiyatlarından üç-beş dəfə artıq idi. Yaxın Şərq dövlətləri gündəlik 3 milyon barel neft hasil edirdi. Bunlardan 1 milyon bareli Səudiyyə Ərəbistanı və Küveyt, 600000 barel İraqın payına düşürdü. Bu region ölkələri Qərbi Avropanın neft ehtiyacının 90%-ni təmin edirdi. 1956-cı ildə Pentaqon bəyan edirdi ki, "Yaxın Şərqdən axını kəsilməyən neft təminatı çox önəmlidir və bu axını heç bir vasitə təhdid etməməlidir". [160]

ABŞ siyasətçilərinin gizli siyasi sənədlərində belə region neftinin əhəmiyyəti ön plana çəkilirdi. 1947-ci il Britaniya və ABŞ rəsmilərinin gəldikləri razılıqda deyilirdi: "Əgər düşmən bu regionda nəzarəti ələ alsa, biz yalnız mühüm ehtiyatları itirməyəcəyik, həmçinin bizim təhlükəsizliyimiz üçün faciə olacaq strateji və iqtisadi vəziyyətə hökmranlığı itirəcəyik". [236]

1953-cü il yanvar ayının 20-də hakimiyyətə gələn Duayt Eyzenhaurenin Yaxın Şərq siyasətini formalaşdıran amillərdən biri məhz ABŞ-ın enerji təhlükəsizliyinin təmin edilməsindən ibarət idi. Bu siyasətə 1953-cü il avqustun 19-da İranın səs çoxluğu ilə seçilmiş baş naziri Məhəmməd Müssədiqin hakimiyyətdən devirilməsi də daxil idi. Belə ki, Məhəmməd Müssədiq 1951-ci il, mart ayının 8-də İran neftinin milləşdirilməsinə dair qanunun qəbulunda yaxından iştirak etmişdir. İran neftinin milliləşdirilməsi prosesi 1952-ci ildə İran ilə Britaniya və ABŞ arasında münaqişənin baş verməsinə zəmin yaratdı. Buna cavab olaraq, ABŞ İran neftinə qarşı baykot elan etdi və ölkədə dövlət çevrilişinin baş verməsinə birbaşa yardım etdi. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinə (MKİ) Müssədiqi hakimiyyətdən devirmək əmri verildi və bu məqsədə nail olmaq üçün MKİ-a 1 milyon dollar vəsait ayırdı. Nəticədə 1953-cü il

avqust ayının 19-da hakimiyyətdən devrilən Müssədiqin yerinə ölkədə ABŞ konsessiyalarını[1] bərpa edən Fəzullah Zahidi gəldi. [260]

XX əsrin 60-cı illərinin əvvəllərində də ABŞ-ın Yaxın Şərq strategiyası öncəki illərdən fərqlənməyərək, Körfəz neftinin rəqib əlinə keçməməsini təmin etmək məqsədini daşıyırdı. Qlobal iqtisadiyyatın təsiri səbəbindən Körfəz nefti hələ də əhəmiyyətli mövqeyini qoruyub saxlayırdı.

1960-cı ilin sentyabrında Neft İxrac Edən Ölkələrin Təşkilatı və ya adı ingilis əlifbasının baş hərfləri ilə adlandırılan OPEK (OPEC- Organization of the Petroleum Exporting Countries) adlı təşkilat təsis edildi. İlk öncə bu təşkilatın tərkibinə İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela, daha sonra isə təşkilata Abu-Dabi, Qətər, Liviya, Əlcəzair, İndoneziya, Nigeriya, Ekvador və Qabon daxil oldu.

OPEK-in üzvləri neftə konkret və dayanıqlı qiymət təyin etdilər. Qiymət dəyişikliyinə yalnız ixracçı ölkələrin hökumətləri ilə məsləhət xarakterli danışıqlar aparılmasından sonra mümkün ola bilərdi. Fars körfəzi zonasında olan OPEK üzvlərinin tələbi neft hasil edən şirkətlərin istismar xərclərinin ödənilməsi və yerdə qalan məbləğdən 50%-dən gəlir vergisi tutmaqdan ibarət idi. Bu isə il ərzində ölkələrin gəlirlərinin bir neçə faiz artması demək idi.

OPEK yarandığı gündən bu təşkilatın mövcudluğunun davam edəcəyinə inam çox az idi. Belə ki, bu və buna yaxın regionlarda yaranan təşkilatlar xarici təsir, daxili narazılıq və s. səbəblərdən çox uzun müddət mövcudluğunu davam etdirə bilməmişdir. Məhz elə "Yeddi bacı" adlanan neft (enerji) korporasiyaları ilk başda OPEK-in meydana çıxmasına ciddi yanaşmamış, lakin daha sonra bu mövcudluqdan narahat olmuş və getdikcə reallığı qəbul etmək məcburiyyətində qalmışdırlar. [234, s. 62]

XX əsrin 60-cı illərinin sonu və 70-ci illərində Yaxın Şərqdə region ölkələri ilə dünyanın böyük dövlətləri arasında münasibətlərin yeni dövrü kimi xarakterizə edilirdi. Münasibətlərin dəyişməsinin əsas səbəbi ABŞ-ın regionda İsrail dövlətini dəstəkləməsi idi və maraqlıdır ki, dolayı yolla da olsa, ABŞ-ın İsraili dəstəkləməsi

[1] ölkə daxilində sənaye müəssisələri təşkil etmək, mədən çıxarmaq və s. üçün dövlət tərəfindən ayrı-ayrı şəxslərə, şirkətlərə və ya başqa dövlətə verilən hüquq, imtiyaz;

onun enerji təhlükəsizliyi üçün bir hədəyə çevrildi. Belə ki, 1967-ci il Altı günlük müharibədən sonra regionda öz gücünü sübut edən və işğal olunmuş ərəb torpaqları sayəsində ərazisini altı dəfə artıran İsrail ABŞ üçün ən real müttəfiqə çevrildi. İsraili dəstəkləməsi Misir, İraq və Suriya da daxil olmaqla bir sıra Ərəb ölkələrinin ABŞ-la rəsmi əlaqələrini kəsməsi ilə nəticələndi.

Altı günlük müharibədən hiddətlənən Misir, Suriya və İordaniya İsrailə 1973-cü ildə yəhudilərin müqəddəs Yom Kippur günü hücum etdilər. Misir işğal olunmuş torpaqların bir hissəsini geri qaytarmağa müfəvvəq oldu, lakin müttəfiq qoşunları İsrail ordusu tərəfindən mühasirəyə alındı. Tərəflər arasında ABŞ-ın təkidi ilə atəşkəsə nail olundu.

Amerikalılar müharibənin təsirini 1973-cü ildə ərəblərin neftə embarqo qoyması ilə hiss etdilər. Belə ki, müharibədən sonra ABŞ-İsrail müttəfiqliyinin güclənməsi Ərəb dövlətlərini çox hiddətləndirdi və bu müharibə neft ticarətinin də siyasiləşdirilməsinə və onun geo-strateji alətə çevrilməsinə səbəb oldu. Səudiyyə Ərəbistanı başda olmaqla, OPEK Qərb dövlətləri və İsrailə embarqo qoydu. Əgər neft embarqosunun məqsədi İsraili 1967-ci ildə işğal edilmiş ərazilərdən çəkilməyə məcbur etmək idisə, o zaman bu, tamamilə yalnış bir strategiya idi. Bu, ABŞ adminstasiyasına Ərəb dövlətlərinin öz məqsədləri uğrunda siyasi və iqtisadi qətiyyət nümayiş etdirdiyini və İsrailin regionda mühüm rol oynamasını sübut etdi. İsrailin regionda davranışına təsir etmək üçün hazırlanmış neft embarqosu strategiyası ABŞ və İsraili bir-birinə daha da yaxınlaşdırdı. [195, s. 49-56]

Neft embarqosu kəskin qiymət artımına və dünyada enerji böhranının yaranmasına səbəb oldu. Bu hadisə ABŞ siyasətçilərinə Yaxın Şərq neftinin əhəmiyyətini bir daha sübut etdi və Vaşinqtonun regiona olan münasibətini dəyişdirdi. Embarqo prosesi zamanı kifayət qədər zənginləşən körfəz ölkələri özlərini regionun mühüm dövlətləri kimi təqdim etməyə başladılar.

Bundan əlavə, dünyanın aparıcı ölkələrində sənayenin inkişafı OPEK-ə qarşı güclərin birləşdirməsinə və bununla da, onun dünya neft bazarına təsir imkanlarını məhdudlaşdırmağa yönəlik fəaliyyət aparmasına səbəb oldu. Qısa zaman ərzində ölkələrin böyük əksəriyyəti milli iqtisadiyyatlarında neft və neft məhsullarının

istifadəsində qənaət etməyə müvəffəq oldular. Bu vəziyyət onlara beynəlxalq ticarətdə tələb və təklif arasında manevretmə qabiliyyətini müəyyənləşdirməyə imkan verdi. 1973-1974-cü illər neft böhranı zamanı ABŞ bir sıra müəssisələrdə, yaşayış məntəqələrində və məktəblərdə maye yanacaq təchizatını azaltmış, neft məhsullarının rasionlaşdırılması və vergilərin artırılmasına dair plan haqqında ictimaiyyətə məlumat vermişdi. Ümumi söyləsək, bütün sadalanan hərəkət neftin beynəlxalq qiymətinə dair Qərbin razılığının əlaməti, ya da onların yoluna çıxan maneə kimi qiymətləndirilə bilər. [90, s.130-140]

Qeyri-sabit və fərqli amillərinin neft bazarına mənfi təsiri fonunda Qərb dövlətləri OPEK-in mövcudluğundan hələ də narahat idilər. Buna görə də, XX əsrin son dörd onilliyində Qərb dövlətləri dünya neft bazarına nəzarətin saxlanılmasında və xüsusilə də neftin qiymətinin tənzimlənməsində iştirak etməkdə maraqlı idilər. Bu maraqların başında neftlə zəngin dövlətlərin yerləşdiyi regionu nəzarət altında saxlamaq dururdu.

1974-cü ilin əvvəlində Vaşinqton enerji böhranından tədricən çıxış planını hazırladı. ABŞ adminstrasiyasının rəhbəri neft idxal edən ölkələrin təşkilatının yaranması təklifi ilə çıxış etdi. Bu, öz növbəsində “anti-OPEK” hesab edilən və OPEK ölkələri ilə mübarizə aparmağı nəzərdə tutan Beynəlxalq Enerji Agentliyi idi. 1975-ci il fevral ayının əvvəlində Paris konfransında agentliyin iştirakçıları neft idxalının 10%-dək azalmasını qarşılarına məqsəd qoydular. Bunun əsas məqsədi alternativ enerji mənbələrini inkişaf etdirmək idi. Lakin konfrans iştirakçıları olan dövlətlər anlayırdılar ki, bu siyasətin özündə zidiyyətlər müşahidə edilməkdə idi. Belə ki, daha ucuz neft bir sıra digər enerji növlərini qeyri-rentabilli və böyük kapital yığımını lazımsız edəcəkdi. Vəziyyətdən çıxış yolu kimi OPEK üzvlərinin öz xammalarının qiymətini endirmək və müvafiq tarifə uyğun olaraq, idxalçı ölkələr daxilində bu qiymətləri yüksək səviyyədə saxlamaq təklif edilirdi. [90, s.130-140]

XX əsrin 70-ci illərin sonunda Fars körfəzi zonasında ABŞ-ın neft siyasətini qorumaq üçün qarşısına qoyduğu başlıca məqsədi: 1) region ölkələrinə qarşı kommunist və keçmiş SSRİ ideologiyasının təsirinin qarşısını almaq; 2) o zaman artıq formalaşmış radikal-sosial rejimlərin təsirinin gücləndirilməsinin qarşısını

almaq; 3) Fars körfəzində neftin əldə edilməsi sahəsində dominantlığı itirməyin qarşısını almaq; 4) cəmiyyətin ABŞ və onun müttəfiqlərinin maraqları ilə toqquşmaya səbəb olan yeni ümummilli sosial qarşıdurmanın qarşısını almaq. Bütün bunları əsas tutaraq, Qərbin Fars körfəzinə diqqəti və bu səbəbdən də onun regiondakı fəallığı daha geniş vüsət almağa başladı. ABŞ hökuməti Körfəzdə öz mövqeyini əsaslandıraraq bəyan edirdi: "Yaxın Şərq və Fars körfəzi enerji resurslarına, strateji vəziyyətinə, ölkənin bir sıra millətlərlə münasibətləri baxımından ABŞ üçün həyati önəm daşıyır. Cənub-Qərbi Asiyada baş verən hadisələr bütün dünyanın sənayesinə təsir edə bilər...Körfəzdən Qərbə neft axınına SSRİ-nin nəzarəti və onu manipulə etməsi Qərb üçün ciddi fəsadlar törədə bilər. Məhz bu səbəbdən biz Körfəzdəki müttəfiqlərimizi siyasi və iqtisadi cəhətdən xarici təcavüzdən qorumalı, həmçinin körfəzdən keçərək dəniz nəqiliyyatında da azadlığın təmin edilməsinə yardım göstərməliyik". [81, s.10]

Bu mərhələdə Qərbin Körfəzdə siyasi strategiyası heç də birmənalı deyildi. Bu siyasi strategiya regionda baş verən konkret hadisələrdən asılı idi. Konkret hadisələrə misal olaraq, 1979-cu ildə İranda şah rejiminin devrilməsi və bu ölkədə neft hasilatının dövlət nəzarətinə keçməsini misal göstərmək olar. Belə bir vəziyyət ABŞ-ın neft təhlükəsizliyi ilə bağlı ciddi problemlərlə üzləşəcəyindən xəbər verirdi. İnkişaf etmiş sənaye ölkələrində neftdən istifadədə vəziyyətin çətinləşməsinə və eyni zamanda Qərb, əsasən də, ABŞ üçün beynəlxalq ticarətdə heç də uyğun olmayan qiymətin qoyulması dəyişiklik etmək üçün alternativ metodların axtarışına səbəb oldu. 1979-cu ildə İran, Liviya və Pakistanda ABŞ əleyhinə baş qaldırmış etiraz nümayişləri ABŞ-ın neft təhlükəsizliyi ilə bağlı siyasətini zərbə altına qoyurdu. Bunun qarşısını almaq və nəzarəti yenidən ələ keçirmək üçün ABŞ İsrail-Ərəb münaqişəsinin alovlanmasında katalizator rolunu oynadı. [216, s.35-36]

Beləliklə də, XX əsrin 70-ci illərinin sonu 80-ci illərinin əvvəlində siyasi qarşıdurmanın üç əsas istiqaməti müəyyənləşdirildi: Əfqanıstan Demokratik Respublikası, İran İslam - İraq Respublikası və Ərəb yarımadasında yaranmış dövlətlər. Qərb çalışırdı ki, qütblər arasında qarşılıqlı güc birliyinin yaranmasının qarşısı alınsın və onlar arasında ziddiyyətli abu-hava saxlanılsın. Məhz bu səbəbdən

dünya bazarı üçün Körfəz neftinin dayanıqlı axınının əhəmiyyəti və Sovet təhlükəsinin region ölkələrinə real hədəsindən ABŞ fəal şəkildə öz xeyrinə istifadə edirdi. ABŞ regionda "dost" rejimlərə qarşı isti münasibətlər qurmaq istəyini, onlara müvafiq texnoloji siyasi və hərbi yardım göstərəcəyini, "düşmən" rejimlərə isə soyuq və kəskin münasibət bəsləyəcəyini bəyan etdi.

ABŞ-ın regionda apardığı siyasətə müdaxiləsi heç də həmin dövr üçün nəzərdə tutulmamışdır. Uzaqgörən siyasət 1982-ci ildə İsrailin Livana hücüm etməsi ilə reallaşır. Əsas səbəb kimi Fələstin xalqını təmsil edən Fələstin Azadlıq Təşkilatının zərərsizləşdirməsi göstərilmişdir.

İsrail-ABŞ müttəfiqliyinin güclənməsi əslində, düşünülmüş siyasi bir addım idi. Bu addım özündə növbəti illərdə Yaxın Şərqdə nəzərdə tutduğu əməliyyatları, İraqın zəiflədilməsini və onun neft sənayesinin ələ keçirilməsini ehtiva edirdi. Sonrakı onillikdə - 1994-cü ildə İordaniya və İsrail arasında heç də sülhə qapı açmayan saziş imzalanır. Saziş İraqın Ərəb dünyasından təcrid edilməsinə zəmin yaradaraq, növbəti illərdə onun neft ehtiyatlarının ABŞ-ın tam nəzarətinə keçməsinə rəvac verdi. [195, s.64-67]

XX əsrin son onilliyində Əfqanıstanda hakim rejimin süqutundan və İraq-İran müharibəsi bitdikdən sonra ABŞ Yaxın Şərq siyasətinə daha diqqətlə yanaşmağa başladı. İraqın Küveyti zəbt etdikdən və İranla Ərəb dövlətləri arasında düşmənçilik münasibəti yarandıqdan sonra ABŞ regionda formalaşmış radikal-sosial rejimlərin təsirinin güclənməsinin qarşısını almaq istiqamətində tədbirlər həyata keçirməyin labüdlüyünü anladı. Radikal islamçılıqdan günahlandırlan, ABŞ və İsrailə olan münasibətdə, ümumilikdə isə Körfəzdə siyasi vəziyyətə birbaşa təsir edən İran Vaşinqton tərəfindən onun dövlət maraqlarına təhlükə yaradan bir ölkə kimi qəbul edilirdi. ABŞ-ın növbəti düşməni isə regiona, onun enerji maraqlarına potensial təhlükə hesab edilən İraq dövlətinin olduğu elan olundu.

XX əsrin 70-80-ci illəri ilə müqayisədə, 90-cı illərində ABŞ iqtisadiyyatının neftdən asılılığı təqribən iki dəfə artmışdı. Bu dövrlərdə öz iqtisadiyyatını davamlı və ucuz neftlə təmin etmək üçün ABŞ İraq nefti ətrafında da mübarizəni gücləndirmiş, regionu nəzarətdə saxlamaq üçün ciddi geosiyasi problemlər və həlli çətin olan

münaqişələr yaratmışdı. İstər İranın, istərsə də İraqın qonşu Körfəz ölkələrinə təhlükə törədə bilməməsi üçün planlaşdırılmış ABŞ-ın İran və İraqda həyata keçirdiyi siyasi strategiyası Vaşinqtonun neft siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edirdi. ABŞ-ın İran-İraq müharibəsinə müdaxilə etməsinin əsas səbəbi məhz regionda enerji təhlükəsizliyinin təmini ilə bağlı idi. Belə ki, ABŞ-ın xarici siyasəti üçün qarşıda duran dilemma 1983-cü ildə İraqın İranın neft qurğularını və neft daşınmasına qarşı hücumları intensivləşdirəcəyinə dair hədələr bildirməsindən sonra dərinləşməyə başladı. İran isə Körfəzi tamamilə bağlayacağı ilə hədələdi. Taktiki silah kimi neftdən istifadə daha böyük dövlətlərin münaqişəyə cəlb olunmasına səbəb oldu. [181, səh. 8-10]

İrəlidə qeyd olunduğu kimi ABŞ-ın İran-İraq müharibəsinə cəlb olunmasının əsas səbəbi neft idi. ABŞ-ın müharibəyə cəlb olunmasında vasitəçi rolunu oynayan Küveytin də öz dövlət maraqlarına qulluq edən səbəbləri var idi. Belə ki, Küveyt regionda İranın qalibiyyətindən qorxur və ölkəsinin şiələrin əlinə keçməyindən ehtiyat edirdi. Məhz bu səbəbdən Küveyt ABŞ-ın münaqişəyə müdaxiləsinin zamanı gəldiyinə qərar verdi. Küveyt öz zəif geo-siyasi vəziyyətini sığortalamaq üçün ABŞ ilə neft sahəsində əməkdaşlığı gücləndirdi. Eyni zamanda İraqın da qalibiyyəti Küveytinin suverenliyi üçün hədə idi.

ABŞ-ın münaqişəyə müdaxilə etməsi müharibədə dönüş nöqtəsi oldu. Belə ki, ABŞ Körfəzə II Dünya müharibəsindən sonra ən iri miqyaslı hərbi-dəniz qüvvələrini yeritdi. ABŞ-ın xüsusi təyinatlı dəstələri İranın neft platformalarını məhv etdi və bir sıra İran gəmilərini suda batırdı. Bu, ABŞ-İran su münaqişəsinin yaxınlaşmasından xəbər verirdi. İran-ABŞ dəniz gərginliyi beynəlxalq ictimaiyyəti də narahat etməyə başladı və bir sıra dünya liderlərini İran və İraqa təzyiq göstərmək üçün BMT-ni 598 nömrəli qətnaməsini qəbul etməyə məcbur etdi. 1987 ildə qəbul edilən bu qətnamə hər iki tərəfdən dərhal atəşkəs elan etməyi tələb etdi. İranın 655 saylı uçuş təyyarəsinin təsadüfən ABŞ freqatı[2] tərəfindən vurulması bu münaqişədə fasilə etmək üçün həlledici bir məqam yaratdı. 1988-ci ildə İran qeyri-şərtsiz olaraq, BMT-nin 598 saylı qətnaməsini qəbul etdi və 1990-cı ildə formal olaraq, İran və İraq arasında sülh

[2] üçdorlu keşikçi hərb gəmisi

razılığına gəlindi. Bu müharibədə konkret məğlub və ya qalib tərəf yox idi. [193, s. 122-123]

Əfqanıstanı işğal etdikdən sonra Sovet İttifaqının Fars ekspansiyası, 1979-cu ildən sonra Körfəz ölkələrinə İranın hücümü, sonradan İran-İraq müharibəsinin regionun təhlükəsizliyinə təsiri və İranla aparılan müharibədən sonra Səddam Hüseyn tərəfindən meydana gələn təhlükənin strateji məzmununun ortaya çıxmasına baxmayaraq, ABŞ-ın Yaxın Şərq siyasətində məqsəd olduğu kimi qalırdı: Səudiyyə Ərəbistanı başda olmaqla, Körfəzin neft monarxiyalarını xarici təhlükələrdən qorumaq, digər sözlə, dünyanın neft sisteminin "ürəyini" regional siyasi qeyri-sabitlikdən müdafiə etmək.

XX əsrin son rübündə ABŞ-ın "gündəliyində" duran əsas məsələlərə Körfəzdə və ümumilikdə Yaxın Şərq dövlətlərində siyasi fəallığın artması, regionda sosial fəlakət və inqilab, müharibə və nəhayət, ABŞ başda olmaqla, Qərb ölkələrinin həm regionun, həm də bu region ölkələrinin ayrı-ayrılıqda daxili işlərinə birbaşa silahlı müdaxiləsi aid idi.

XX əsrin son onilliyində ABŞ-ın qlobal enerji strategiyasının prioritetini üç əsas istiqamət təşkil edirdi: Qərb yarımkürəsində yerləşən dövlətlər, Yaxın Şərq (Fars körfəzi zonası) və Xəzər dənizi. Qərb yarımkürəsində regionun neft ixrac edən ölkələrinin ABŞ mövqelərinə və ABŞ-a neft axınına heç bir maneə yox idi.

Xəzər regionuna gəldikdə isə, regionun neft ixracçısı rolunu sabitləşdirmək üçün bu region sənaye və infrastruktur baxımdan inkişafı mərhələsindən keçməli idi. Lakin bu heç də Xəzər regionunun zəngin enerji ehtiyalarına sahib olmaq üçün kifayət edən faktor deyildir. Belə ki, bir əsrə yaxın müddətdə Sovet İttifaqının tərkibində olmuş Xəzər dənizi hövzəsi ölkələri ABŞ üçün hər zaman qapalı məkan olmuşdur. Bu regionu öyrənmək, onun enerji ehtiyatları haqqında məlumat toplamaq üçün zaman lazım idi. Bundan əlavə, Sovet İttifaqı dağıldıqdan sonra yenicə müstəqillik qazanmış region ölkələri Rusiya kimi böyük dövlətin təsiri dairəsində idi. Üstəlik, zəngin enerji ehtiyatlarına malik bir regionun qapılarını Rusiya asanlıqla ABŞ-ın üzünə açmaq niyyətində deyildi. Region enerji daşıyıcısı üçün ən optimal marşuruta sahib olsa belə, bu ərazidə fərqli etnik qruplar arasında münaqişələrin mövcudluğu faktını bu

illərdə ABŞ öz enerji təhlükəsizliyini təmin etmək üçün apardığı siyasətdə nəzərə almağa məcbur edirdi. [136, s.58-64]

Beləliklə də, Körfəz ABŞ-ın geo-strateji maraqlarında başlıca obyekt kimi qalmalı idi. Bir sıra mütəxəssislərin fikrincə, əgər beynəlxalq siyasi məqamlar olmasaydı, bütün dünyada neft hasilatı Fars körfəzində cəmləşərdi. Bundan əlavə, Fars körfəzi regionu ABŞ üçün xüsusi geo-strateji əhəmiyyətə malikdir. Belə ki, bu region dolayı və birbaşa yolla Mərkəzi Asiya, Orta və Uzaq Şərq, Cənub və Cənub-şərqi Asiya, Aralıq dənizi və müəyyən mənada Avropaya çıxış deməkdir.

XXI əsrin ilk illərində enerji düzəni birbaşa olaraq, dünyada gedən siyasi proseslər və onun təsiri ilə əlaqəli idi. Neft bazarının inkişafına əhəmiyyətli dərəcədə təsir edən faktorlardan biri ABŞ-ın müəyyən etdiyi siyasət idi. Milli təhlükəsizliyin təmin edilməsi ABŞ-ın xarici siyasətinin əsasını təşkil edirdi. Bunun ən mühüm tərəfi ölkənin enerji təhlükəsizliyinin təmin edilməsi idi. Enerji təhlükəsizliyinin təmin edilməsi ABŞ iqtisadiyyatının birbaşa olaraq, dünyada istehsal olunan neftin ¼ -nə (bu rəqəmin yalnız yarısı ölkə daxilində istehsal olunurdu) olan tələbatı ilə izah olunurdu. 2000-ci illərdə ABŞ neftdən başqa digər enerji məhsulları ilə özünü təmin etmək iqtidarında idi. Enerjiyə olan ehtiyacın artması fonunda ABŞ-a neft yalnız xaricdən idxal olunurdu.

XXI əsrin ilk illərindən başlayaraq, dünyanı sarsıdan və Yaxın Şərq regionunda onsuz da sabit olmayan vəziyyəti daha da gərginləşdirən hadisələr baş verdi. 2001-ci ildə ABŞ-da hakimiyyətə sayca 43-cü prezident Corc Uoker Buş gəlir. Onun hakimiyyətə gəlməsindən bir neçə ay, yəni 11 sentyabr 2001-ci il terror aktından sonra prezident Corc Uoker Buşun administrasiyası Yaxın Şərqdə ABŞ siyasətini tamamilə yenilədi. O, xarici siyasətdə yenidən Yaxın və Orta Şərq ölkələrinə müdaxiləni əsas götürdü. 2001-ci il Buş adminstrasiyasının həyata keçirdiyi milli enerji siyasətində qeyd edilir ki, "Fars körfəzi ABŞ-ın beynəlxalq enerji siyasətində başlıca obyektdir, lakin bizim müdaxiləmiz qlobal səviyyədə olacaq. Qlobal enerji balansına başlıca təsir göstərən regionun mövcud və inkişaf etmiş sahələrinə önəm verəcəyik". [307. s.5]

Əgər faktlara baxsaq, görərik ki, gözümüzün qarşısında çox aydın mənzərə canlanır və bununla da hətta ABŞ-ın terrora qarşı müharibə adı ilə İraq neftini ələ keçirmək üçün bu ölkədə baş verən müharibənin səbəbkarlarını da müəyyənləşdirmək olar. Bu nöqteyi nəzərdən, İraqda və digər ölkələrdə baş verən hadisələrlə bağlı məsələnin məğzi ABŞ-ın rolunu və davranışının məntiqi strategiyasını öncədən müəyyən etməyə imkan verən üç sənəd aydınlaşdırır:

1. Kəşfiyyata dair ABŞ Milli Şurasının məlumatı (2000-ci il dekabr). Bu məlumat "2015-ci ilə kimi dünyadakı vəziyyətin inkişafı"na aid idi. XX əsrin əvvəllərində bugün özünü müəyyən mənada doğruldan və doğrultmayan proqnozlar verilmişdir. Belə ki, 2015-ci ildə dünyada neftə artan tələbatla bağlı ABŞ enerji böhranı ilə üz-üzə qalacaq. [128, s. 72-89] Bu fikrə rəvac verən əsas səbəb getdikcə Çin, Hindistan və həmçinin Avropanın enerji resurslarına artan tələbatı idi. Müəyyən mənada bu proqnoz özünü doğrultmadı. Belə ki, 2015-ci ilin sonunda ABŞ-ın illər ərzində gələcək nəsillər üçün saxladığı neft quyularının ağzını açaraq, onu dünya bazarına çıxartmaqla, neftin qiymətində kəskin enmə baş verməsinə səbəb oldu. Dünya bazarında təklif tələbi üstələdi.

Bundan əlavə məlumatda ABŞ-ın neft idxalını azaltması ilə bağlı məsləhət xarakterli məlumatlar təqdim olunur. Mütəxəssislər gündəlik idxalı 11 milyon bareldən 5-6 milyon barielə qədər azaltmağı məsləhət görürdülər.

2. 2001-ci ilin may ayında dərc edilmiş Corc Uoker Buşun enerji proqramı. Proqramda ABŞ Dövət Enerji və Enerji Adminstrasiyasına istinadən qeyd edilir ki, Yaxın Şərq dünyada məlum olan neft ehtiyatının 664 milyard barelinə sahibdir, bu ümumilikdə dünya neft etiyatlarının 1/3 hissəsi deməkdir. [307, s.3-5]

Proqramda qeyd edilir ki, 2020-ci ilə qədər Körfəzin neft istehsal edən ölkələri dünya neft ehtiyacının təxminən 54-67%-i ödəyəcəklər. Bu o deməkdir ki, qlobal iqtisadiyyat OPEK ölkələri, xüsusilə də Körfəz ölkələrindən asılığı davam edəcəkdir. Bu region ABŞ-ın milli maraqlarının qorunması naminə mühüm əhəmiyyət kəsb etməkdə davam edəcəkdir.

Proqramda həmçinin qeyd edilir ki, Asiya qitəsi dünyada məlum olan neft ehtiyatlarının cəmi 5%-nə malikdir və dünya neftinin təqribən 30%-ni bu qitənin

ölkələri istehlak edir. Sakit okean hövzəsinin inkişaf etməkdə olan ölkələri neft idxalını 2020-ci ilə qədər 43% artıracaqları güman edilir. Bu o deməkdir ki, Asiya ölkələrinin Yaxın Şərq neftindən asılılıqları növbəti illərdə də böyük olacaq.

Son illər Yaxın Şərqdən idxal olunan və Malakka boğazından keçən 15,8 milyon barel neftin 5,5 milyon bareli Çin Xalq Respublikasına axır və satış məhz oradan həyata keçirilir. Proqramda Çinin neftə artan tələbatı xüsusi olaraq vurğulanır və 2020-ci ilə kimi Çinin Yaxın Şərq neftinin idxal payı günlük olaraq, 5,5-dən 8 milyon barielə qədər artacağı ehtimal edilir. Belə ki, Çinin neft idxalının 70%-nin Yaxın Şərq neftinin payına düşəcəyi bildirilir. [306, s.5]

3. 2002-ci il ABŞ-ın milli təhlükəsizlik strategiyası. O zaman Amerika iqtisadiyyatının böhrandan çıxış yolu əsas enerji resursları olan regionları nəzarətdə saxlamaqda və neft qiymətlərini özü və yaxın müttəfiqləri üçün münasib etməyi reallaşdırmaqda idi. Bu da regionda müharibələr hesabına mümkün olacaqdı. [307]

Bu planın ardı regionda növbəti müharibə ilə davam etdi. İsraillə Livan arasında 2006-cı il iyul ayının 12-də başlamış və 34 gün davam edən hərbi münaqişədə ABŞ xüsusi maraqlara sahib idi. Beynəlxalq problemlərin həlli prosesində silahlı qüvvələrin oynadığı rolla yanaşı, özünün dünyada jandarm mövqeyini gücləndirmək, İrana qarşı zərbə endirmək üçün əlverişli şərait yaratmaq, öz vətəndaşlarını İraq və Əfqanıstandakı problemlərdən yayındırmağa cəhd etdiyi bir məqamda, ölkə ictimaiyyətini yeni bir hərbi macəraya hazırlamaq ABŞ-ın bu müharibədə nail olmağa çalışdığı məqsədlərdən idi. [310]

Yuxarıda qeyd edilən məqsədlərdən əlavə, İsrail-Livan müharibəsində ABŞ-ın məqsədləri sırasında region neftinin təhlükəsiz istismar edilməsi məqsədilə müvafiq təhlükəsizlik zonalarını yaratmaq, neft ehtiyatlarını təhlükədən qorumaq üçün hərbi-siyasi və iqtisadi zəmin yaratmaq istəyi də qeyd edilməlidir.

2008-ci ildə hakimiyyətə ABŞ-ın sayca 44-cü prezidenti Barak Obama gəlir. Buş adminstrasiyasının xarici siyasəti Yaxın Şərqi təhlükəli vəziyyətə salmışdı. Yeni hökumət boynuna regionda supergücün roluna bəraət qazandırmaq üçün çox çətin bir vəzifə götürdü. Qeyd etmək lazımdır ki, Çinin Şərqi Asiya regionda nəzərəçarpacaq dərəcədə inkişafı fonunda Obama adminstrasiyası xarici siyasət kursunda diqqəti

daha çox şərqi, cənub-şərqi Asiyaya yönəltmişdir. [174, s. 89-93] Lakin bu heç də ABŞ-ın uzun illər ucuz neft axınını təmin etdiyi Yaxın Şərq regionundan əl çəkməsi demək deyildi. İnkişaf edən dünyada neftə durmadan artan tələbat supergücü regionu daha da ciddi nəzarət altından saxlamağa vadar edirdi. ABŞ dövlətinin yaxın dövrlər üçün əsas məqsədi Yaxın Şərqdə əldə edilmiş zəngin ehtiyatın təhlükəsizliyinin qorunmasından və mümkün qədər artırılmasından ibarətdir.

Qeyd etmək yerinə düşər ki, XX əsrin sonlarında və XXI əsrin əvvələlərində neft amili həm müsbət, həm də mənfi tərəfi ilə region tarixinə daxil olmuşdur. Birinci halda, Körfəz ölkələrinin böyük hissəsi zəngin neft mənbələrinə sahib idi və beləliklə də, küllü miqdarda neftdən gələn gəlir dollarlar şəklində dövlət büdcəsinə daxil olurdu. Bu vəziyyət hakim dairələrə nəinki bu zənginlikdən faydalanmağa, həm də öz ölkələrində əhalinin rifahını qaldırmağa imkan verirdi. Nəticədə, bu ümumdaxili sosial ziddiyyətləri yumşaltmağa gətirib çıxarırdı.

İkinci halda, bu sərvət zənginliyi neft yataqları, ümumilikdə, bütün regionda ixracat axını üzərində nəzarət uğrunda mübarizənin şiddətlənməsinə səbəb oldu. Fars Körfəzi Əməkdaşlıq Şurasının üzvü olan dövlətlər (Səudiyyə Ərəbistanı, Küveyt, Oman, Qətər və BƏƏ), İran və İraq dünyada təsbit olunmuş neft ehtiyatlarının təqribən 64%-ə sahib idilər. Yalnız Səudiyyə Ərəbistanı dünya neft ehtiyatlarının təxminən 27%-ə nəzarət edirdi. [315] Bu mübarizəyə həm yerli siyasi qüvvələr, həm də xarici inhisar kapitalı fəal şəkildə qoşulurdu. XX əsrin 60-70-ci illərində yerli milli neft şirkətləri ilə xarici transmilli şirkətlər arasında ziddiyyətlər son mərhələyə qədəm qoydu: məhz bu onilliklərdə bütün Körfəz ölkələri öz ərazilərində neft sənayesinin milliləşdirilməsi prosesinin son mərhələsini həyata keçirirdi. Lakin beynəlxalq şirkətlərin əlində bir sıra vasitələrin saxlanılması və milli hökumətlərə təzyiq göstərmək vasitəsilə bu proses çətin reallaşırdı - bura beynəlxalq ticarətdə neft və qaz məhsullarının texniki təchizat və xidməti, kadr məsələləri, nəql etmə, paylaşdırma və reallaşdırmaya dair məsələlər aid idi.

Bundan başqa, neft və həmçinin neft məhsullarının ixracı və idxal olunmuş sənaye məhsulları arasında qiymətinin qoyulması ətrafında mübarizə çox gərginləşmişdi. Neft və eləcə də, qaz bölgədə həm region ölkələrinin öz aralarında,

həm xarici dövlətlərlə, həm də Körfəz ölkələri ilə siyasi vəziyyətin gərginləşməsinə səbəb olan başlıca amilə çevrildi.

### 1.2. ABŞ-ın region nefti uğrunda mübarizəsi

XX əsrin ilk illərindən başlayaraq sənayenin inkişafı və enerjiyə olan tələbat karbohodrogen ehtiyatları ilə zəngin olan Yaxın Şərqi ABŞ-ın iqtisadi maraqları dairəsinə daxil etdi. Neftə olan bu cür maraq ABŞ və Böyük Britaniya neft şirkətlərinin regionda konsessiya yatarmasına zəmin yaratdı. Bu, iki qərb dövlətinin regionda fəal iştirak etməsi yeni rəqabətin yaranması demək idi. 1908-ci ildə İranın ən böyük Məscid-i-Süleyman yatağının kəşf olunması İngilis-İran Neft şirkətinin yaranmasına təkan verdi. Bu şirkət regionda ABŞ-ın İranda neft maraqlarını rədd edirdi. London da öz növbəsində Ərəb liderlərinə təsir etmək yolu ilə ABŞ-ın Ərəb dövlətləri ərazisində neft konsessiyalarından təcrid etməyə çalışırdı. Lakin ABŞ Dövlət Departamentinin şikayətləri və digər neft faktorları Böyük Britaniyanı bu hərəkətindən yayındırmağa müvəffəq oldu. [216, səh. 2-3]

Uzun illər ərzində Osmanlı imperiyasının tərkibində olan Yaxın Şərq regionu, orada mövcud olan fərqli etnik qruplar, bu qrupların istək və arzuları, iqtisadi baxımdan regionun xammal potensialı ABŞ-ın heç də maraq dairəsinə daxil deyildi və tətqiq etdiyi region da olmamışdır. I Dünya müharibəsi Antantanın qələbəsi ilə başa çatdıqdan sonra Almaniyanın dəniz arxası və Osmanlı imperiyasına məxsus ərazilər mandat şəklində İngiltərə və Fransaya verilmişdir. [213, s. 169-170]

Qalib ölkələrdən biri olan ABŞ-ın prezidenti Vudro Vilson Yaxın Şərqdə əsrlər ərzində Osmanlı imperiyasının hakimiyyəti altında yaşamış xalqların müstəqil olmaq istəyini dəstəkləmişdir. [231, s. 24-25]

Yuxarıda qeyd etdiyi fikri dəstəkləmək, Ərəb xalqlarının arzusunun reallaşa biləcəyinə əmin olmaq və ərəblərlə müstəmləkə gücləri arasında baş vermiş gərginliyi aradan qaldırmaq üçün Vudro Vilson regiona nümayəndə heyəti göndərmək qərarına gəldi. Əslində, bu Osmanlı imperiyası tərkibində olan qeyri-türk ərazilərində ABŞ-ın apardığı ilk rəsmi araşdırma idi. Komissiyaya ABŞ-ın Oberlin

kollecinin prezidenti Henri Kinq və çikaqolu biznezmen və ərəbşünas Çarliz Kreyn rəhbərlik edirdi. Bu tarixdə ilk ərəb ictimai fikrini araşdıran bir komissiya idi. [174, s. 27-28]

Araşdırma zamanı Kinq-Kreyn komissiyası regionun demək olar ki, bütün xalqlarının mandat sisteminə qarşı olmaqla yanaşı, onların müstəqil ərəb idarəetməsinin tərəfdarı olmaları aşkar etdi. Fələstin və digər region xalqları Sionist proqramına qarşı idilər. Bu fikir ingilis və fransızların etirazına səbəb oldu və onlar qeyd etdilər ki, istər yaxşı, istərsə də pis halda Sionizmi bu torpaqlarla dərin köklər bağlayır və indi ərəblərin məskunlaşdığı torpaqlarda onların da var olma haqları mövcuddur. Xalqların istəyi müstəqillik və birləşmiş Suriya dövlətinin yaranması istiqamətində formalaşmışdır. [271]

Komissiya 1917-ci ildə İsrail dövlətinin yaranması üçün ilk addım olan Balfor Deklorasiyasını qəbul edir, lakin xüsusi olaraq qeyd edirdi ki, “bu hal qeyri-Yəhudi icmalarının mülki və dini hüquqlarının pozulmasına gətirib çıxarda bilər”. [174, s. 13-14]

Mandat sistemi qəbul edildikdən sonra Fransa Suriyanın mandatını əlinə aldı və bu 1920-ci ildə Livan dövlətinin yaranmasına təkan verdi. Regionun etnik azlığı olan xristian Marunilər böyük Suriyadan ayrı müstəqil dövlət qurmaq üçün torpaq tələb edirdi. Onlar regionda Fransanı dəstəkləyən başlıca etnik qrup olduqları üçün 1919-cu ildə regionda siyasi gücünü qorumaq məqsədilə Fransa Suriyanın sahil ərazilərindən torpaq qoparmaq niyyətində idi. Lakin Livan dövləti yaranandan sonra bu torpaq iddiası iddia olaraq qaldı və Kinq-Kreyn komissiyası Suriya və Livan arasında hər hansı bir suverenitetin bölüşdürülməsi halını qətiyyətlə rədd etdi. Çox güman ki, Maronit xristianlarının dövlət qurmaq ümidləri çox idi, çünki fransızlarla eyni dinə malik olmaq onlara bu ümidi verirdi. Lakin Fransa kimi bir ölkənin milli maraqları hansısa milli azlığa mənsub olan xalqın öz müqəddaratını təyin etmək istəyindən daha önəmli idi.

Komissiya elan etdi ki, Yaxın Şərq müstəqillik üçün heç də hazır deyildir. ABŞ region xalqlarının etibar edəcəyi tək dövlətdir və insanlara imperialist işğalçılıq siyasətindən daha çox müstəqilliyə aparan bələdçi ola bilmək iqtidarındadır. [279]

Komissiya 1919-cu il avqust ayının 28-də öz hesabatını ABŞ hökumətinə təqdim etdi. Rəsmi Vaşinqton ümid edirdi ki, bu hesabat San Remo konfransında əhəmiyyətli rol oynayacaq və regionun taleyinin həll edəcək.

Paris Sülh konfransı davam etdiyi bir vaxtda prezident Vudro Vilson Almaniya ilə bağlanılan sülh sazişi və Millətlər Cəmiyyəti təşkilatının yaradılması ilə bağlı müqavilənin imzalanması ilə ABŞ-a geri döndü. Bu zaman ərzində komissiya öz hesabatını prezidentə təqdim etsə də, sülh müqaviləsi Senat tərəfindən baxılmaması səbəbindən komissiyanın təqdim etdiyi hesabata diqqət yetirilmədi.

Hesabat ictimaiyyətə yalnız 1922-ci ildə Senat və Nümayəndələr palatasının Balfor Deklorasiyasına uyğun olaraq, Yəhudilərin milli evinin yaradılmasına xidmət edən birgə qətnamənin qəbul edilməsindən sonra təqdim edildi. Məlum olanda ki, ərəblərin böyük əksəriyyəti ABŞ mandatı daxilində demokratik yolla seçilmiş hökumət arzusunda idilər, bu ictimaiyyət arasında fikir haçalanması ilə müşahidə olundu.

Yaxın Şərqdə mandat uğrunda iki ölkə arasında gərginliyin artdığı bir müddətdə Böyük Britaniya hökumətinin rəhbəri Loyd Corc elan etdi ki, Suriya Fransa və Böyük Britaniya arasındakı dostluq münasibətlərinə maneə ola bilməz. Mandat səlahiyyətinin təqdiq olunması prosesi 1920-ci ilin aprel ayında San-Remo konfransında təsdiq edildi, lakin ABŞ bu konfransda heç bir rol oynamadı çünki vaxtı ilə Osmanlı imperiyasının tərkibində olan ərazilər, əsasən, Fransa və Böyük Britaniya arasında bölüşdürüldü. Fransa iddia etdiyi Suriya ərazisini, Böyük Britaniya isə Mesopotamiya (İraq) və Fələstin ərazisinin mandatını ələ aldı. [195, s. 20] Regionun böyük əraziyə malik torpaqlarını ələ keçirtdikdən sonra Britaniya və Fransa öz əməllərinə haqq qazandırmaq niyyətiylə beynəlxalq dəstək almaq üçün cəhdlər göstərdi.

Komissiyanın hesabatının region üçün konkret hansı nəticələri oldu? Əslində komissiyanın fəaliyyəti və hesabatı region üçün çox böyük əhəmiyyət kəsb etdi. Hesabat region xalqlarının müstəqillik və öz müqəddaratını təyin etmək arzusunu əks etdirirdi. Lakin hesabat xalqların müstəqillik və dövlətçilik arzusunu reallaşdıra bilmədi. İllər ötdükcə dünyada sənayenin inkişafı, avtomobil nəqliyyatında baş

vermiş sürətli yüksəlişi ilə neftə artan tələbat bu regionu xalqların milli müqəddəratını təyin etməyin vacibliyini düşünən ABŞ üçün ucuz neft axınını təmin etmək və dünyanın digər güclərinin regiona müdaxiləsinin qarşısını almaq üçün açıq şəkildə mübarizə meydanına çevirdi.

Beləliklə də, I Dünya müharibəsindən sonra Osmanlı imperiyası dağıldı. Nəticədə Britaniya qoşunları regionda nəzarəti ələ aldı. Britaniya rəsmilərinə sadiqliyi ilə seçilən və onlar tərəfindən təyin edilən kral Veysəl Böyük Britaniya tərəfindən idarə olunan İraq Neft Şirkəti konsessiyasının yaradılmasına dair razılıq imzaladı. Bu razılığa əsasən ölkə neftinə dair bütün hüquqlar xarici şirkətlərə verilmişdir. Yalnız yeraltı sərvətlərdən icarəyə görə İraq dövlətinə kiçik haqq ödənilirdi. [195, s. 32]

İraq nefti ABŞ-ın Yaxın Şərqdə neft maraqlarının önəmli tərkib hissəsini təşkil edirdi. Tədricən, ABŞ şirkətləri Yaxın Şərq neft sənayesində mühüm yer tutmağa başladı. 1920-ci illərin əvvəllərində Kərkukdə böyük neft yataqlarının kəşfindən sonra ABŞ İraq Neft Şirkətinin 20%-dən çoxuna sahib idi. Uzun illər gərgin rəqabətdən sonra ABŞ-ın sahib olduğu Körfəz Neft Şirkəti İngiltərə-İran Neft Şirkəti ilə birgə Küveyt Neft Şirkətini yaratdı. Bu şirkət dörd il sonra Küveytdə böyük neft yataqları aşkar etdi.

Ardıcıl müharibələrdən sonra və siyasi təşəbbüslər əsasında 1932-ci ildə Səudiyyə Ərəbistanı Krallığının əsası qoyuldu. Öz kapitalını qorumaq məqsədilə və şirkətin gəlirlərinin 16%-nin qarşılığında Kral Əbdül ibn Səud Kaliforniya Standart Neft Şirkətinə (Standard Oil of California) altı illik neft konsessiyasını verdi. 1936-cı ildə bu şirkət Kaliforniya-Ərəb Standart Neft Şirkətini yaratdı və 1939-cu ildə şirkət özünün ilk neft tankerlərini Fars Körfəzinə göndərdi. II Dünya müharibəsində neftə olan tələbatın kəskin artması ilə bu şirkət böyümüş və inkişaf etmişdir. [168, s. 298-300]

1940-cı illərin əvvəllərində ABŞ-ın dünyanın ən böyük neft istehsalçısı olmasına baxmayaraq, ABŞ biznesmenləri Yaxın Şərqin neft ehtiyatlarının ölkə üçün çox faydalı ola biləcəyini düşündü və bu illərdə ABŞ müstəmləkə altında yaşayan

xalqların, eləcə də ərəblərin müəyyən çərçivədə öz müqəddəratlarını təyin etmək təşəbbüslərinə dəstək göstərirdi.

II Dünya müharibəsindən sonra ABŞ və Sovet İttifaqı Yaxın Şərqdə üstün mövqeyə malik olmağa başladı. Yaxın Şərq regionu ABŞ üçün strateji əhəmiyyətə malik idi. Regionun neft ehtiyatları və hərbi potensialı baxımından Ərəb dövlətləri ilə əməkdaşlıq ABŞ üçün çox vacib idi. Məhz bu səbəbdən onların Sovet İttifaqı ilə yaxınlaşması yolverilməz sayılırdı.

Qeyd edildiyi kimi, XX əsrin əvvəlində Britaniya hökuməti ABŞ-a parçalanmış Osmanlı imperiyasının ərazilərini bölüşdürməyi təklif etsə də, ABŞ-ın o zamanki prezidenti Vudro Vilson region xalqlarının öz müqəddaratını təyin etmək hüququ olmasını bəyan edərək bu təklifi rədd etmişdir. Lakin bu vəziyyət Trumen adminstrasiyası dövründə dəyişdi. Bununla da, ABŞ-ın Yaxın Şərqdə yürütdüyü ikili siyasətin əsası qoyuldu. Belə ki, Sovetlərin İrana təsirini dəf etdiyi bir zaman, Trumen 1941-ci ildən hakimiyyətdə olan Məhəmməd Rza Şah Pəhləvi ilə ABŞ-ın əlaqələrini möhkəmləndirdi və beləliklə də, II Dünya müharibəsi zamanı Sovet İttifaqına silah təchizatı ötürmək və İran neftini qorumaq üçün ABŞ qoşunlarının İranda yerləşdirilməsi əmrini verdi. Halbuki, istər Sovet, istərsə də, ABŞ qoşunlarının İran ərazisində yerləşməsinin əsas səbəbi faşist Almaniyasına qarşı birgə mübarizə aparmaq olmuşdu. İranın həm coğrafi mövqeyi, həm də müharibədən öncə Almaniya ilə güclü və durmadan inkişaf edən iqtisadi əlaqələr qurması müttəfiq qoşunlarının İrana daxil olmasına dair qərarın verilməsi üçün çox gözəl bəhanə olmuşdu. ABŞ, Böyük Britaniya və Sovet İttifaqının da daxil olduğu müttəfiq qoşunları müharibə bitdikdən dərhal sonra İranı tərk etmək haqqında razılığa gəldilər. Sonradan ABŞ müharibəyə daxil olduqdan sonra bu ölkənin qoşunları da İran ərazisində yerləşdirilmişdir.

II Dünya müharibəsi bitdikdən sonra 1946-cı ildə Trumen Stalindən Sovet qoşunlarının İrandan geri çəkməsini tələb etdi. Bu hadisə müharibədən sonra ABŞ-Sovet ittifaqının üzləşdiyi ilk ən böyük böhran və Soyuq müharibəni alışdıran bir qığılcım idi. Trumen heç bir nüvə silahından istifadə hədəsini nümayiş etdirməmişdir. Lakin İosif Stalin Amerikanın buna qadir olduğunu bilirdi. Bir neçə ay öncə Xirosima

və Naqasakidə ABŞ-ın atom bombasından istifadəsi Stalinin yaddaşında idi. Nəticədə Sovet qoşunları İrandan geri çəkildi. [199, s. 84-90]

Soyuq müharibə zamanı Yaxın Şərq dedikdə Səudiyyə Ərəbistanı ABŞ üçün çox əhəmiyyətli yer tuturdu. Regionun zəngin neft ehtiyatlarının qorunması 1960-1970-ci illərdə ABŞ liderlərinin regionda yürüdəcəkləri siyasətin əsasını təşkil edirdi. 1967 və 1973-cü illər arasında olan dövr Yaxın Şərq regionunda Ərəb-İsrail müharibələri ilə müşayiət olunurdu. Ərəblərin hücumlarına cavab verərək, İsrail özünün regionda güclü dövlət olduğunu sübut etdi. Ərəb dövlətləri dərhal İsraili İordan çayının qərb sahili, Sinay yarımadası, Qolan təpəsi və nəzarət altına aldığı 1 milyon fələstinlinin yaşadığı ərazini tərk edərək 1967-ci ildən əvvəlki sərhədlərə geri qayıtmasını tələb etdi. Onlar həmçinin ABŞ-İsrail müttəfiqliyinin güclənməsindən və ümumiyyətlə Qərb dövlətlərinin dəstəyindən narazı idilər. Bu amil neft ticarətinin siyasiləşdirilməsinə səbəb oldu. Belə ki, İsraili və ümumilikdə Qərbi cəzalandırmaq məqsədilə, OPEK neftin qiymətini süni şəkildə qaldırdı, həmçinin, ABŞ, Qərb ölkələri və İsrailə satılan neftin miqdarına məhdudiyyətlər qoydu. Beləliklə də, neft tarixdə ilk dəfə olaraq neft geo-strateji alət kimi istifadə olundu və bu ciddi şəkildə dünya iqtisadiyyatına təsir göstərdi. [226, s. 9-66]

Bu plan İsrail və Qərb dövlətlərini cəzalandırmaq üçün düşünülsə belə həddən çox iddialı idi və mənfi nəticələrə səbəb oldu. Məhz iqtisadi faktorlar baxımından İsrailin qanlı müharibələrlə əldə etdiyi əraziləri heç də geri qaytarmaq fikri yox idi. Neft embarqosunun məğzi İsraili 1967-ci il sərhədlərinə geri qaytarmağa məcbur etmək idisə, bu tamamilə yalnış strategiya idi. Nəticə Ərəb dövlətləri üçün də mənfi oldu, çünki embarqo İsrail-ABŞ müttəfiqliyini daha da gücləndirdi və növbəti illərdə ABŞ-ın region nefti uğrunda apardığı mübarizəsinin daha da kəskinləşməsinə gətirib çıxartdı.

Növbəti illərdə region ölkələri arasında olan gərginlik İranla İraq arasında müharibənin baş verməsinə səbəb oldu. Bu iki ölkə istər siyasi nüfuz, istər təbii ehtiyat, istərsə də əhali və ərazi baxımından Yaxın Şərqin böyük dövlətlərindən idi. İki ölkə arasında olan münasibətlər XX əsr ərzində gah yumşalmış, gah da gərginləşmişdi. Lakin 1970-ci illərin sonlarında, konkret olaraq, 1979-cu ildə İranda

şah rejiminin devrilməsi ilə İran İslam Respublikasının yaranması münasibətləri daha da gərginləşdirmişdir. Müharibənin əsas səbəbi kimi İran lideri Xomeyninin İraq rejiminə və onun sünni icmasına qarşı mənfi münasibət nümayiş etdirməsi olmuşdur. Xomeyni vaxtilə İraqın Nəcəf şəhərində sürgündə olarkən orada İraqda hakimiyyətdə olan, əsasən, sünnilərdən ibarət Bəəs partiyasının şiələrə qarşı repressiyaların şahidi olmuşdu. [216, s. 215] Xomeyni Körfəzdə şiə inqilabının zəruriliyinə işarə edirdi. Buna cavab olaraq, Bağdad rejimi şiə icmasına qarşı təqiblərə başladı və bir sıra önəmli şiə liderlərini həbs etdirdi.

ABŞ-ın Yaxın Şərq regionunda gedən proseslərə münasibəti daha məhdud və problemli idi. Belə ki, İraq ABŞ-la diplomatik münasibətləri 1967-ci ildə Ərəb dünyasının İsrailə məğlubiyyətindən sonra kəsmişdir. Bundan əlavə, İranda ABŞ-a yaxın mövqeyi ilə tanınan şah Rza Pəhləvi rejiminin devrilməsi ilə İran İslam rejiminin qurulması və 4 Noyabr 1979-cu il 20 Yanvar 1980-ci ilə kimi davam edən İslam inqilabının tərəfdarları tərəfindən Tehrandan ABŞ səfirliyinə edilən basqın zamanı 52 ABŞ diplomatı və vətəndaşının İranda girov saxlanılması rəsmi Vaşinqtonun bu zaman üçün regional siyasətini müəyyənləşdirdi. Neytrallığını qorumağa çalışan ABŞ İraqa hərbi yardım göstərməyə və informasiya ötürməyə başladı. [219, s.29] ABŞ-ın İran-İraq müharibəsinə müdaxiləsinin iki başlıca səbəbi var idi: Sovetlərin bu müharibəyə təsir imkanını yoxlamaq və İranın Körfəzdə qələbəsini təmin etməyin qarşısını almaq. Müharibənin ilk illərində tərəflər arasında nəzərəçarpan fərq olmadığı üçün ABŞ-ın müdaxiləsinə ehtiyac qalmadı. Lakin növbəti illərdə müharibədə gedişat İranın xeyrinə dəyişdikcə Ronal Reyqan adminstrasiyası İraqın müharibədə uduzacağına və İranın rəqibsiz regional gücə çevrilcəyindən ehtiyat edirdi.

ABŞ-ın İraqla diplomatik münasibətləri 1984-cü ildə bərpa edildi və İraqa ABŞ tərəfindən tədricən hərbi texnika və kəşfiyyat məlumatları ötürülməyə başlandı. 1980-ci illərin ortalarında Reqan adminstrasiyası İran-Kontra qalmaqalı ilə üzləşdi. Belə ki, ABŞ Konqresinin razılığı olmadan Reyqan adminstrasiyanın bir sıra nümayəndələri İrana gizli silah satması Yaxın Şərq regionunda qanlı müharibələrlə

müşayət olunan vəziyyətə ABŞ-ın göstərdiyi ikili standartları bir daha sübüt etdi. [221, s.39]

Müharibə doqquz il davam etdi və burada ən dəhşətli məqam İraq rejimi tərəfindən kürdlərə qarşı zəhərli sionid qazdan istifadə edilməsi idi. [195, s. 117] 1988-ci ildə tərəflər arasında sülh müqaviləsi imzalanması ilə müharibə sona çatdı.

Müharibə zamanı İraq milyonlarla dollar borca girdi. Münaqişənin sonunda İraqın borcu 80 milyard dolları aşmış və bu borcun yarısından çoxu Körfəz ölkələrindən alınmışdır. İraq özünü Körfəzin Fars ekspansiyasına qarşı mübarizə aparan yeganə elan etdi. Məhz bu səbəbdən İraq rejimi düşünürdü ki, Körfəz ölkələri borcları ona bağışlamalıdırlar. Lakin Səudiyyə Ərəbistanından fərqli olaraq, Küveyt müharibə zamanı alınmış borcları qaytarmayanadək və Küveytin ərazi bütövlüyünü rəsmən tanımayanadək İraqla hər hansı bir əlaqənin mövcudluğunun davam etməsindən imtina etdi. [174, s. 81]

İraqla Küveyt arasında olan münasibətlər tarixi keçmişə söykənir. Belə ki, hazırki Küveytin ərazisi İraqdan alınmış və Əl-Sabah ailəsinə Böyük Britaniya tərəfindən I Dünya müharibəsindən sonra onlara göstərilən sədaqətin müqabilində verilmişdir. Küveyt isə öz müstəqilliyini 1961-ci ildə elan etmişdir, İraq onun müstəqilliyini 1963-cü ildə tanımışdır. Lakin yenə də İraq üçün Küveytin mövcudluğu beynəlxalq hüquq normalarına zidd idi. Bundan əlavə, İran-İraq müharibəsindən sonra Bağdad Küveytin daha zəngin neft yataqları əldə etmək üçün onun sərhədlərini genişləndirmək istəyi barədə (xüsusilə Rumeli yatağı) narahatlığını ifadə etdi. Əlavə olaraq, rəsmi Bağdad Küveyti OPEK daxilində öz paylarına düşən neft məhsullarının qiymətini artırmaqda və bununla da, İraqın müharibədən sonraki iqtisadi inkişafına əngəl törətməkdə günahlandırırdı. [193, s. 25]

Səddam Hüseyn həmçinin, bu dövləti iki ölkə ilə sərhədlərə yaxın ərazilərdə İraqa məxsus olan neft yataqlarından oğrun surətdə istifadə etməkdə ittiham edirdi. Bunu əsas gətirərək, Küveyt İraqa borcu bağışlamaqdan imtina etdi. Münaqişəni yatırtmaq üçün Ərəb dövlət xadimləri Səddam Hüseynlə danışıqlar aparmağa çalışdıqları bir vaxt, o, 1990-cı ilin iyul ayında 100.000-lik ordusunu Küveyitin cənub sərhəddinə yeritdi və avqustun 2-də Küveytin paytaxtını bombaladı. [194, s. 79-88]

Səddam Hüseyn Küveyti avqust ayının 2-də işğal etdi və çox asanlıqla Küveytin kiçik orudusunu məğlub etdi. ABŞ rəsmiləri İraqın böyük ordusunun Səudiyyə Ərəbistanın şimalında yerləşən zəngin neft yataqlarını nəzarət altına ala biləcəyindən, həmçinin krallığı işğal edəcəyindən və mövcud monarxiyanı devirəcəyindən narahat idi.

Rəsmi Vaşinqtonu regionda İraqın səbəb olduğu müharibələr heç də razı sala bilməzdi. Belə ki, İraq artıq neftlə zəngin və ABŞ-la yaxın münasibətlərə sahib olan dövlətlər üçün təhlükə mənbəyinə çevrilməyə başladı. İlk öncə, İraq dünya neft ehtiyatlarının 10%-nə nəzarət edirdi və Küveyti işğal etməklə İraq öz "qara qızıl" sərvətini əhəmiyyətli dərəcədə artıracaqdı. Digər tərəfdən isə, Səudiyyə Ərəbistanının təhlükəsizliyi ABŞ üçün çox əhəmiyyətli idi, çünki Səudiyyə Ərəbistanı neftinə nəzarətin əldən çıxmasının bütün neft istehlakçılarına ciddi iqtisadi təsiri ola bilərdi. İraqın Küveyti işğalından bir müddət sonra ABŞ münaqişə rayonuna hərbi təchizatları və Səudiyyə Ərəbistanı ərazisinə 200.000-lik qoşununu yerləşdirdi.

Səudiyyə Ərəbistanın təhlükəsizliyindən əmin olan ABŞ-ın sayca 41-ci prezidenti Corc Buş İraqdan "qoşunlarını dərhal, şərtsiz və tamamilə Küveytdən çıxartmağı əmr etdi". Buş, həmçinin, bəyan etdi ki, İraq iqtisadiyyatına qarşı sanksiyaların tətbiqi qaçılmazdır və o, digər dövlətləri, hətta dünya liderlərini də bu addımı atmağa çağırdı. Səddam Hüseyn elan etdi ki, Küveyt daha mövcud deyil və xalqına müraciətində "vətən uğrunda vuruşa" hazır olmalarını söylədi.

Beynəlxalq və yerli səviyyədə dəstək alaraq, Corc Buş Küveytin azadlığı uğrunda müharibəyə başlamağı əmr etdi. "Səhrada Tufan Əməliyyatı" ilə ABŞ və onun müttəfiqləri İraqa qarşı kütləvi əməliyyatlara başladılar. Səddam Hüseyn Səudiyyə Ərəbistanında, Bəhreyndə və Qatarda yerləşdirilən ittifaq qoşunlarının mövqeylərini, eləcə də ittifaqa daxil olmayan İsrail ərazisini Skud raketləriylə bombalayacağı hədəsini dilə gətirdi. Skud raketlərindən istifadə etmək istəyinin yeganə səbəbi İsrailin müharibəyə cəlb edilməsi idi, lakin bu taktika uğursuzluğa düçar oldu. [169, s. 173]

İraqın infrastrukturunu məhv etmək üçün planlaşdırılmış hərbi əməliyyat Qərb KİV-lərində geniş şəkildə işıqlandırıldı. Koalisiya qüvvələrinin reaktiv təyyarələri

minlərlə tapşırıq yerinə yetirdi. Bu əraziyə atılan bombaların sayı II Dünya müharibəsində atılan bombalardan çox idi. Quruda hərbi əməliyyatlar 1991-ci il fevral ayının 24-də başladı və 3 gün sonra ABŞ qoşunları Küveyt paytaxtına daxil oldu. İraq qoşunları geri çəkildi və müharibə quruda əməliyyatlar başlayandan 100 saat sonra bitdi. Corc Buş BMT-nin 660 saylı qətnaməsinin yerinə yetirildiyini və Küveytin azad oluduğunu elan etdi. Lakin bu qərar bir sıra dövlətlər, xüsusilə də, Səudiyyə Ərəbistanı tərəfindən tənqid edildi, çünki Səddam Hüseyn hələ də hakimiyyətdə idi. [240, s. 41-47 ]

Körfəz müharibəsi ilə ABŞ Küveyti işğalçılardan "azad etməyə" başlamaq üçün qlobal dəstəyi gücləndirmək arzusunda idi. Bu istək kiçik, lakin neftlə zəngin ölkənin ABŞ üçün nə dərəcədə önəmli olmasını sübut etdi. Bir çox Ərəb ölkələri üçün Küveytin suverenliyinə hörmətlə yanaşılmasının əsas səbəbi onun neftlə zəngin olması və coğrafi mövqeyi idi.

ABŞ-a 1993-2001-ci illərdə rəhbərlik edən ABŞ-ın 42-ci prezidenti Bill Klinton özündən əvvəlki prezident Corc Buş kimi Səddam Hüseynin tərkisilah olunmasına dair siyasətini davam etdirirdi. Prezidentliyi dövründə Klinton İraqın tərkisilah olunmasını təmin etmək üçün Səddama BMT müfəttişləri ilə sıx əməkdaşlıq etməsi üçün təzyiq göstərirdi. Corc Buş Səddam Hüseynin hakimiyyətdən gedənə kimi sanksiyaların davam etməsinin vacibliyini bildirirdisə, Bill Klinton Səddam Hüseynin BMT qətnamələrinə əməl edəcəyi təqdirdə onların aradan götürülməsinin mümkünlüyünü qeyd edirdi. Bill Klinton bəzi ərazilərdə Corc Buşun qeyri-uçuş zonalarını genişləndirmiş və İraqa qarşı hərbi hücum əmrlərini vermişdir. [165,s.472 ]

Lakin Səddam Hüseyn tərəfindən idarə olunan rejim yalnız 2003-cü ilin mart ayında ABŞ-ın 2001-ci ildə hakimiyyətə gəlmiş və sayca 43-cü prezidenti olan Corc Buşun (oğul) prezidentliyi dövründə ABŞ-ın rəhbərliyi ilə aparılan hərbi müdaxilədən sonra devrildi. Belə ki, məlum 2001-ci il 11 sentyabr hadisələri Buş hökumətini dünyanı hədələyən terrora və terrorçulara qarşı müharibəyə başlamağa əsas verdi. Terrora qarşı müharibədə, təəccüblü olmasa belə, neftlə zəngin İraq dövlətinə qarşı da planlar var idi. Oğul Buş adminstrasiyasının İraqla bağlı atdığı ilk addım 1991-ci il Körfəz müharibəsindən sonra qeyri-uçuş zonalarını

möhkəmləndirmək oldu. 2001-ci ilin fevral ayında 24-də ABŞ və Böyük Britaniya hərbi təyyəralərindən ibarət qrup üçüş üçün uyğun olmayan ərazilərə təyyarələri çıxartmaq məqsədilə İraqda hərbi uçuşlar həyata keçirdilər. [180, s.33-36] 2003-cü ilin mart ayında dünyanın bəzi güclü ölkələrinin ABŞ-ın İraqa müdaxiləsini dəstəkləməməsinə və Ərəb dövlətlərinin etirazına baxmayaraq, ABŞ İraqa soxuldu. Müharibə may ayının 1-də bitdi və Corc Buş öz qələbəsini elan etdi. Səddam Hüseyn rejimi devrildi.

Qısa bir zaman ərzində aydın oldu ki, bu müharibənin başlamasında yalnız terrora qarşı müharibə deyil, digər amillər də rol oynamışdır. İraqın işğalı ABŞ-ın regional strategiyasında uzun müddətli dəyişikliyə işarə idi. "Neft uğrunda müharibə" amili bir sıra müşahidəçilər tərəfindən irəli sürülən bir fikir idi. Hətta bəziləri neft faktorunu "İraqa qarşı müharibənin başlıca səbəbi" adlandırırdı. [245] Asan neft axınını təmin etmək üçün regionda mövcud rejimlərlə dost münasibətini yaradaraq iqtisadi marağı qorumaq, görünür ki, Vaşinqtonun gündəliyinin bir hissəsi idi. Bundan əlavə, ABŞ-ın böyük neft şirkətləri ilə Buş adminstrasiyasının fərdləri arasında əlaqə aşkara çıxdı. Belə ki, ABŞ xarici siyasətinin əsas məqsədlərindən biri on illər ərzində yardım, dəstək və dostluq proqramları çərçivəsində neftlə zəngin ölkələri öz təsir dairəsinə cəlb etmək idi. [195, s. 169] Lakin İraqa qarşı hərbi müdaxiləyə ABŞ tərəfindən rəsmi bəraət 11 sentyabr hadisələrinə cavab və diktator Səddam Hüseyni tərkisilah etmək məqsədilə həyata keçirildiyi bildirilmişdir.

Çox maraqlıdır ki, İraqın 1963-cü il itaətsizliyinə cavab olaraq, ABŞ-ın yardımı ilə Səddam Hüseyn 1979-cu ildə hakimiyyətə gəlmişdir. ABŞ üçün maneəyə çevrilən Səddam çox asalıqla hakimiyyətə gətirildiyi kimi, hakimiyyətdən salındı. Bundan əlavə, Buş adminstrasiyasının və ABŞ-ın böyük şirkətlərinin ayrı-ayrı fərdləri arasında olan əlaqə haqqında məlumat artıq ictimailəşmişdir.

İraqda rejim dəyişildikdən sonra ABŞ-ın bu ölkə üçün xüsusi planları var idi. Bunlardan ən əhəmiyyətlisi ABŞ hökumətinin və sənaye mütəxəssislərinin nəzarəti ilə İraq rəsmilərinin hazırladığı neft qanunu idi. Qanuna əsasən İraq əcnəbi şirkətlərə "Hasilatın Pay Bölgüsü" (HPB) əsasında böyük güzəştlər təklif edirdi. [258]

HPB birbaşa olaraq, Ağ ev tərəfindən tələb edilmişdir. Hesablamalara əsasən razılıq ölkə büdcəsindən neft gəlirlərinin on milyardlarla dolların cıxarılması demək idi. ABŞ-ın məqsədi İraqda müharibədən sonra yenidənqurma işlərinin aparılması idi. Lakin ümumdaxili məhsulunun 70%-nin neftdən asılılığını nəzərə alaraq, bu məqsədin mümkünsüzlüyü aydın sezilirdi. 2007-ci ilin yay aylarında ölkənin əsas birlikləri ölkədə neft qanunu haqqında sorğular aparmağa başladı. İctimai sorğunun nəticəsi mənfi idi. İraq hökuməti sorğuya rəy bildirməli idi, məhz bu səbəbdən onlar Səddam vaxtından qalan qanunvericiliyi bərpa etdilər. "Riskin dərəcəsinin öyrənilməsi müqaviləsinin" şərtləri ölkədə neft qanununa qarşı etirazların qarşısını almaq üçün silinmişdir. Buş adminstrasiyası inanırdı ki, bu qanun İraqın təriqətçi və etnik icmalarına ölkənin neft xərclərini ədalətli şəkildə bölməyə yardım edəcək. [297]

Bundan əlavə, İraqın bir sıra siyasi şərhçiləri razılığa edilən əlavələrə əsasən qeyd edirdilər ki, İraq Milli Neft Şirkəti və Beynəxalq Neft Şirkətlərinə aid olan neft quyularının hansı tərəfə malik olması müəyyənləşməli idi. Qanun 2007-ci ilin fevral ayında İraq Nazirlər Kabineti tərəfindən Beynəlxalq Valyuta Fondunun böyük təzyiqi ilə qəbul edildi. Fond İraq hökumətinə Körfəz müharibəsi zamanı ölkənin yığılmış borclarının böyük bir hissəsini siləcəklərinə söz vermişdir.

İraqın Nazirlər Kabinet qanunu qəbul etdikdən sonra ratifikasiya üçün parlamentə göndərdi. Parlament dilemma qarşısında idi: qanunu qəbul etmək ölkənin neft nəzarətini təbii sərvətləri qanuni şəkildə talayacaq xarici şirkətlərə vermək demək idi, qanunu qəbul etməmək isə, Səddamın borclarını geri qaytarmaq demək idi.

Dünyada neftlə zəngin olan bölgələrdə baş verən hadisələrdə ABŞ-ın dolayı və ya birbaşa müdaxiləsi artıq heç kimi təəccübləndirmir. "İnsan hüquqları" adı altında dünyanın müxtəlif bölgələrində əməliyyat keçirən ABŞ, başqa sözlə ifadə etsək, buna "məcbur" idi. Çünki getdikcə neft və təbii qaza olan ehtiyac böyüyürdü. Bu ehtiyac yalnız ABŞ-ın xarici siyasətində öz təzahürünü tapmırdı. Belə ki, Böyük Britaniyanın o zamanki baş naziri Toni Bleyrə təzyiq göstərən bir sıra enerji şirkətləri də enerji mənbələrini dünyanın digər ölkələri ilə paylaşmaq istəməyən Səddam Hüseyn, Muhammer Qəddafi kimi şəxslərə qarşı heç də "biganə" qalmadı. Nəticə çox qısa

zamanda əldə edildi. 2003-cü il İraq müharibəsindən sonra İraq Neft Şirkətinin hissələri paylaşdırıldı. Onun 23,75%-i Exxon şirkətinə verildi. 23,75%-i BP-yə [British Petrolium], digər 23,75%-i isə Royal Dutch Shell şirkətinə verildi. Yəni, şirkətlər istəklərinə nail oldular. [301]

ABŞ-ın sayca 44-cü prezidenti Barak Obama hakimiyyətə gəldikdən sonra Yaxın Şərq siyasətində elə bir dəyişiklik müşahidə edilmədi. Neft ABŞ-ın Yaxın Şərq siyasətində başlaca amil olmuş və olmaqda davam edəcəkdi. Adminstrasiyalar dəyişə bilər, lakin xarici siyasətin prioritetləri hər zaman eynidir.

Barak Obama adminstrasiyası regionda Çinin durmadan artan mövqeyi fonunda diqqəti daha çox Asiya qitəsinə yönəltmişdir. Lakin Yaxın Şərq məhz neft amilinə görə heç bir zaman arxa planda qala bilməzdi. Neft regionda əsrlər boyu alovlanan və səngiyən gərginlik və münaqişələrin başlıca faktoru kimi göstərilə bilər.

Müasir mərhələdə ABŞ-ın Yaxın Şərq siyasətindən danışdıqda, Corc Buşun və Barak Obamanın Yaxın Şərqdə enerji təhlükəsizliyinin təmini siyasətinə müqayisəli təhlil formasında da yanaşmaq problemlin daha müfəssəl izahına imkan verər. Belə ki, onların yürütdükləri siyasət bir-birindən tamam fərqli idi. ABŞ-ın Baş Qərərgah rəisləri, senatorları və s. Yaxın Şərqlə bağlı bəyanatlarla çıxış etsələr də, konkret həll yolunu təqdim etməkdə hər zaman çətinlik çəkmişlər. Buşun hakimiyyəti altında regionda hərbi, həm də iqtisadi sahədə daha da fəal siyasət həyata keçirən ABŞ Barak Obamanın hakimiyyəti illərində Yaxın Şərqlə yanaşı, planetin digər regionları da diqqət mərkəzində saxlayırdı.

Barak Obamanın Milli Təhlükəsizlik üzrə məsləhətçisi Tom Donilon bu mövzu haqqında bəyan edir ki, onun hakimiyyətə gəldiyi gündən etibarən ABŞ maliyyə böhranına qarşı mübarizə aparmışdır. Digər tərəfdən isə İraqda həyata keçirilən siyasətin gözlənilən nəticə verməməsi Obamanın işini müəyyən mənada çətinə salmışdır. Corc Buşun siyasətini davam etdirmək niyyətində olmayan Obama ABŞ qoşunlarının İraqdan geri çəkilməsi əmrini verdi. Bu əmrin verilməsində, müəyyən mənada ABŞ-da formalaşmış ictimai fikrin də rolu olmuşdur. Belə ki, 2007-ci ilin may ayında aparılan sorğuya əsasən ölkə əhalisinin 55%-i İraq müharibəsinin yalnış

addım olduğu, 51%-i isə qoşunların geri çəkilməsinin labüdlüyünü qeyd edirdilər. [321]

Bütün bu hadisələrə neft uğrunda aparılan mübarizə fonundan baxaq. Maliyyə böhranından yorulan ABŞ hakimiyyəti öz əsgərlərinin regionda saxlanılmasının nə dərəcədə baha başa gələcəyini anlayırdı. Ancaq enerji ehtiyatlarını əlindən buraxmaq istəməyən ABŞ hökuməti Barak Obamanın rəhbərliyi ilə bir sıra həll yolları tapdı. Xaricdən asılılığı azaltaq üçün yeni enerji mənbələri tapmaq labüd idi. Eyni zamanda Kanada və ABŞ da öz ölkələri daxilində neft və qaz mənbələrini axtarmaqda davam edirdi. Dolayı yolla desək, bu ABŞ-ın Yaxın Şərqə marağının getdikcə azalmasına səbəb olacaqdı. Alternativ enerji qaynaqları üçün görülən işlər davam etməkdədir. Belə ki, mədən yanacağı qaynaqlarının da istifadəsi haqda fikirlər mövcuddur. 2009-cu ildən sonra ABŞ-da neft istehlakında azalma müşahidə olunmaqdadır.

Bundan əlavə, Çin dənizinin cənub sahillərində mövcud olan ölkələr ABŞ və Hindistan kimi ölkələrlə əməkdaşlıq etməyə hər zaman hazır olduqlarını qeyd edirlər. Bu perspektivdən yanaşsaq, görərik ki, ABŞ-ın xaricdən asılılığı azalır, ən azından Yaxın Şərqdə çəkdiyi xərclərdən nəzərə çarpacaq dərəcədə xilas olur.

Bu faktın izahını ABŞ-ın bu gün siyasi vəziyyətindən anlamaq da olar. Belə ki, əsasən, İraq və Suriya ərazisində mövcud olan və fəaliyyət göstərən silahlı terror qruplaşması və 3 yanvar 2014-cü il tarixində müstəqilliyini, 29 iyun 2014-cü il tarixində isə yeni xilafət yarandığını elan etmiş tanınmamış dövlət və terror təşkilatı olan İraq Şam İslam Dövləti - İŞİD regionun yeni bəlasına çevrilir. 2003-cü ildə İraq müharibəsinin başlamasından qısa bir müddət sonra "Camaat əl-Tövhid vəl-Cihad" adı ilə qurulan qruplaşma 2004-cü ilin oktyabrında Əl-Qaidəyə bağlılığını elan edərək "Tanzim Kaidat el-Cihad fi Bilad el-Rafidayn" (daha çox "İraq Əl-Qaidəsi"adı ilə tanınır) adını götürdü. Region üçün real təhlükə obyektinə çevrilən bu "dövlət" ABŞ-ı belə ərazisində terror aktları törədəcələri ilə hədələyir. Məhz İŞİD-ə qarşı gözlənilən təzyiqin ortaya qoyulmaması yalnız Yaxın Şərq regionunda deyil, həmçinin Şimali Afrikada da ABŞ-ın artıq fəal şəkildə müdaxilə etməməsi özünü açıq şəkildə biruzə verdi. 2011-ci il mart ayının 19-da Liviyada aparılan hərbi əməliyyatların yükü, əsasən, Fransa və İtaliyanın çiyinlərinə

düşdü. Eyni zamanda 12 yanvar 2013-cü ildə Malidə aparılan hərbi əməliyyatda da ABŞ-ın yerinə aparıcı qüvvə kimi Fransa ön plana çıxmışdır. Bundan çıxan nəticə, Barak Obama adminstrasiyası zamanı ABŞ-ın regionda artıq jandarma rolunu digər dövlətlərə təslim etməsidir.

Lakin Barak Obama administrasiyasının ən çox qorxuduğu və çəkindiyi məqam Yaxın Şərq enerji bazarının bütövlükdə Çinin əlinə keçməsidir. Çünki Hampşayer kollecinin Sülh və Dünya Təhlükəsizliyi kafedrasının professoru M. Klarenin hazırladığı hesabata əsasən ABŞ-ın regiondan neft idxalı azalarsa, 2040-cı ildə bu idxal 9,5 milyon barel əvəzin 6,9 barelə enməsi gözlənilir. Çinin fonunda isə bu mənzərə tamam fərqlidir: neft idxalı 5 milyon bareldən 14,2 milyon barelə qədər arta bilər. Hətta öncəki bölmədə də qeyd edildiyi kimi, son illərdə Çin Yaxın Şərqdən gündəlik olaraq, 5,5 milyon bareli neft idxal edərək satışa çıxarır. Qısacası, belə söyləmək olar ki, Yaxın Şərqdə Çinin nüfuzu getdikcə artmaqdadır. Onsuz da, Afrikada mineral və mədən sahələrini ələ keçirən Çin şirkətlərinin fəaliyyəti Yaxın Şərqdə də təkrar olunar deyə, bu hal ABŞ və Avropa ölkələrini narahat etməyə başlamışdır. [318]

Əslində, ABŞ-ın narahatçılığı anlaşılandır. Çinin bu fəaliyyətinə cavab olaraq, ABŞ Yaxın Şərq və Şimali Afrika bazarında Avropa şirkətlərinin möhkəmlənməsində maraqlıdır.

Uzun illərdir ki, Cənub-Çin dənizi Çin və region ölkələri arasında fikir ayrılığının başlıca səbəbidir. Belə ki, bu dəniz Çin, Malaziya, Fillipin, Veytnam, Bruney, İndoneziya və Tayvan sahillərini yuyur. Çin Xalq Respublikası neft və qaz yataqları ilə zəngin ola bilməsi ehtimal edilən Spratleys və Parasel adaları üzərində nəzarəti ələ almaq istəyir. Bu istək yuxarı adı çəkilən ölkələri Çinə qarşı birləşməyə vadar edir. Təbii ki, bu regionda fəal şəkildə müdaxilə etmək üçün ABŞ-a bir bəhanə verir və Barak Obama adminstrasiyası açıq şəkildə bəzi ölkələrə dəstək olduğunu da gizlətmirdi. [318]

2035-ci ildən sonra xaricdən asılılığı sıfıra endirməyi düşünən ABŞ, öz yerli enerji mənbələrinə üstünlük verməkdədir. Bu da birbaşa olaraq, ABŞ-ın ikitərəfli və çoxtərəfli münasibətlərinə təsirsiz ötüşmür. Belə ki, Corc Buş adminstrasiyasının

hakimiyyətdə olduğu müddətdə ABŞ Türkiyədən keçərək Avropaya çatdırılan neft və qaz layihələri ilə yaxından maraqlanmasına baxmayaraq, 2008-2016-cı illər ərzində Barak Obama adminstrasiyası bu layihələrə yetərli maraq göstərməmişdir. [320]

Fəslin ümumiləşdirməsini apararkən qeyd etmək olar ki, Yaxın Şərq regionu istər iqtisadi, istərsə də strateji baxımdan ABŞ-ın milli maraqlarının əsasını təşkil edən enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. II Dünya müharibəsindən sonra yaranmış ikiqütblü dünyada və hətta 1991-ci ildə Sovet İttifaqının dağılması və Soyuq müharibənin başa çatması ilə yaranan birqütblü dünyada ABŞ-ın enerji təhlükəsizliyinin əsasını Yaxın Şərq nefti uğrunda apardığı mübarizə tuturdu. Dünyada məlum olan neftin 1/3-ə sahib olan Yaxın Şərqin zəngin karbohidrogen ehtiyatına nəzarət ABŞ-ın illər ərzində öhdəsinə götürdüyü qlobal liderlik üçün başlıca şərt olmuşdur. II Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində meydana çıxan neft amili ABŞ-ın Yaxın Şərqdə xarici siyasətini şərtləndirən amillərdən ən önəmlisinə çevrilmişdir. Siyasi aktor rolunda dövlətlərin hökumətləri və beynəlxalq münasibətlər səhnəsində xarici siyasətdə atılan addımların təşəbbüsçüsü kimi çıxış edən neft şirkətləri dururdu.

Bir sıra mütəxəssislər durmadan inkişaf edən dünya iqtisadiyyatının neftdən asılılığının yaxın illərdə daha da artacağını proqnozlaşdırır. Növbəti onilliklərdə ABŞ enerji ehtiyatlarını xaricdən deyil, daxili imkanları hesabına əldə edərək, Yaxın Şərq neftinin asılılığı zəiflətmək istəyir. Lakin bu amil heç də dünyanın fövqəlgücünün Yaxın Şərqdə ölkəsinin xarici siyasətinin fundamental istiqamətlərindən təşkil edən zəngin neft ehtiyatlarına sahib olaraq, onun təhlükəsizliyini təmin etmək və dünyanın digər güclü ölkələrinin regiona müdaxiləsinin qarşısını almaq üçün mübarizə aparacağı faktından imtina edəcəyi mənasına gəlmir. Təəsüf ki, dünyanın neft ehtiyatının böyük hissəsinə sahib olan və neftin istehsalının ucuz başa gəldiyi Yaxın Şərqdə gələcəkdə də neft uğrunda mübarizə nəticəsində yaranmış münaqişələrin səngiyəcəyinə və bu ərazidə sülhün bərqərar olunacağına inam çox azdır. Ən acınacaqlı hal isə, bu cür münaqişələrdə əziyyət çəkən tərəf heç də səbəbkar dövlətlərin sadə vətəndaşları deyil, Yaxın Şərq regionunun dinc və günahsız əhalisidir.

# II FƏSİL
# ABŞ-IN YAXIN ŞƏRQ SİYASƏTİNDƏ İSRAİLİN TƏHLÜKƏSİZLİYİNİN YERİ

## 2.1. ABŞ-İsrail strateji müttəfiqliyinin yaranması və onun tarixi inkişaf mərhələləri

Yaxın Şərqdə mövcud olan Ərəb dövlətləri XX əsrin əvvəlində Haşimilər sülaləsinin siyasi səhnəyə gəlməsi və digər kiçik ərəb tayfalarını öz ətrafında birləşdirməsi nəticəsində formalaşmağa başlamışdır. Bu prosesi sürətləndirən amillər sırasına yerli ittifaq və imperiyaların maraqları, eləcə də Osmanlı imperiyasının dağılması daxil idi. I Dünya müharibəsindən sonra Böyük Britaniya və Fransa Yaxın Şərq dövlətləri üzərində mandatlıq hüququ qazanmış və iki dünya müharibəsi arasında olan dövrdə bu dövlətlər regionda hegemon olmuşdurlar.

Öncə də qeyd edildiyi kimi I Dünya müharibəsindən sonra dünyanın digər hegemon dövləti olan ABŞ isə Yaxın Şərq regionunda çox da böyük maraqlara sahib deyildi. Bu maraqlar missioner fəaliyyətləri və ticari sərmayə ilə məhdudlaşırdı. Qərbi Avropa ölkələri regionda böyük maraqlara sahib olsalar da, ABŞ onlarla rəqabətə meyilli deyildi və bunu rəsmi şəkildə regionda heç bir strateji və siyasi maraqlarının olmaması ilə bəyan etmişdir. Belə ki, ABŞ-ın o zamanki prezidenti Vudro Vilson Osmanlı imperiyası dağıldıqdan sonra Ərəb suverenliyinə rəğbət bəslədiyini bəyan etmişdir: “Hal-hazırda Türk hökmranlığı altında olan digər millətlərin həyatları sığortalanmalı və müstəqil olmaları üçün onlara imkan yaradılmalıdır”. [174, s. 27]

II Dünya müharibəsindən sonra ABŞ-ın regionda strateji və siyasi maraqları tamamilə dəyişdi. Bu ərəfədə ABŞ-ın regionda başlıca marağı qərbə ucuz neft axınının təmin edilməsi idi. Bu məqsədə nail olmaq üçün ABŞ regionda hətta qanlı müharibə və münaqişələrə müdaxilə etməkdən çəkinməmişdir. Bu yolda ABŞ özünə ən yaxın müttəfiq kimi İsrail dövlətini seçmişdir. Baxmayaraq ki, yuxarıda da qeyd edildiyi kimi I Dünya müharibəsindən sonra ABŞ regionda hər bir xalqın

suverenliyinə rəğbətlə yanaşmış, II Dünya müharibəsindən sonra Fələstin xalqı bu rəğbətə “layiq” görülməmişdir. Bunun bir sıra tarixi və siyasi səbəbləri vardır. Problemin kökünü araşdırmaq və problemə ətraflı yanaşmaq üçün İsrail dövlətinin yaranması və ABŞ-İsrail müttəqliyinin tarixi inkişaf mərhələlərinə nəzər yetirmək vacibdir.

ABŞ 1917-ci il Fələstin torpaqlarında Yəhudi evinin yaradılmasını özündə etiva edən Balfor deklorasiyasını dəstəkləyirdi. Lakin prezident Franklin D.Ruzvelt 1945-ci ildə ərəbləri əmin etdi ki, ABŞ regionda həm ərəblər, həm də yəhudilərlə məsləhətləşmələr aparmadan məsələyə müdaxilə etməyəcəkdi.

Daha sonra hakimiyyətə gələn Harri  Truman isə 1946-cı ildə  Fələstin məsələsini araşdırmaq üçün komissiya təyin etdi və bir il sonra İsrail dövlətnin yaranması üçün rəsmi şəkildə dəstəyini bildirdi.  1947-ci il noyabrın 29-da BMT 181 saylı qətnamə qəbul etdi və 1948-ci ildə Böyük Britaniyanın keçmiş mandatı olan Fələstin ərazisini  Yəhudi və Ərəb dövləti arasında bölündüyünü bildirdi, Qüds isə BMT tərəfindən beynəlxalq nəzarətə götürülən bufer zona elan edildi. 1948-ci il 14 may tarixində İsraildə Yəhudi icmasının rəhbəri David Ben-Gurion İsrail dövlətinin yaranmasını elan etdi.  Elə həmin gün ABŞ prezidenti Hari Truman yeni dövləti rəsmi şəkildə tanıdı.    [declarion of independence)

Ərəblərin yaşadığı Yaxın Şərqin mərkəzində Yəhudi dövlətinin yaranması bu ərazidə iki xalq arasında münaqişənin başlanğıcına səbəb oldu. Yarım əsrdən çox davam edən bu münaqişə müasir dövrdə ABŞ-ın regionda xarici siyasətinin formalaşmasının ən önəmli amili idi.

Bir zamanlar İsrailə ABŞ-ın “51-ci ştatı” deyirdilər. Yəhudi dövlətini artıq belə adlandıranların sayının azalmasına baxmayaraq, tarix nümayiş etdirib ki, İsrailin yarandığı gündən etibarən ABŞ-dan yaxın dostu və müttəfiqi olmamışdır. [324]

Lakin tarixə nəzər salsaq görərik ki, ABŞ rəhbərliyi 1948-ci ildə İsrail dövlətin müstəqillik mücadiləsi və yeni yaranmış dövlətin əleyhinə beş ərəb dövlətinin ona qarşı birləşdiyi zamanda İsrailə yardım göstərməmişdir. Tək yardımın olmaması deyil, həmçinin ABŞ İsrailə silahların çatdırılmasına qarşı embarqo da tətbiq etmişdir. İsrailə silah çatdıran yeganə ölkələr Sovet blokuna daxil olan ölkələr idi.

Əsasən, Çexoslovakiya ərazisindən İsrailə silah ötürülməsi prosesi gedirdi. İosif Stalin Yaxın Şərqdə ingilis təsirini zəiflətmək istəyirdi və hesab edirdi ki, ingilisləri dəstəkləyən ərəblərə deyil, onun düşməninə kömək etmək lazımdır.

Prezident Trumenin ətrafında açıq şəkildə İsrail dövlətinin tanınmasına qarşı çıxış edən rəsmilər var idi. Əgər bu tanınma ABŞ-ın o zamankı dövlət katibi Corc Marşaldan asılı olsaydı, çox güman ki, İsrail dövləti bu gün heç mövcud olmazdı. Dövlət katibinin bu möveqini, əsasən, başda "ərəbşünas" olan yüksək rütbəli məmurlar da dəstəkləyirdi. Trumenin kəskin mövqeyi İsrail dövlətinin tanınması ilə nəticələndi. ABŞ hökuməti müharibədən sonrakı Avropaya Marşal planına əsasən yardım göndərəndə, heç kimin ağlına gəlməzdi ki, hamısından çox bu yardıma İsrailin ehtiyacı var.

Lakin Yaxın Şərqin enerji ehtiyatı Qərbin, xüsusilə Trumenin hakimiyyəti illərində ABŞ-ın da maraq dairəsində idi. Belə ki, II Dünya müharibəsinin sonuna doğru olan müddətdə Yaxın Şərq nefti ABŞ və Avropa üçün müharibənin gedişi zamanı təyyarələrin, gəmilərin, tankların və yük maşınlarının yanacaqla təmin edilməsi üçün çox mühüm strateji ehtiyac idi. Müharibə zamanı ABŞ-ın Yaxın Şərqdə diplomatik, iqtisadi və hərbi iştirakı II Dünya müharibəsindən sonra ABŞ neft şirkətlərinin regionda aparıcı mövqeyə sahib olmasını təmin edirdir. 1945-ci ildə Trumen qeyd edir: "Beləliklə də, dünya neft mərkəzi artıq dünyanın ən böyük neft yataqlarının istismarı ilə məşğul olan ABŞ şirkətlərinin fəaliyyət göstərdiyi Yaxın Şərq regionudur. Həyati əhəmiyyətə malik enerji ehtiyatlarının ABŞ-ın nəzarəti altında saxlanması bizim milli maraqlarımıza daxildir. Yaxın Şərq neft ehtiyatlarının ABŞ-ın nəzarəti altına keçməsi və bununla da ucuz neft axının təmini Qərb yarımkürəsində hasilatının nəzərə çarpacaq dərəcədə azalması deməkdir". [323]

1940-cı illərin sonunda Yaxın Şərq nefti ABŞ üçün strateji əhəmiyyət daşımağa başladı. Bunun əsas səbəbi dünya neft hasilatının 70%-dən 51%-ə düşdüyü zaman, Yaxın Şərqdə isə bu hasilat 7%-dən 61%-ə qalxmasında idi. ABŞ üçün Yaxın Şərq nefti onun malik olduğu sənaye üstünlüyünu qoruyub saxlamaq üçün həm sülh, həm də müharibə zamanı lazım idi. Bundan əlavə ABŞ hərbi sənayesi də nəzərəçarpacaq dərəcədə neftdən asılı idi.

İsrailin ABŞ üçün həm də strateji əhəmiyyəti var idi, çünki İraqdan Aralıq dənizinə doğru uzanan neft boruları, həmçinin Misir və Livan, Suriya və İordaniyaya gedən yollar İsrail ərazisindən keçirdi. İsrailin hava məkanı müharibələr zamanı nəzarəti tam ələ almağa imkan verirdi. Qeyd edək ki, Qərbin İsrail ərazisindən istədiyi zaman istifadəsi regionu Sovet hücumundan qoruyurdu.

Bütün bunlarla yanaşı, İsrailin yaranması və ardıcıl müharibələr regionda sülhün bitdiyinə işarə idi. Regionda fövqəl güclərin –ABŞ və Sovet İttifaqı arasında artan beynəlxalq gərginliklə müşayət olunan Soyuq müharibə Yaxın Şərqə də öz təsirini göstərdi. ABŞ üçün bu çox təhlükəli məqam idi, çünki regionda yaranan istənilən qeyri-sabit vəziyyət burada Sovet İttifaqının təsirinin artırılmasına zəmin yarada bilərdi.

1953-1960-cı illərdə ABŞ-da hakimiyyətə Respublikaçılar partiyasından namizəd olan Duayt Eyzenhaur gəlir. O, Yaxın Şərqə dair ABŞ-ın siyasətini açıq şəkildə 5 yanvar 1957-ci ildə ABŞ Konqresinə göndərdiyi məktubunda bildirir. Doktrinaya əsasən istənilən bir dövlət başqa bir dövlət tərəfdən hər hansı bir hərbi təcavüzə məruz qalsa, ABŞ-dan iqtisadi və hərbi yardım istəyə bilər. O, öz doktrinasında sovetlərin təhlükəsini xüsusi qeyd etmiş və vurğulamışdır ki, ABŞ ordusu “kommunizm tərəfindən idarə olunan istənilən bir ölkə tərəfindən hərbi təcavüzünə məruz qalmış ölkənin ərazi bütövlüyünü və siyasi müstəqillini təmin etməyə və qorumağa hazırdır.” [271]

Duayt Eyzenhauer isə İsrailə müsbət münasibət bəsləyirdi, lakin onun dövlət katibi Con Foster Dalles isə prezidentin mövqeyinin əksində dururdu. O da, öz sələfləri Corc Marşal və Din Açeson kimi İsrailin tanınmasına qarşı idi. Amerikalı publisit, siyasətçi və ədəbi tənqitçi olan Norman Podqores “Commentary” jurnalında İsrail-ABŞ əlaqələri haqqında bir məqaləni xatırlayaraq qeyd edir ki, bir gün Dalles açıq şəkildə sual verir: nə üçün bu israillilər və ərəblər biz “centlemen-xristianlar” kimi bir masa arxasına əyləşib problemlərini həll edə bilmirlər? [166]

1956-cı ildə Misir ilə İsrail, Fransa və Böyük Britaniya arasında baş verən müharibə Yaxın Şərqdə güc balansının dəyişməsinə səbəb oldu. Müharibənin əsas səbəbi Misirin Suveyş kanalını milliləşdirmək istəyi idi. Üç ölkə tərəfindən

razılaşdırılmış gizlin üçtərəfli Muşketyor əməliyyatının nəticəsində Suveyş kanalı 1956-cı ilin oktyabrında müttəfiq qoşunlarının nəzarəti altına keçdi. [153, səh.67]

Hücümun hərbi uğur kimi qəbul edilməsinə baxmayaraq, Britaniya-Fransa və İsraildən ibarət ittifaq ölkələri üçün bu siyasi fəlakət idi. Ərəb dünyasında geniş etirazların baş verəcəyi gözlənilirdi. Müttəfiq qoşunlarını ittiham edən Sovet İttifaqı və ABŞ regiona bu ölkələrin hərbi əməliyyatlarına qarşı qoşun yeritmədi. Vaşinqton İsrailə qarşı açıq-aşkar qəzəbini BMT-də İsrail öz qoşunlarını çəkməyənə kimi ona qarşı "kollektiv hərbi, iqtisadi və maliyyə sanksiyaları tətbiq etmək" istəyi ilə biruzə verdi. [153, səh 54] Bu təklif BMT Təhlükəsizlik Şurasında İsrailin mütəffiqləri Fransa və Böyük Britaniyanın veto qoyması ilə rədd edildi. Beynəlxalq münasibətlər sisteminin dinamik inkişafı Vaşinqtonu bu taktikadan əl çəkməyə məcbur etdi, çünki İsrailə qarşı tətbiq ediləcək hər hansı bir sanksiya birbaşa olaraq, Böyük Britaniya və Fransaya qarşı da tətbiq edilməli idi. Soyuq müharibə kontekstində Vaşinqton öz müttəfiqlərini bu cür sanksiya ilə cəzalandıra bilməzdi.

Bu münaqişə nəticəsində gərginləşən vəziyyət ittifaqın çökməsi ilə nəticələndi. İttifaqın çökməsini 1956-1970-ci illərdə Misir prezidenti olmuş Camal Əbdül Nasir özünün qələbəsi kimi qəbul etdi. Birləşmiş Ərəb Respublikası adlı birlik də bu müharibənin nəticəsi kimi 1958-ci ildə yaranmış, lakin 1961-ci ilə kimi mövcud olmuşdur. Müharibədən sonra ABŞ Ərəb dövlətlərinin müstəqilliyini tanıdı. Bu, ərəblər arasında ABŞ-ın beynəlxalq səhnədə onların öz müqəddaratını təyin etməsini dəstəkləməsi kimi qəbul olunurdu. [204, səh. 59]

XX əsrin 60-cı illərində ABŞ Yaxın Şərqdə üç istiqamətdə siyasət yürüdürdü. Birincisi, ABŞ xüsusilə regionda Sovet İttifaqının təsirinin qarşısının alınmasının vacibliyini vurğulayırdı. Milli Təhlükəsizlik Şurasının üzvü Harold Saunders qeyd edirdi ki, Sovet İttifaqı inqilabi, anti-Qərb rejimlərini və siyasi hərəkatları dəstəkləməklə Yaxın Şərqdə nüfuz qazanmağa çalışır. Regionun neft ehtiyatları, hərbi ləvazimatlar, rabitə vasitələri və insan resursları baxımından ABŞ rəsmilərini Sovet İttifaqının regiona irəliləməsinin qarşısının almasının vacibliyini anlayırdı. [228, s. 67]

İkincisi, ABŞ rəsmiləri Yaxın Şərqdə sabitliyin əldə olunmasına çalışırdı. Onların məqsədi regionda bütün ölkələrin ərazi bütövlüyünü hər hansı bir xarici, xüsusən də Sovet İttifaqının həmləsindən qorumaq idi. Bundan əlavə, qərbin neft maraqlarını qorumaq üçün onlar Səudiyyə Ərəbistanında mühafizəkar monarxiyanın qorunmasına çalışırdılar. [228, s.67] Anti-Qərb ərəb təsirinin yayılmasının və ya İsraillə Ərəb dövlətləri arasında münaqişənin yenidən başlamasının qarşısını almaq üçün ABŞ İordaniyaya maddi yardım göstərdi. ABŞ həmçinin Ərəb dövlətləri ilə İsrail arasında ərazi, içməli su, silah təchizatı və fələstinli qaçqınlarının statusu ilə bağlı gərginliyi aradan qaldırmağın və Ərəb-İsrail müharibəsinin yenidən alovlanmasının qarşısını almağın yollarını axtarırdı. [229, s.65]

Üçüncüsü, ABŞ rəsmiləri regionda antoqonist qrupların arasında balansı qorumağa çalışırdı. Regionda sülhə nail olmaq üçün onlar həm İsrail, həm də Ərəb dövlətləri ilə dost münasibətləri qurmaqda maraqlı idi. [230, s.69]

ABŞ rəsmiləri Yaxın Şərqdə olan dövlətlər arasında dostluq münasibətləri qurmaq cəhdinə qismən nail oldu. ABŞ-İsrail siyasi əlaqələri möhkəm dostluq və əməkdaşlığa söykənirdi. 1961-1963-cü illərdə ABŞ-ın vitse prezidenti olmuş Lindon Conson İsrailin baş naziri David Ben Qruiona deyirdi: “Mən əminəm ki, sizin burada kifayət qədər dostunuz var”. Üç il sonra, Lindon Conson ABŞ prezidenti seçildikdən sonra İsrailin Baş naziri Levi Eşkolu əmin edirdi ki, o, “İsrailin təhlükəsizlinə təsir edə biləcək hər hansı bir məsələdə onların arxasında olacaq”. [1]

Lindon Conson adminstrasiyası Ərəb ölkələri ilə də yaxın və mehriban münasibətlər qurmaq istəyirdi. Lakin Birləşmiş Ərəb Respublikası ilə ABŞ əlaqələri qənaətbəxş deyildi. ABŞ Misir prezidenti Camal Əbdül Nasirin nüvə silahlarının yayılmasına qarşı konvensiyanı qəbul etmək istəyini dəstəkləyirdi. Lakin Camal Əbdül Nasirin anti-Amerika sənədini imzalaması, Yeməndə vətəndaş müharibəsinə müdaxilə etməsi və Sovet İttifaqından silah təchizatını qəbul etməsi ilə iki tərəf arasında münasibətlər gərginləşdi. Bu da, ABŞ-ın öz mənafeinə uyğun Yaxın Şərqdə sabitliyi, güc balansını qorumaq cəhdində çətinlik yaratdı.

Conson adminstrasiyasının Yaxın Şərq siyasəti bir sıra maneələrlə qarşılaşmışdı. İsrail-Suriya sərhəddində 1964-cü ildə baş vermiş gərginlik və 1965-ci ildə Suriyada

məskunlaşmış Fələstin partizan qoşunlarının İsrailə hücumu və İsrailin cavab zərbəsi endirməsi ABŞ-ı regionda yürütdüyü siyasətə yenidən nəzər salmağa vadar etdi. Beləliklə də, onilliklər ərzində sərhəddə baş verən toqquşmalar və xırda hərbi əməliyyatlar İsrail və region ölkələri arasında gərginliyi daha da artırdı.

1967-ci ildə Ərəb dövlətləri və İsrail arasında baş vermiş Altı günlük müharibədən İsrail qalib çıxır və İordan çayının qərb sahili, Sinay yarımadası və Qolan təpəsi və 1 milyon fələstinlinin yaşadığı ərazini nəzarəti altına almaqla öz ərazisini altı dəfə genişləndirdi. Müharibənin kulminasiya nöqtəsi İsrailin Qüdsü tutması olur.

İsrailin 1967-ci il qələbəsi ABŞ-ın önəmli müttəfiqi kimi müharibədən sonrakı mövqeyini nəzərəçarpacaq dərəcədə artırdı. Sonrakı illərdə ABŞ-İsrail əlaqələri daha da gücləndi. Bu yaxınlaşma Soyuq müharibə zamanı baş verdiyi üçün sovetlərin Ərəb-İsrail müharibəsi zamanı ərəbləri silahla yenidən təmin etməyinə təkan verdi. Sovetlərin bu cür müdaxiləsi ABŞ-ın İsrailin ən böyük dəstəkləyicisi və bununla da özünün regionda ən önəmli nizamlayıcı rolunu oynamasına səbəb oldu.

Bu dövrdə Təl-Əviv özünün müdafiə proqramını xeyli inkişaf etdirmiş və nəticədə 1968-ci ildə Yaxın Şərqdə Nüvə Silahının yayılmamasına dair müqaviləyə qoşulmaqdan imtina etmişdir. Bu hadisə regionda nüvə müharibəsi hədəsinə səbəb oldu, həmçinin Ərəb-İsrail münaqişəsində ABŞ-ın göstəridiyi ikili standartları açıq şəkildə nümayiş etdirdi. Vaşinqton İsrailin müqaviləyə qoşulmamasının səbəbini izah etməyi tələb etdi, lakin ABŞ İsrailin lazım olmadığı təqdirdə nüvə silahında ilk istifadə edən ölkə olmayacağı cavabı ilə qane oldu. [195, s.56]

ABŞ-ın İsraili dəstəkləməsi Misirin Sovet İttifaqı ilə daha da yaxınlaşmasına səbəb oldu. Belə ki, Misir Sovet İttifaqından silah aldı və 1968-ci ilin sonuna doğru özünün döyüş qabiliyyətini artırdı. ABŞ da öz növbəsində İsrailin hərbi balansı, yerli siyasi maraqlarını qorumaq üçün qabaqcıl hərbi təyyarələr göndərdi. Camal Əbdül Nasir İsraillə sülhə yalnız İsrailin işğal olunmuş ərazilərdən geri çəkiləcəyi təqdirdə razı olacağını elan etdi, lakin İsrail bu təklifi birmənalı şəkildə rədd etdi. [155, s. 215-217]

Müharibə 1969-cu ilin mart ayında Camal Əbdül Nasirin Suveyş kanalının şərqində yerləşən İsrail hərbi hissələrinə qarşı havadan və artileriya hücumu etmək əmrini verməsi ilə başladı. Buna cavab olaraq, 1970-ci ildə İsrail Qahirə də daxil olmaqla Misir ərazisini bombardıman etdi. [152, s.289-98] ABŞ tez bir zamanda münaqişəyə müdaxilə etdi və 1970-ci ildə Misir, İordaniya və İsrailə atəşkəs elan etməyi və sülh bağlamağı təklif etdi. Misir və İordaniya sülh bağlamaq təklifini dərhal, İsrail isə bir müddət sonra qəbul etdi.

İsraillə Ərəb ölkəri arasında növbəti münaqişə 1973-cü ildə Yəhudi xalqı üçün müqəddəs sayılan Yom Kippur günündə baş verdi. İsrail tez bir zamanda Misir və Suriyanın həmləsini dəf etdi.

Yom Kippur müharibəsi İsrailin güclü beynəlxalq müttəfiqlərinin səfərbər olmasına zəmin yaratdı. Başlanğıcda tərəddüd etməsinə baxmayaraq, Vaşinqton 1973-cü il 13 oktyabrda hərbi təchizatların airliftlərlə (iri təyyarələrlə) daşınması prosesinə başladı. Müharibədən bir neçə gün sonra İsrailin mövcud özünü müdafiə proqramının effektiv olmasına şübhə yarandı. ABŞ İsrail ordusunun gücləndirmək üçün əlavə canlı qüvvə göndərmək qərarına gəldi və İsrail hərbi baxımdan yeni bir qələbəyə imza atdı. Lakin ABŞ hesab edirdi ki, 1973-cü il müharibəsi İsrail üçün “strateji məğlubiyyət”dir. [204, s.205-207] İsrailin qələbəsinin qaçılmaz olduğunu gördükdə Ərəb dünyası öz ərazi iddialarına nail olmaq üçün Qərb dövlətləri və İsrailə neft embarqosu tətbiq etdi.

ABŞ 1973-cü ildən başlayan neft böhranından sonra açıq şəkildə İsraillə mütəffiq oldu və Yaxın Şərqdə sülh yaratmaq təşəbbüsünü öz üzərinə götürdü. Nəticədə, 1978-ci ildə İsrail və Misir arasında “soyuq sülhün” başlanğıcına işarə edən Kemp Devid razılığı imzalandı. [196, s. 205-206] İsrail tərəfdən Yamit icmasının sakinlərinin məcburi təxliyyəsi da daxil omaqla Sinay yarımadası Misirə geri qaytarıldı. Misir prezidenti Ənvər Sədat müqavilənin bağlanmasında oynadığı rola görə İslam Cihad qrupu tərəfindən sui-qəsd nəticəsində öldürüldü və 1990-cı ilə kimi Misir Ərəb dünyasının siyasi səhnəsindən kənarda qaldı.

İsrail və onun qüdrətli tərəfdarları arasında artan öhdəlik 1981-ci il noyabrın 30-da İsrail və ABŞ arasında Sovet İttifaqının regiona təsirinə qarşı ilk strateji

əməkdaşlıq haqqında imzalanan razılıqla formalaşdırıldı. [195, səh. 59] 1981-ci ildə İsrailin İraqın cənubunda nüvə silahlarına qarşı başlatdığı hava hücumu belə bu sazişin bağlanmasına mane ola bilmədi. İsrailin şəxsi maraqlara əsaslanan regionda nəzarətçi rolunu oynamaq istəyi ABŞ-ın Yaxın Şərqdə göstərdiyi yardım ilə həyata keçirilirdi.

Ərəb-İsrail müharibəsi 1982-ci il Livan müharibəsi ilə davam etdi. Bu müharibə İsrailin beynəlxalq səviyyədə mühakimə olunmasına səbəb oldu. Livan müharibəsi əslində xaricdən müdaxilə səbəbindən alovlanmışdı. İsrail müdaxilə edən ölkələrdən biri idi.

1967-ci il uğursuz müharibədən sonra fələstinli qaçqınların böyük hissəsi İordaniya ərazisində məskunlaşdı. Fələstin Azadlıq Təşkilatının ölkədə apardığı təşviqat və İsrail ərazisinə müdaxilə İordaniyada yerli sabitliyə hədə və İsraildən cavab zərbəsinin gələcəyi qorxusunu yaratdı. Məhz bu səbəbdən İordaniya əsgərləri və Fələstin Azadlıq Təşkilatı (FAT) silahlıları arasında qanlı toqquşma baş verdi və bundan sonra təşkilatın çox amansız döyüşən qanadı İordaniyadan qovuldu. Onlar Livanın cənubunda yerləşdi və bu da İsrail-Livan sərhəddində tez-tez münaqişələrin baş verməsinə səbəb oldu. Onlar 1978-ci ildə İsrail yaraqlılarının kökünü kəsmək üçün Bekka vadisinə basqın etdi. Lakin beynəlxalq ictimaiyyətin göstərdiyi təzyiq və BMT qoşunlarının əraziyə müdaxiləsi onları geri çəkilməyə vadar etdi. Bu gərginliyi aradan qaldırmadı, belə ki, BMT qoşunları özlərinin İsrailə qarşı FAT-ın sərhəddə hücumlarının qarşısını almağa qadir olmadığını sübut etdi. [114, s. 57-62]

İsrail vətəndaşlarına qarşı davam edən hücumları və Böyük Britaniyada İsrail səfirinə qarşı edilmiş sui-qəsdi bəhanə gətirərək, İsrailin o zamanki müdafiə naziri Ariel Şaron FAT-a qarşı hərbi plan hazırladı. Plan Fələstin miliyyətçilərinə göstərilən köməyin qarşısını almaq və İsrailin şimal sərhədlərini qorumaq məqsədilə cənubi Livana hərbi hücum və işğalı reallaşdırmaq üçün nəzərdə tutulmuşdur. İsrailin quru qoşunları 10 həftəyə Beyrutun müsəlmanlar yaşayan ərazisinə hücüm etdi və oranı mühasirəyə aldı. [216, s. 54]

Bu dövrdə həm İsrail, həm də Suriya öz regional güclərini nümayiş etdirir və xüsusilə qeyri-sabit və dağılmış Livanı öz maraqlarına uyğunlaşdırmaq üçün regionu

yenidən qurmaq istəyirdilər. Öncəki döyüşlərin əksinə Livanda baş vermiş bu müharibə labüd olduğu üçün deyil, seçim edildiyi üçün baş vermişdir və İsrail ictimaiyyəti bunu heç də müsbət addım kimi qiymətləndirməmişdir. Beyrutun İsrail qoşunları tərəfindən mühasirəyə alınması ona qarşı beynəlxalq səviyyədə ittihamların artmasına səbəb oldu. Eyni zamanda FAT Ərəb dövlətləri tərəfindən dəstək görmədi. Vasitəçi kimi beynəlxalq cəhdlərə baxmayaraq, Səudiyyə Ərəbistanı, Misir və Körfəz ölkələri FAT döyüşçülərinə sığınacaq verməyi rədd etdi. [216, səh. 64-67] Nəticə etibarı ilə FAT üzvləri ABŞ-ın dəstəyi ilə Tunisə köçürüldü.

1982-ci il müharibəsi İsrail üçün nəticəsiz olmadı. İsrailin ABŞ-la münasibətlərinə xələl gəldi, belə ki, İsrail öz siyasi kursunu həyata keçirmək qərarını açıq elan etdikdən sonra Vaşinqtonun ittihamı belə onu öz addımından çəkindirmədi.

1982-ci ildə ABŞ-ın o zamanki prezidenti Ronal Reyqan uğursuz sülh təşəbbüsü planını təklif etdi. Bu sənədə əsasən ABŞ işğal olunmuş ərazilərdə İsrailin suverenliyini qəbul etmir, lakin eyni zamanda müstəqil Fələstin dövlətinin yaranması təklifini də dəstəkləmirdi. Misir prezidenti Nasser Camalın sözlərinə görə Reyqan adminstrasiyasının başçılığı ilə "Fələstinlilərin öz müqəddəratını təyin etmə hüququnun inkarı ABŞ-ın rəsmi siyasətinə çevrildi". [225, s.159] Bu plan nə ərəblər, nə də İsrail tərəfindən qəbul edilmədi. Reyqanın sülh təşəbbüsü növbəti illər üçün ABŞ xarici siyasətini müəyyənləşdirdi. Fələstin "muxtariyyəti" və "özünü idarəetməsi" dəstəklənirdi, lakin İsrailin təhlükəsizliyinin önəmi daha çox vurğulanırdı. Livanın mərkəzi regionlarından çıxmasına baxmayaraq, İsrail ölkənin cənubunu işğal etdi. Bu hadisə İsraili Hizbullah təşkilatı ilə daimi münaqişəyə sürüklədi.

Ümumiyyətlə, XX əsrin 80-ci illər və 90-cı illərin əvvəlləri tarixə Yaxın Şərq regionunda İraq-İran və İraq-Küveyt müharibələri ilə düşür. İraqın işğalçı siyasətindən qorxan Ərəb dünyası, xüsusilə Səudiyyə Ərəbistanı və Küveyt ABŞ-ı regiona Səddam Hüseynin təcavüzkar siyasətindən və təhlükəsindən qorumağa çağırdı. Müharibə ABŞ qoşunlarının İraq qoşunlarını məğlub etməsi ilə bitdi. Lakin maraqlı və diqqət çəkən məqam İraqla mübarizə aparan ABŞ-ın Səddamın rejimini devirməməsi oldu.

Müharibə bitdikdən sonra ABŞ Konqresində çıxışı zamanı ABŞ-ın o zamankı prezidenti Corc Buş bəyan etdi ki, açıq aşkar öz ölkəsinin maraqlarını güdən ABŞ-ın rəhbərlik etdiyi ittifaqa sadiq olan Ərəb dövlətlərinə mükafat kimi ABŞ Yaxın Şərqdə yeni nizamın qurmaq qərarına gəlmişdir. Bu İsrail üçün elə bir zaman idi ki, o, ABŞ-dan təcili şəkildə 10 milyard dollar borc almalı idi. Bunun əsas səbəbi Rusiyadan yəhudilərin kütləvi şəkildə İsrailə miqrasiyası idi. İsraildən tələb edilirdi ki, ABŞ-ın sülh çağırışına müsbət cavab versin, İsrail Rusiyadan gələn miqratları Qərb sahilləri və Qəzza bölgəsinə yönləndirməsin və bir daha bu cür məskənlər inşa etməsin. Bütün bunlara baxmayaraq, İsrail bu bölgədə yaşayış məskənlərinin inşasını davam etdirdi. Belə ki, 1991-1992-ci illər ərzində 10000 yeni yaşayış məskəni inşa edilmişdir. [189, s.115-132]

Regionda İsrailə qarşı mübarizə aparan Hizbullaha gəldikdə isə, bu təşkilat onların deyimi ilə desək, İsrailin təcavüzkar siyasətinə qarşı müqavimət hərəkatı kimi Livanın cənubunda 1980-ci illərdə formalaşmışdır və onların müqavimət ideologiyası İran inqilabından bəhrələnirdi. Öz hərbi düşərgəsində Hizbullah Fələstin müqavimətçiləri üçün itkilərə səbəb olan bomba partlayışı həyata keçirirdi. Bu təşkilat İsrail ilə sonrakı onilliklərdə də döyüşə girmiş və İsrailə yenilməz bir düşmən olduğunu sübut etmişdir. İlk olaraq 2000-ci il may ayının 25-də İsrail Hizbullahla heç bir sülh razılığı və güzəşt olmadan Livanı tərk etdi. [195, səh. 63]

İsrail Müdafiə Qoşunlarının Livanın cənubundan çəkilməsi heç də İsrail ilə cənub ərazilərin işğalına qarşı həmrəy olmuş Şiə yaraqlıları arasında düşmənçiliyə son qoymadı. İsrailin 2000-ci il geri çəkilməsi onun şimalda mövcud olan icmalarını ara-sıra kiçik miqyaslı raket hücumlarına məruz qoymağa davam edən Hizbullahın heç də hərbi əməliyyatları dayandırması anlamına gəlmirdi.

2006-cı ilin iyulunun 12-də Livanda 34 günlük münaqişə alovlandı. Regional aktorlar arasında qarşılıqlı təsir burada çox önəmli idi. Bu münaqişə başlamamışdan bir neçə ay öncə İsrail 1987-ci ildən Misirdə fəaliyyət göstərən Müsəlman qardaşları təşkilatının Fələstindəki qolu olan və Fələstinin heç bir vəcdlə qeyri-müsəlmanlar tərəfindən qurulmasına imkan verməyəcəyini bəyan edən Həmasın Qəzza zolağında artan fəallığının şahidi oldu. Belə ki, Həmas İsrail Müdafiyə Qoşunlarının ehtiyatda

olan hərbçilərini girov götürdü. İyul ayında Hizbullah İsrailin şimalına qarşı katyuşa raket hücumu zamanı iki İsrail əsgərini tutdu. Bir neçə İsrail hərbçisi uğursuz ani hücum zamanı həlak oldu. Buna cavab olaraq, İsrail Hizbullahın obyektlərinə və mülki ərazilərə havadan zərbə endirdi, bununla da Yaxın Şərqdə münaqişə yenidən alovlandı.

İsrailin hava və dənizdən mühasirəyə alması və vəziyyətə nəzarət etməsi Livanın cənubunun işğalına səbəb oldu. Münaqişə bir ay davam etdi və bu müddətdə dəhşətə gəlmiş belnəlxalq ictimaiyyət tərəfləri atəşkəs elan etməyə çağırdı. Müharibə minlərlə can aldı, on minlərlə insan öz yurdlarından didərgin düşdü, ölkənin infrastrukturuna ciddi ziyan dəydi. Münaqişə İsrail üçün də itkisiz ötüşmədi, belə ki, 43 mülki vətəndaş və 117 hərbçi həlak oldu, 50000 yaxın insan öz yerlərindən köçürüldü. [302] Qeyd etmək lazımdır ki, öz vətəndaşlarını qorumaq üçün İsrail dünyada ən etibalı sığınacaq və təxliyyə sistemi yaratmışdır.

Bu münaqişəyə beynəlxalq ictimaiyyətin reaksiyası beynəlxalq münasibətlər sistemində güc balansının vəziyyətini aşkar etdi. ABŞ öz müttəfiqləri Böyük Britaniya və Avstraliyanın dəstəyi ilə bu münaqişəni “terrora qarşı müharibə” kimi qiymətləndirdi və İsrailin özünü müdafiə haqqının olmasını təsdiq etdi. [195, s.65] Beynəlxalq ictimaiyyətin böyük hissəsi İsrail münaqişəsinin Şiə Hizbullahı ilə olmasını düşünürdü, lakin bunun cəzasını livanlılar ödəyirdi. Ərəb dünyasında baş verən ayrılma və artan Şiə fəallığına olan qorxu bir sıra ərəb ölkələrinə həm Hizbullahın təhrikedici hərəkətini, həm də İsrailin cavabını tənqid etməyə əsas verdi. BMT-nin atəşkəs istəyi 2006-cı ilin Avqustun 14-də həyəta keçirildi, İsrailin Livanı dənizdən mühasirəyə alması həmin ilin sentyabrında başa çatdı. [189, 326-330] Bu müharibədə konkret bir qalib olmadı. İsrail Hizbullahın kökünü kəsməyə müvəffəq olmadı.

İsrail dövlətinin qısa tarixi müharibələrlə xarakterizə olunur. Ərəb-İsrail münaqişəsi əzəli nifrətə deyil, ərazi iddiası, su yolunun əldə edilməsi, strateji planlaşdırma kimi məsələlərə və nəhayət siyasətçilərin şəxsi gündəliyinə söykənmişdir.

ABŞ-ın İsraili dəstəkləməsi özünü Fələstin-İsrail münaqişəsində daha çox göstərmişdir. ABŞ-da hakimiyyətə gəlmiş prezidentlərin mütəmadi olaraq, bu iki xalq arasında olan münaqişəni sülh yolu ilə həll etmək istəyi elə məhz istək olaraq qalmışdır. Bunun əsas səbəbi ABŞ üçün onun müttəfiqi olan İsrailin təhlükəsizliyinin və istəyinin daha önəmli olması, habelə iki ölkə arasında razılıq əldə edildikdən sonra Fələstinin müstəqil bir dövlət kimi yaranmasını dəstəkləməsi fikri idi. Məsələyə İsrailin Fələstin dövlətinin yaranmasına heç bir vəcdlə razı olmaması kontekstindən yanaşsaq, tərəflər arasında sülhə nail olmanın müəyyən mənada imkansız olduğunu anlamaq olar.

Zaman-zaman dünya ictimaiyyəti İsrailin Fələstin xalqına qarşı apardığı amansız müharibəni pisləmiş və bu xalqa öz yardımını göstərməyə çalışmışdır. Lakin bəzi hallarda İsrail tərəfindən bu yardımın çatdırılmasına imkan verilməmişdir. Buna misal kimi Aralıq dənizindən yola çıxan və Qəzza zolağına yardım aparan 6 gəmiyə hücumu göstərmək olar. Belə ki, “Qəzza azadlıq gəmi dəstəsi” 2010-cu il may ayının 31-də Aralıq dənizində İsrailin su sərhədlərindən 130-150 km uzaqda beynəlxalq sularında İsrail hərbi-dəniz donanması tərəfindən hərəkətinin qarşısı alınmışdır. İrlandiya, Türkiyə və Yunanıstan limanlarından yola çıxan gəmilərin məqsədi Qəzzada çətin vəziyyətdə qalmış insanlara humanitar yardım göstərmək idi. Altı gəmidən ibarət dəstənin təşkilatçıları Azad Qəzza hərəkatı və Türkiyənin İnsan Hüquq və Azadlıqları fondunun birgə dəstəyi ilə təşkil olunmuşdur. [197, səh. 306]

İsrail Müdafiə Qoşunları gəmi dəstəsi tərəfindən Aşdod limanına yönləndirmək təklifinə rədd cavabı aldıqdan sonra İsrail hərbçiləri hücum həyata keçirdi. 6 gəmidən 5-i heç bir münaqişə baş vermədən İsrail tərəfindən ələ keçirildi. Göyərtəsində 600 nəfər sərnişini olan Mavi Mərmərə adlanan gəmi İsrail qoşunlarına müqavimət göstərdi. Nəticədə səkkizi Türkiyə vətəndaşı, biri isə türk əsilli ABŞ vətəndaşı olmaqla doqquz insan həlak olur, 60-a yaxın insan isə yaralandı. [294]

Bu hadisədən sonra Türkiyə İsraillə əlaqələri kəsmiş və əlaqələrin təkrar normallaşması üçün 3 şərt irəli sürmüşdür: İsrailin baş verən hadisə ilə bağlı rəsmi şəkildə üzr istəməsi, hücum zamanı həyatlarını itirmiş insanların ailələrinə təzminat ödənilməsi və İsrailin Qəzza blokadasına son qoyması. İsrail yalnız üç il sonra

Türkiyədən rəsmi şəkildə üzr istəmiş və hücum zamanı həyatlarını itirən insanların ailələrinə təzminat ödəməsinə razılıq vermişdir. [246, s.3-18]

Baş vermiş hadisənin araşdırılması zamanı birtərəfli yanaşmamaq üçün İsrail mənbələrinə də müraciət olunmuşdur. Maraqlıdır ki, İsrail mənbələri fərqli fikir səsləndirmiş və onlar dünyanın aparıcı KİV-də ölkələri haqqında çıxan mənfi xəbərləri və dünya ictimaiyyətinin baş verən vəziyyəti düzgün qiymətləndirməməkdə qınamışdılar. İsrail mənbələri altı gəmidən beşinin qeyri-şərtsiz təslim olmasını, yalnız Türkiyəyə məxsus "Mavi Mərmərə"nin müqavimət göstərməsini Qəzzaya yalnız humanitar yardım deyil, Həmas təşkilatı üçün lazımı silah məmulatlarının ötürmək istəyi kimi qiymət vermişdilər. Belə ki, gəmidə qaz maskalarının, güllə keçirməyən jiletlərin, ratsiyaların tapılmasına və baş verən qarşıdurmada göyərtədə olan fəalların soyuq silaharla müqavimət göstərməsinə dair iddialar İsrail hökumətinə bu cür fikirləşməyə səbəb vermişdir. [197, s. 308]

Bundan əlavə bu hadisəni daha da alovlandıran səbəblərdən biri o zaman Türkiyənin baş naziri olmuş Rəcəb Təyyub Erdoğanın Həması terror təşkilatı kimi görməməsi və onların öz torpaqlarından müqavimat hərəkatı aparan fələstinlilər olduğunu söyləməsi idi. [197, s. 310]

ABŞ-ın mövqeyi isə heç də kəskin olmadı. Qeyd edildiyi kimi, ölən 9 nəfərdən biri türk əsilli ABŞ vətəndaşı idi. ABŞ Dövlət Departamentinin sözcüsü "Amerika vətəndaşının ölmünün səbəbləri araşdırılacaq. Əgər biz qərara gəlsək ki, burda cinayət tərkibi var, onda Federal Təhqiqat Bürosu İsrail hökuməti ilə əməkdaşlıq edib məsələni aşkara çıxaracaq" bəyanatı ilə kifayətləndi. [267]

ABŞ-ın vitse-prezidenti Coe Bayden də rəsmi şəkildə bu hadisələrdə İsrailə haqq qazandıraraq, bildirmişdir: "İsrailin Həmasla müharibə etdiyi üçün gəmidə qaçaqmalçılıq yolu ilə silah daşınıb daşınmamasını bilmək haqqı var." [262] Bununla da ABŞ-ın Yaxın Şərq regionunda müttəfiqi olan İsraili açıq-aşkar dəstəkləməsi bir daha elan edildi.

İsrail dünyada mövcud olan çox az ölkələrdəndir ki, onun xarici siyasətinə, hətta onun strateji müttəfiqi olan ABŞ belə təsir göstərə bilmir. İsrailin ABŞ-da fəaliyyət göstərən və dünyanın ən güclü lobbisi hesab edilən Yəhudi lobbisi (AIPAC-

American-Israel Public Affairs Committee-Amerika-İsrail İctiami Əlqələr Komitəsi) ABŞ-ın İsrailə dair siyasətinə ehtiyatla yanaşmağa məcbur edir. Çünki ABŞ-da maliyyə bazarında söz sahibi, əsasən, yəhudilərdir. Onlar müəyyən ştatlatda say baxımından çoxluqda yaşadıqları üçün seçkilərdə həlledici rol oynamaq iqtidarındadırlar. Buna görə də, hakimiyyətə gəlmək istəyən namizədlər və ya ikinci dəfə namizədliyini irəli sürmək istəyən prezidentlər yəhudi lobbisinin təzyiqi altında israillərlə bağlı siyasi kursa xüsusi diqqət ayırırlar. Buna misal olaraq, hakimiyyətinin ilk illərində ABŞ-ın sayca 44-cü prezidenti Barak Obamanın beynəlxalq tribunalarda Fələstin xalqının xeyrinə işlədilən fikirləri daha sonra lobbinin təzyiqi ilə dəyişməsi göstərmək olar. Bu haqda daha geniş araşdırma növbəti hissədə aparılmışdır.

ABŞ-İsrail müttəfiqliyi iki dövlət arasında normativ siyasi dəyərlər çərçivəsində mövcud olan qarşılıqlı mənfəətə əsaslanan münasibətlərə söykənir. Əslində, onilliklər ərzində iki ölkənin müttəfiq olması özü-özlüyündə müzakirə mövzusu deyildir. Belə ki, ABŞ-ın nüfuzlu Pyu araşdırmalar mərkəzinin (Pew Research Center) Müsəlman ölkələrində apardığı qlobal sorğuya əsasən bu ölkə vətəndaşları "yekdilliklə düşünürlər ki, İsrail Fələstin problemini əldə əsas tutaraq ABŞ-dan həddən artıq dəstək görür." [253] Beləliklə də, siyasi kontekstdə iki ölkə arasında olan münasibətlərin qeyri-adiliyi və müstəsnalığı gərginliyin baş qaldırmasına səbəb olan xalqlar arasında narazılıq, hüququn tapdalanması kimi mürəkkəb qarşılıqlı təsir ilə xarakterizə olunur.

XX əsrdə fövqəl dövlətlərin Yaxın Şərq regionuna təsiri və ya himayədarlığı bir çox regional münaqişələrin başlanmasına təkan vermişdir. Hal-hazırda Yaxın Şərq beynəlxalq münasibətlər sistemində önəmli yer tutan İsrail-ABŞ mütəffiqliyi Soyuq müharibənin gedişatı zamanı formalaşmış və onun nəticəsi kimi ortaya çıxmışdır. ABŞ-da yəhudi lobbisinin gücü nəzərəçarpacaq dərəcədə artması bu müttəfiqliyin də güclənməsi ilə birbaşa əlaqəlidir.

## 2.2. İsrail-Fələstin münaqişəsi və onun tənzimlənməsində ABŞ-ın mövqeyi

İsrail-Fələstin münaqişəsi dünyanın ən uzun müddət davam edən, donmuş münaqişə statusu alan və hələ də həll yolu tapılmayan münaqişələrindəndir. Bu münaqişə 1948-ci ildə Yaxın Şərqdə İsrail dövlətinin yaranması ilə başlamış və yetmiş ilə yaxın davam edən müharibə bütün sülh səyləri və atəşkəs müqavilələrinə baxmayaraq bitməmişdir.

İsrail dövlətinin yaradılması prosesi XIX əsrin sonlarında Macarıstanda doğulmuş yəhudi əsilli hüquqşunas, jurnalist və sionizm hərəkatının banisi hesab edilən Teador Herzlin 1897-ci il İsveçrədə I Dünya Sionist qurultayını çağırması ilə başladı. Başda İngiltərə olmaqla, Qərb ölkələri Fələstin torpaqlarında İsrail dövlətinin yaradılmasına dəstək verdi. Böyük Britaniya yəhudilərin Fələstin ərazisinə köçürülməsi, burada onların torpaq mülklərinə sahib olması və tədricən ərazidə məskunlaşmasında mühüm rol oynamışdır. Bunun əsas səbəblərindən biri kimi I Dünya müharibəsi zamanı yəhudilərin ingilislərə yardım etməsi idi. Digər səbəb isə artıq Avropada, xüsusilə də Fransada yəhudilərə qarşı baş qaldıran aqressiv münasibət, getdikcə artan qəzəb və nifrət hissi idi. [154, səh.59-73]

1947-ci il noyabrın 29-da BMT Fələstin torpaqlarının 56 %-i əhalisinin sayı 650 min olan Yəhudi, 44 %-ni isə 1 milyon 300 min nəfərlik Fələstin xalqına verilməsi və Qüdsün beynəlxalq statusa sahib bufer zona olması barədə planı təsdiqlədi. 1948-ci il mayın 14-də isə İsrail dövlətinin yaradılması rəsmən elan edildi. İsrail dövlətinin yaranmasının həm regiona, həm da beynəlxalq münasibətlərə çox önəmli və ziddiyyətli təsiri oldu. Dünyada çox az ölkə olar ki, İsrail kimi çox qısa zaman ərzində bu cür inkişafa nail olsun. İsrailin yaranması regionda sülhün və əmin-amanlığın bitməsinə işarə idi.

Yaxın Şərqdə İsrail dövlətinin yaranması ABŞ-ın xarici siyasətinin formaşmasına dərin və davamlı təsir etmişdir. İrəlidə qeyd olunduğu kimi XX əsrin ilk yarısında ABŞ-ın Yaxın Şərqdə rolu məhdud idi və bu vəziyyət beynəlxalq əlaqələrdə güc balansına təsir göstərirdi. II Dünya müharibəsindən sonra Böyük Britaniya və Fransa kimi müstəmləkə ölkələrinin gücü zəiflədi. ABŞ və Sovet İttifaqı

kimi yeni supergüclər Yaxın Şərqdə daha mühüm mövqeyə sahib oldu. İsrail dövlətinin yarandıqdan sonra Vaşinqton onun əsas maliyyə dayağına çevrilmişdir. Əsrin sonlarına doğru İsrail və ABŞ siyasi cəhətdən yaxınlaşdı. 1974-cü il neft böhranı əlaqələrin yaxınlaşmasını daha da sürətləndirdi.

1948-ci ildə Misir, Suriya və İraq başda olmaqla ərəb dövlətləri İsraili müstəqil dövlət kimi tanımadı və hüquqları tapdanmış fələstinliləri müdafiə etmək üçün ona qarşı müharbəyə başladı. Müharibə ərəblər üçün məğlubiyyətlə nəticələndi. İsrail isə bu müharbəni “Azadlıq müharibəsi” adlandıraraq dünya ictimaiyyətinin diqqətini bu müharibəyə yönəldə bildi.

Lakin ərəb dünyası bu məğlubiyyətlə barışmadı. 1964-cü ildə Misir prezidenti Camal Əbdül Naserin təklifi ilə Ərəb Liqası tərəfindən Fələstin Azadlıq Təşkilatı (FAT) yaradıldı. 1967-ci il Altı günlük müharibədən sonra mühüm ərazilər işğal edən İsrail 1 milyon fələstinlinin yaşadığı ərazini nəzarəti altına aldı, beləliklə də, öz ərazisini altı dəfə artırmağa müvəffəq oldu. Fələstinlilər birbaşa İsrail qoşunlarının nəzarəti altında olan ərazilərdə yaşamağa məhkum oldular. Bundan sonra Fələstin xalqının azadlığı uğrunda mübarizə aparan lideri Yasir Ərəfatın başçılığı ilə FAT daha döyüşkən fəaliyyətə başladı və təşkilatın liderləri İsrailə qarşı siyasi və hərbi taktika həyata keçirdi.

1982-ci il İsrailin Livana qarşı həyata keçirdiyi müharibənin əsas məqsədi FAT-ı tamamilə məhv etmək, Suriya qoşunlarını neytrallaşdırmaq idi və bu məqsədlə Livanın cənubuna hücum planı hazırlandı. Bu plan ilk əvvəldə İsrailin Nazirlər kabinetinə “ancaq FAT-a qarşı qısa və kiçik miqyaslı Litani əməliyyatı” kimi təqdim edilmişdir. İsrail quru qoşunları Beyrutun müsəlmanlar yaşayan ərazisinə hücüm etdi və on həftə ərzində oranı mühasirəyə aldı. Belə bir vəziyyətdə ABŞ-da 1981-ci ildə hakimiyyətə gəlmiş sayca 40-cı prezidenti Ronald Reyqan sülh danışıqlarını başlamağa məcbur oldu. O, 1982-ci il sentyabrın ayının 1-də xalqa müraciət edərkən bildirdi ki, sülhün təmin edilməsi mənəvi baxımdan çox önəmlidir. Ronald Reyqanı vurğuladı ki, İsrail və Fələstin Azadlıq Təşkilatı BMT-nin 242[3] saylı qətnaməsini

[3]1] İsrail qoşunlarının işğal olunmuş Fələstin ərazilərindən qeyd-şərtsiz çıxması; 2] Fələstin sərhədlərinin İsrail tərəfindən tanınması; 3] Fələstin qaçqınlarının öz yurd-yuvalarına qayıtmaları.

qəbul etməlidir. Bununla da o, İsrailin Qolan və Qərb sahillərinə dair iddialarını rədd etmiş oldu. Reyqan adminstrasiyası İsrailin işğal olunmuş ərazilərdən geri çəkilməsini, bu ərazilərdə Fələstinin İordaniya ilə konfederasiyaya daxil olmasını və beynəlxalq konfransda İsraillə birgə danışıqlar aparılmasını təklif edirdi. Bununla da, Reyqan adminstrasiyası Fələstin dövlətçiliyinin mövcud olma fikrini rədd edir və FAT-ın təcrid edilməsini istəyirdi. Lakin Reyqan adminstrasiyası İsrail-Fələstin və ümumiyyətlə, Yaxın Şərq məsələsinə çox da cəlb olunmaq istəmirdi, bunun əsas səbəbi 1988-ci il prezident seçkilərində öz partiyasının maraqlarını qorumaq istəyi idi. [196, s. 360-363]

1967-ci il İsrailin qələbəsindən sonra əldə edilən status-kvo 1980-ci illərdə işğal olunmuş ərazilərdə etirazlara səbəb oldu. Fələstin əhalisinin sayı artırdı və İsrail işğalı icmanın həyatının hər sahəsinə həm fərdi, həm də kollektiv şəkildə təsir göstərirdi. Qırx il ərzində dövlətsiz, son iyirmi ildə isə İsrail qoşunlarının nəzarəti altında yaşayan fələstinlilər yoxsulluqdan əziyyət çəkmiş, xalqın FAT-a və Ərəb dövlətlərinə bəslədiyi ümidləri doğrulmamış, İsrailin tətbiq etdiyi qadağa saatlarından və məhdudiyyətlərindən alçalmış, israillilərin ötkəmliklərindən bezmişdirlər. 1980-ci illərin əvvəlində Livan münaqişəsindən sonra Tunisə sürgün edilmiş FAT-ın Qəzza və Qərb sahilində yaşayan insanlar üçün uzaq məsafədə də olsa mövcudluğu bir təsəlli idi. İşğal və siyasi durğunluqdan doğan narazılıq qığılcıma səbəb oldu. Bu, Qəzzada 1987-ci il 9 dekabr tarixində İsrail hərbçilərini daşıyan yük avtomobilinin törətdiyi qəza zamanı dörd fələstinin ölümü ilə başladı. Baş vermiş hadisə İsrail və beynəlxalq ictimaiyyəti silkələyən iri miqyaslı etiraz dalğasına, azadlıq uğrunda mübarizəyə səbəb oldu və bu, ərəb dilində qiyam mənasını verən İntifada adlandı. [205, s. 50-82]

İordan çayının qərbi sahilində yerli əhali arasında narazlığın artması bölgədə yeni münaqişənin yaranmasından xəbər verirdi. Ərəb dünyası ilə müharibə zamanı çox səmərəli olan İsrailinin mütləq hərbi gücünü əks etdirən ənənəvi doktrinası yerli əhalinin itaətkarsızlığına qarşı mübarizə aparmaqda elə də təsirli deyildi. Əksəriyyətinin yaşı iyirmi beşdən aşağı olan cavan fələstinlilər küçələrdə nümayişlər təşkil edir, İsrail əsgərlərini daş-qalağa basır, onların üzərinə yandırıcı vasitələr atır

və təkərləri yandırırdılar. İsrailin o zamanki Müdafiə naziri Yitzhak Rabin nümayişə çıxmış fələstinlilərin “sümüklərini qırmaq” əmrini verdi. [205, s.89] İsraillilər qadağa saatlarını rəsmiləşdirdi, universitetlər bağlandı, kütləvi həbslər və iqtisadi sanksiyalarlar tətbiq edildi. 1990-cı ilin ortalarına kimi 200 nəfərinin yeniyetmə və uşaq olmaqla 800 fələstinli öldürülmüş və 17000 nəfəri isə həbs olunmuşdur. 250 fələstinli isə öz həmvətənləri tərəfindən İsrailin xeyrinə casusluq şübhəsi ilə qətlə yetirilmişdir. İxtişaşlar zamanı 50 İsrail vətəndaşı dünyasını dəyişmişdi.

Fələstinlilərin İsrail əsgərləri tərəfindən döyülməsi təsviri KİV vasitəsilə bütün dünyaya yayıldı və dünya birliyi problemi tez bir zamanda həll etmək tələbini irəli sürdü. Hər şeydən öncə bu narazılıqda anti-işğal düşüncəsi hakim idi. İntifada Fələstin xalqının milli azadlıq mübarizəsi kimi qəbul edilirdi. [153, s. 424-439]

1987-ci il hadisəsi daxili siyasətə də təsirsiz ötüşmədi. İsrail daxilində İsrail Müdafiə Qoşunlarının İntifadaya təzyiq etmək bacarıqsızlığı işğalın mənəvi və siyasi dəyəri barədə müzakirələri gündəmə gətirdi. Küçə səfərbərliyinin və əhalinin narazılığının artması Fələstin liderlərinin azad koalisiyalarda birləşməsinə səbəb oldu. Narazılığın alovlanması FAT üçün ciddi problemlər yaratdı. Belə ki, bu İntifada həm İsrail işğalına etiraz, həm də FAT-ın işğalı dayandırmaq cəhdinin uğursuzluğuna göstərilən bir reaksiya kimi başa düşülə bilər. [167, s.115-132]

Fələstin siyasi səhnəsində İslam qruplaşmasının meydana gəlməsi yeni bir fenomen deyildi. 1920-ci ildə Misirdə yaranmış və I Dünya müharibəsindən sonra müstəmləkə işğalına qarşı mübarizə aparan Müsəlman qardaşları on illər ərzində Fələstin ərazisində fəal idi. Lakin Müsəlman Qardaşlarının işğal olunmuş ərazilərdə nüfuzu 1987-ci ilin dekabrından başlayaraq elə məhz öz icması daxilində azalmağa başladı. İntifada 1980-ci ildə Qəzada yaranmış, daha radikal qrup olan İslam cihadı təşkilatının da oyanışına səbəb oldu. Fələstin İslam cihadı təşkilatı Müsəlman Qardaşlarına alternativ olaraq yaranmışdır. İslam Cihadı həmçinin 1978-ci il İsrail-Misir razılaşmasından sonra Ənvər Sədatın qətli üçün məsuliyyəti öz üzərinə götürmüş Misir İslam Cihadından da ilham almışdır. Fələstin torpaqları daxilində İslam cihadı İsrail müdafiə qoşunlarının zastavasına qarşı bir sıra cəsarətli hücümlar

təşkil etmişdirlər. Bu təşkilatın üzvləri, əsasən, İsrail işğalı altında olan ərazilərdə yaşayan gənclər idi.

Müsəlman Qardaşları fraksiyasının lideri və fələstinlilərin qəhrəmanı Şeyx Yasin təşkilat liderlərinindən tələb etdi ki, bu təşkilatı İsrailə qarşı mübarizə aparan mühüm təşkilat elan etsinlər. Müsəlman qardaşlarının elit təbəqəsi isə İntifadaya qoşulmağa etirazlarını bildirdilər. Belə olduğu təqdirdə Yasin Müsəlman qardaşlarının yeni qolunu- Həması yaratdı və 1988-ci ildən başlayaraq, Fələstin siyasi səhnəsində bu təşkilat əsas oyunçuya çevrildi. Həmas fələstinlilərin ümid yeri oldu.

Həmas tez bir zamanda Müsəlman Qardaşlarının səlahiyyətlərini ələ aldı. İntifada davam etdiyi bir zamanda Fələstin siyasi səhnəsində Həmas və FAT olmaqla iki təşkilat dominantlıq edirdi. İki təşkilat arasında ideoloji münasibət gərgin idi, lakin hər iki tərəf birləşməkdə fayda görürdü.

Həmasdan gələ biləcək hər hansı bir təhlükədən yayınmaq üçün İordaniya kralı Hüseyn Faysal artıq fələstinliləri təmsil etmədiyini bildirdi və Qərb sahillərinin birləşdirilməsinə imtina etdi. Belə bir vəziyyətdə Yasir Ərəfat Fələstin Milli Şurasınında BMT-nin 242 və 338 saylı qətnamələrinin qəbul olunması üçün səsvermə keçirdi. Bununla da, onlar İsrailin qanuni bir dövlət kimi tanıdılar və “öz Fələstin ərazilərində paytaxtı Qüds olmaqla Fələstin dövlətinin yaranmasını” elan etdilər. Bir neçə gün ərzində iyirmi beş Ərəb və müsəlman dövləti Fələstini tanıdı. [ 167, s.238-240 ]

Baş vermiş İntifada Reyqan adminstrasiyasının dövlət katibi P.Şultzu tərəfləri razılığa gəlmək üçün tədbirlər görməyə vadar etdi. O, BMT-nin dəstəyi ilə İsrail və İordaniya-FAT birgə nümayəndələri arasında bir il ərzində işğal olunmuş ərazilərdə yekun razılığa gəlinməsinə və üç il ərzində isə müvəqqəti yaşayış məskənlərinin tamamlanmasına dair danışıqların başlaması təşəbüssünü irəli sürür. İsrailin baş naziri Yitshak Şamirin laqeyid yanaşması və İordaniya kralı Hüseyn Faysalın Qərb sahillərinə dair iddialardan əl çəkməsi ilə bu plan uğursuzluğa düçar oldu.

1989-cu ildə prezident seçilmiş Corc Buş və onun adminstrasiyası da sülh danışıqlarının bərpası təşəbbüsünü irəli sürdü. İsrail liderləri isə FAT üzvləri ilə deyil, Fələstin xalqını təmsil edəcək digər nümayəndələrlə dialoqa girmək istəklərini

bildirdilər. Buş adminstrasiyasının dövlət katibi Ceyms Beyker bunu sülh danışıqları üçün “önəmli və başlanğıc addım kimi” qiymətləndirdi və eyni zamanda İsrailin Qərb sahilində yaşayış məskənləri salmasını və buna əsas verən Likud partiyasının ideologiyasını tənqid etdi. Şamirin tikinti işlərini davam etdirməsinə dair qərarı iki ölkə arasında gərginliyə belə səbəb olmuş və Ceyms Beyker hətta qeyd etmişdir ki, ABŞ-ın İsrailə iqtisadi yardımı qəsəbələrin tikintisinin dondurulmasından asılıdır. [189, səh. 115-132]

Ceyms Beykerin sülh diplomatiyası 1990-cı ilin may ayından yeddi fələstilinin İsrail hərbi veteranları tərəfindən qətlə yetirilməsi ilə başa çatdı. Buna cavab olaraq, Fələstin Azadlıq Cəhbəsi tərəfindən İsrailə qarşı bir sıra terror aktları həyata keçirildi.

ABŞ-ın İsrail-Fələstin və ümumilikdə Ərəb-İsrail münaqişəsinin həlli istiqamətində edilmiş cəhdlərdən biri Madrid sülh konfransının təşkil olunması idi. Belə ki, 1991-ci ilin mart ayının 6-da ABŞ prezidenti Corc Buş Konqresdə çıxışı zamanı bəyan etdi: “Artıq İsrail-Fələstin münaqişəsinə son qoymağın vaxtıdır.” [280] Bu çıxışdan sonra dövlət katibi Ceyms Beykerin doqquz ay ərzində gərgin vəziyyətdə aparılan diplomatik danışıqları 1991-ci il Madrid sülh konfransı ilə nəticələndi. Madrid konfransı 30 oktyabr 1991-ci ildə təşkil olunmuş və üç gün davam etmişdir. Konfrans İspaniya hökuməti tərəfindən ABŞ və Sovet İttifaqının dəstəyi ilə təşkil edilmişdir. 1991-ci il Körfəz müharibəsindən sonra ABŞ prezidenti Corc Buş və Dövlət Katibi Ceyms Beyker Sovet İttifaqı ilə birgə vəzifələrin nədən ibarət olduğunu müəyyənləşdirmiş və İsrail, Suriya, Livan və Fələstinə 30 oktyabr 1991-ci il tarixi üçün nəzərdə tutulmuş dəvət məktubu təqdim etmişdir. [281]

Corc Buş və Sovet İttifaqının rəhbəri Mixayıl Qarbaçovun sədrlik etdiyi bu konfransda İsrail, Misir, Suriya və Liviyadan olan nümayəndələrlə yanaşı İordaniya-Fələstin birgə nümayəndə heyəti də təmsil olunurdu. İlk dəfə Ərəb-İsrail münaqişəsinin bütün tərəfləri birbaşa danışıqlar aparmaq üçün bir yerə toplaşmışdırlar. Bu tarixdə görünməmiş bir hadisə idi.

Müstəqil Fələstin nümayəndə heyətinin iştirakına İsrailin narazı olması səbəbindən Fələstin komandası ilkin mərhələdə formal olaraq, Fələstin –İordaniya birgə nümayəndə heyətinin tərkibində idi və onlar Qərb sahili və Qəzzadan olan

fələstinlilərdən təşkil edilmişdir. Ümumiyyətlə, heyətində FAT təmsil olunmasa da, nümayədələr Tunisdə yerləşən liderləri ilə daimi əlaqədə idilər. İsrailin etirazları səbəbindən FAT nümayəndə heyəti ilə əlaqə yaratmaq üçün qeyri-rəsmi olaraq, Faysal Hüseynin rəhbərliyi ilə Tunisə "məsləhətçi nümayəndə" göndərildi.

Madrid konfransı beynəlxalq ictimaiyyət tərəfindən İsrail və Fələstinin, eləcə də, Suriya, Livan və İordaniyanın cəlb olunduğu sülh danışıqlarına başlanılan erkən cəhd kimi qəbul olunurdu. Konfransın məqsədi iştirakçılar üçün açıq forum təşkil etmək idi. Konfransın həll yollarını qəbul etdirmək və ya razılıqlara veto qoymaq səlahiyyəti yox idi. Ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli danışıqların açılışı təşkil edildi. Suriya və Livan nümayəndə heyəti ümumi strategiyalar üzərində razılığa gəldi. [281]

Misir istisna olmaqla, İsrail və onun qonşuları arasında olan ilk ictimaiyyətə açıq ikitərəfli danışıqların əsas məqsədi üç ərəb dövləti və İsrail arasında sülh müqaviləsinin imzalanması idi. Fələstinlilərlə danışıqlar isə iki mərhələyə əsaslanırdı.

Danışıqlar 1991-ci il noyabr ayının 3-də Madriddə konfransın ardınca açıq elan edildi. Daha sonra isə 9 dekabr 1991-ci tarixindən 1994-cü il 24 yanvar tarixinə kimi Vaşinqtonda dəfələrlə formal xarakterli dəyirmi masalar təşkil olundu.

1992-ci ilin yanvar ayının 28-də Moskvada açıq elan edilən çoxtərəfli danışıqlar isə beş ayrı formaya bölündü. Başlıca məsələlər sırasına su ehtiyatları, ətraf mühit, silahlara nəzarət, qaçqınlar və iqtisadi inkişaf daxil idi. Bu danışıqlar 1993-cü ilin noyabr ayına kimi Avropa ölkələrinin və eləcə də Yaxın Şərq ölkələrinin paytaxtları da daxil olmaqla, dünyanın fərqli ölkələrində davam etdi. Qərb sahili və Qəzzadan olan fələstinlilərin iştirakı səbəbindən İsrail qaçqınlar və iqtisadi məsələlərlə bağlı danışıqlarda iştirak etməkdən imtina etdi. Suriya və Livan ikitərəfli danışıqlarda bir konkret irəliləyişə nail olunmadığı üçün danışıqlarda iştirakdan boyun qaçırdı. [298]

İsrail-İordaniya danışıqları isə tədricən 1994-cü ildə sülh müqaviləsinin imzalanmasına gətirib çıxartdı. Lakin İsrail-Suriya danışıqları isə fərqli səpkidə davam edərək, bəzi hesabatlara əsasən sülh sazişinin imzalanmasına yaxınlaşsa da, müqavilə imzalanmadı.

Konfransın uzun müddətli təsiri Corc Buş adminstrasiyasının gözlədiyindən daha da məhdud idi. Belə ki, İsrail, Suriya, İordaniya və Fələstin nümayəndə heyətləri ikitərəfli danışıqların aparılması üçün Vaşinqtonda görüşlər keçirməkdə davam edirdi, çoxtərəfli danışıqların aparılması isə 1992-ci ildə Moskvada başlandı. 1993-cü ildə Vaşinqton danışıqları dalana dirəndi və əvəzində isə gizli İsrail-Fələstin və İsrail-İordaniya arasında danışıqlar başlandı. Məhz bu danışıqlar İsrail və Fələstin arasında 1993-cü ilin sentyabr ayında baş tutmuş Prinsiplər Deklorasiyasının (Oslo razılığı) həyata keçməsi ilə nəticələndi. [185, s.290-292]

Öz növbəsində isə İntifada bir neçə il uzandı. İntifada Fələstin siyasi səhnəsində önəmi yer tutdu və Fələstin diasporası tərəfindən dəstəkləndi. İsrail fərqli yollarla üsyançılara qarşı mübarizə aparırdı. Məsələn, 1992-ci ildə İsrail səlahiyyətli nümayəndələri 418 Həmas və İslam Cihadı liderlərini sürgün etdi. Həm İsrail, həm də fələstinlilər münaqişədən yorulmuşdular. İctimaiyyətə İsrail və FAT rəsmiləri arasında gizli şəkildə Norveç elm adamlarının himayəsi ilə sülh prosesinin əsasını qoymaq üçün danışıqlara başlamasına dair məlumat sızdı. Bu proseslə meydana gələn Oslo razılığı 1987-ci il İntifadasının ən önəmli nəticəsi idi. [6, s.151-154 ] Həm İsrail, həm də Fələstin liderləri bir masa ətrafında oturub tarixin təfsilatlı incələnməsi ilə bir həll yoluna nail olacaqlarına inanırdılar. İsrailin beynəlxalq nüfuzu İntifada zamanı həyata keçirdiyi hərbi-əməliyyatlarla ağır zərbə almışdır. Öz növbəsində isə, bu danışıqlarda iştirak Yasir Ərəfata 1991-ci ildə Körfəz müharibəsində İraqı dəstəkləmək çağırışından sonra itmiş nüfuzunu yenidən qazanmaq üçün bir imkan idi.

Oslo razılığına əsasən FAT terror hərəkətlərindən əl çəkməli və İsraili tanımalı, İsrail isə Qəzza zolağından və Yeriço şəhərindən geri çəkilməli və daha sonrakı mərhələdə isə hər iki tərəf Qüds, sərhələr, qaçqınlar və qəsəbələrə aid məsələləri qarşılıqlı şəkildə danışıqlar vasitəsi ilə həll etməli idilər. Hər iki tərəf “sülh, qarşılıqlı anlayış və təhlükəsizlik şəraitində yaşamağa səy göstərməli, davamlı və tarixi barışığa nail olmalıdırlar”. [310]

Vaşinqtonun Oslo razılığındakı rolu başlanğıcdan məhdud idi. Hər halda, XX əsrin ən böyük siyasi məsələsini həll etmək üçün bu görüşün önəmi aydın olduqda, 1992-ci ildə ABŞ prezidenti seçilmiş Bill Klinton və onun adminstrasiyası bu

prosesdə mühüm rol oynamaq qərarına gəldi. Oslo prosesinə daxil olmaqla ABŞ "ziddiyyətli münsif rolu, İsrailin sadiq müttəfiqi, regionda sabitliyin və sülhüm təbliğatçısı" rolunda çıxış edirdi. Klinton Rabin və Ərəfatı Oslo razılığını imzalamaq üçün Vaşinqtona dəvət etdi. Yaser Ərəfat və Yitzak Rabinin Ag evin balkonunda əl sıxması Klintonun prezidentliyi dövründə çox önəmli hadisə idi. Yasir Ərəfat üçün Oslo razılığı beynəlxalq səhnəyə geri qayıtmaq idi. Ən önəmlisi isə, bu razılıq FAT-ın Şimali Afrikadakı sürgününün başa çatması demək idi. Təşkilat işğal olunmuş ərazilərə geri qayıdaraq, burada Fələstin adminstrasiyasını yaratdı. Bir çox siyasi partiyalar bu razılığın sülh gətirəcəyinə, hətta Rabbinin Ərəfatın əlini sıxmasından da əmin deyildilər. Məhz sülh əldə etmək addımına görə onların hər ikisi Nobel mükafatına layiq görülmüşdürlər. [6, s.151-154]

1994-cü ildə İsrail Müdafiə Qoşunları Qəzza və Yeriçodan çıxdı və Yasir Ərəfat Fələstin Muxtariyyətinin əsasının qoyulduğunu elan etdi. 1995-ci ildə isə İsrail və Fələstin Muxtariyyəti arasında İsrail-Fələstin Qərb sahili və Qəzzaya dair Müvəqqəti Razılıq imzalandı, bu həmçinin II Oslo razılığı adlanırdı. 1996-cı ildə Ərəfat Fələstin Muxtariyyətinin prezidenti seçildi. İsrail Leyboristlər Partiyası da Fələstin dövlətçiliyinə qarşı çıxmadığını elan etdi.

Lakin hər iki tərəfdə bu sülh danışıqlarını pozan ekstremistlər mövcud idi. 1994-cü ildə Barux Qlodştayn tərəfindən məsciddə açılan atəşlə və 29 fələstinlinin öldürülməsi ilə gərginlik zirvə nöqtəsinə çatdı. Barux özü isə orada ölüncəyə qədər döyüldü. Bir insanın yalnız həyata keçirdiyi silahlı basqın bu hər iki icmanı silkələdi. İsrail mediasında o, dəlisov milliyyətçi kimi qələmə verildi. Digər zidiyyətli məsələ İsrail hökümətinin Qolştaynın dəfn karvanının Qüdsdən keçməsini bildirdiyi zaman meydana çıxdı. ABŞ tərəfi bunu "Oslo prosesinin də öldürülməsi" kimi qiymətləndirdi. Sonrakı bir il ərzində Həmas və İslam Cihadı dörd İsrail avtobusunu partlatdı, nəticədə ətrafda olan onlarla fələstinli həlak oldu. Sülh prosesinə ən böyük zərbə isə 1995-ci ilin noyabr ayıdan Yitzdak Rabinin məhz İsrail milliyyətçiləsi tərəfindən sui-qəsd nəticəsində qətlə yetirilməsi və 65 İsrail vətəndaşlarının ölümü ilə nəticələnən 1996-cı il terror aktı idi. Bu radikallığın səbəbi 1992-ci ildə sürgün edilmiş 418 liderin geri qayıtması ilə əlaqəli idi. [211, s. 36-37]

1996-cı ildə baş nazir olmuş Binyamin Netanyahu da rəsmi şəkildə sülh danışıqlarını davam etdirdi, hətta Ərəfatın əlini də sıxdı, amma o, Rabinin sülhə doğru göstərdiyi səyləri nümayiş etdirə bilmədi.

1997-1998-ci illərdə Bill Klinton Oslo razılığının şərtlərini yerinə yetirməyə həvəsləndirmək üçün dövlət katibi Madlen Olbrayt və səfir Denis Rossu regiona ezam etdi. 1998-ci ilin oktyabrında tərəflər arasında Bill Klintonun vasitəçiliyi ilə memorandum imzalandı. Benyamin Netanyahu Qərb sahillərinin 13%-nin nəzarətinin Fələstinə verilməsinə razılaşdı, fələstinlilərinin Qəzza və Qərb sahilində təhlükəsiz keçidinə zəmanət verdi və İsrail həbsxanalarından müəyyən sayda fələstinlilərin azad olunaçağına dair söz verdi. Yasir Ərəfat isə İsrailə qarşı zoraklıq göstərən hər bir kəsin cəzalandırılacağına və Fələstin ekstremistlərinin hücumlarına qarşı ölçü götürüləcəyinə dair öhdəlik götürdü. Klinton bəyan etdi ki, sülh danışqıları "hələ də sağdır". [165, s. 760]

1999-cu ildə Ehud Barakın rəhbərliyi ilə Leyboristlər partiyası hakimiyyətə gəlir. Digərləri kimi o da münaqişəni həll etməyə çalışmışdı. İrəlidə gələn 2000-ci il Kemp Deyvid Sammitinin aqibəti əvvəlcədən də məlum idi. Bill Klinton hər iki tərəfi danışıqlar masasına əyləşdirdi və "hər şey və ya heç nə" prinsipi ilə hərəkət etməyə vadar etdi. Bu yanaşmanın mənfi cəhətləri var idi. Bill Klinton hər iki tərəfin prosesin uzaldılmasına etiraz edəcəkləri fərziyyəsində haqlı idi. Ərəfat Sammitin məzmununa ümumilikdə etiraz edirdi. Danışıqlar getdikcə Ərəfatın mövqeyinin təhlükəli olduğu ortaya çıxdı. "Hər şey və ya heç nə" yanaşması o demək idi ki, Ehud Barakın fələstinlilərə nəsə bir təklifi var idi. Təklifin mətni lentə alınmadı. Ehud Barak onun yazılmasını israr etdi. Hər halda, bu onun təklifinin əhəmiyyətindən irəli gəlirdi. Belə güman edilirdi ki, İsrail qoşunlarını Qərb sahillərinin 95 %-dən Qəzzanın isə 100%-dən geri çağıracaq, İsrail çəkildiyi ərazilərdə Fələstin dövləti yaranacaq, Fələstin qədim şəhərin çox hissəsi də daxil olmaqla Qərbi Qüdsə nəzarət edəcək, Məbəd təpəsidə "dini suverenliyi" ələ alacaqdı. [195, s.147-148] Bu təklif İsraildə böyük əks-sədaya səbəb oldu. Klinton da öz növbəsində Ərəfata bu razılığı qəbul etmək üçün təzyiq göstərirdi. Ərəfat bu təklifi rədd etdi və İsraildən 1967-ci il sərhədlərinə geri çəkilməyi tələb etdi. Belə olduğu təqdirdə, Klinton "Mən danışıqları

dayandırıram. Bu həqiqətən də çox qan qaraldıcı və xoşagəlməz bir haldır" ifadəsini işlətdi. [165, s.760] Ehud Barak da Ərəfatı qeyri-konstruktivlikdə günahlandırırdı. Əslində isə Oslo razılığı fələstinlilər üçün diplomatik iflic və iqtisadi yoxsulluq gətirdi. Sammit işğal olunmuş ərazilərdə daha da böyük narazılıqlara səbəb oldu.

Bill Klinton hakimiyyətinin son aylarında da sülh prosesinə töhvə vermək istədi. O, tərəflərə Kemp Devid planından daha da əsaslı plan təqdim etdiyini söylədi. Plana əsasən paytaxtı Qərbi Qüdsü olan Fələstin dövlətin əsası qoyulacaq, Qərb sahilinin 95%-i ilə Haram əl-Şərif üzərində hakimiyyətə sahib olacaq və İsrail çatışmayan torpaq payını tamamlamaq üçün digər torpaq sahələrini Fələstinə verəcək. Mərhələli şəkildə İsrail qüvvələri Qərb sahilindən geri çəkiləcək. Ehud Barak bu planı qəbul etdi, lakin Ərəfat bunun heç bir şəkildə qəbul edilə bilməyəcəyini bəyan etdi. Bill Klinton Yasir Ərəfatın qərarını "çox böyük səhv, atılan yalnış tarixi addım" kimi qiymətləndirdi. [165, s.761-765]

İsrail-Fələstin münaqişəsinin həllinə XX əsrin sonlarına kimi nail olunmadı. Bir çoxları bunu Ərəfatın sülh danışıqlarına qeyri-konstruktiv yanaşmasından, digərləri isə İsrailin 1967-ci il ərazisinin sahəsini altı dəfəyədək artırdığı Altı günlük müharibədən öncəki sərhədlərə geri qayıtmalı olması ilə əlaqələndirdi. Hər halda, sülh danışıqlarından olan bu uğursuzluq 2000-ci ildə II İntifadanın başlanmasına rəvac verdi.

2000-ci ilin sonunda Bill Klintonun başçılığı ilə aparılan sülh prosesinin uğursuzluğu İsrail və Fələstin arasında zorakılığın böyük miqyasda yenidən alovlamasına səbəb oldu. Fələstinlilərin Osloda başlayan sülh danışıqlarına dair ümidləri puç olmuşdur. İsrail mühafizəkarları isə Qolan təpəsini öz ərazisinin tərkibində və Qərb sahilini də əbədi olaraq işğal altında saxlamaq fikrində idilər. İsrailin Likud partiyasının lideri Ariel Şaron 2000-ci il sentyabrın 28-də böyük təhlükəsizlik qüvvəsinin müşayiəti ilə Qüdsdə yerləşən əl-Əqsa məscidinə səfər etdi. Bu cür müşayiətin səbəbi Ariel Şaronun 1980-ci illərdə Beyrutun mühasirəsinə görə onun fələstin xalqı ilə arasında olan gərgin münasibəti idi. Səfərin Fələstin təhlükəsizlik qüvvələri ilə razılışdırıldığı ehtimalı irəli sürülmüşdür. [195, s. 135]

Ariel Şaronun səfəri gərgin olan vəziyyəti daha da gərginləşdirmək üçün nəzərdə tutulmuş bir plan idi. Belə ki, kütlə qarşısında çıxış edərək o, söz verdi ki, əl-Əqsa məscidinin ətrafında olan ərazilərdən İsrail heç bir zaman imtina etməyəcək. Məhz bu bəyanatdan sonra iyirmi dörd saat ərzində Qərb sahili boyu toplaşan fələstinlilər qiyam etdi. ABŞ-ın o zamankı dövlət katibi Madlen Olbryat Şaronun bu hərəkətini "ətrafda duran uşaqların yanında yerləşən benzin çəninə atılan alışqan"a bənzətdi. O, həmçinin Yasir Ərəfatı da zorakılığın qarşısını almamaqda günahlandırdı. [202, s.494-495]

2000-ci qiyamı, yəni İntifadası 1987-ci il İntifadasından miqyasına, gərginliyinə və ölü sayına görə kəskin fərqlənirdi. Müqəddəs bayram günləri fələstinlilər tərəfindən törədilən terror aktları, Fələstin polis məntəqəsində qaçqınları yoxlayarkən iki İsrail rezervistinin qətli, uşaqların İsrail əsgərləri tərəfindən amansızcasına güllələbaran edilməsi, saysız İsrail hava hücümları və atəş səsləri yeni açıq müharibənin başlanmasından xəbər verirdi. 2000-2005-ci illər ərzində Fələstin tərəfdən 3500, İsrail tərəfdən isə 1000 nəfər insan həlak oldu. İsrail qiyamın beynəlxalq münaqişəyə çevrilməsi təhlükəsi ilə üzbəüz qaldı. Belə ki, 2003-cü il terror hücumuna cavab olaraq, İsrail tərəfi İslam Cihadının məntəqəsini bombardıman etmək istərkən bomba Dəməşqin şimal-qərbindən on dörd mil uzağa düşmüşdür. Bu son on ildə İsrailin Suriyaya etdiyi ilk hücum idi. [216, səh.99]

Yeni zorakılıq İsrail-Fələstin münasibətlərini tamamilə korladı. Ariel Şaronun başçılığı ilə Likud partiyasının hakimiyyətə gəlməsi vəziyyəti daha da gərginləşdirdi. Şaron birmənalı şəkildə işğal olunmuş ərazilər, Qüdsə və ya qaçqınlara dair hər hansı bir güzəştə getməkdən imtina etmiş və İsrailin sülhə nail olmaq hədəflərini terrorizmi sıxışdırma səviyyəsinə kimi endirmişdir. 2002-ci il sentyabr ayında iki İsrail vətəndaşının və bir Şotland tələbəsinin ölümü ilə nəticələnən terror aktından sonra İsrail tankları Ramallahda yerləşən Yasir Ərəfatın qərargahını mühasirəyə aldı. İki ildən çox zaman ərzində Yasir Ərəfat faktiki olaraq ev dustağı oldu. Aydın idi ki, tarixi əl sıxma anı çoxdan bitmişdir. [244]

İsraililərin fikrincə Ariel Şaron sülhü gətirəcək və İsrail vətəndaşlarını qorumaq üçün əlindən gələni əsirgəməyən bir insan idi. Məhz bu səbəbdən Ariel Şaronun

İntifadanı qıcıqlandırması və seçkilərdə qalib gəlməsi həm İsrail, həm də Fələstin əhalisi arasında rişxəndə səbəb olmuşdur. II İntifada Fələstin siyasətinin dünyəvi və dini təşkilatlar arasında islamlaşmasına səbəb oldu. İntifadanın başında duran Həmas ilə dünyəvi döyüşçülər arasında əlaqə artıq ənənəvi hala çevrilmişdi. Bununla da, parçalanmış Fələstin siyasi səhnəsində İsrailə qarşı mübarizədə birlik nümayiş etdirildi.

2001-ci ildə hakmiyyətə gələn ABŞ-ın 43-cü prezidenti Corc Uoker Buş adminstrasiyası da sülh danışıqlarını yenidən başlamaq və zorakılığa son qoymaq üçün ciddi səylər göstərmişdir. Bill Klinton tərəfindən təyin edilmiş və senator Corc Mintçelin sədirlik etdiyi kommisiya 2001-ci ilin may ayında münaqişənin həllinə dair üçpilləli sülh planını təklif etdi. Plana əsasən hər iki tərəf ilk öncə razılığa gəlmək üçün irəli sürülən öhdəlikləri qəbul etməli, zorakılığın qarşısı alınmalı və təhülksizlik səhəsində əməkdaşlıq qurmalı; ikinci mərhələdə yaşayış məskənlərinin inşasını dayandırmaq və mümkün terror aktlarından imtina etmək kimi jest göstərilməli; üçüncüsü isə, sülh danışıqlarını yenidən başlamalı idilər. Yasir Ərəfat və Ariel Şaron planı təsdiq etsələr də, zorakılıq hələ də davam edirdi və bu da planın uğursuzluğa düçar olması demək idi.

Prezident Corc Buş isə şəxsən bu münaqişəyə çox gec qoşuldu. Klintonun münaqişəyə aktiv müdaxiləsindən fərqli olaraq, hakimiyyətinin ilk illərindən Buş daha passiv mövqe tutmaq qərarına gəlmişdir. 2001-ci il 11 sentyabr hadisələrindən sonra Buş Ərəb-İsrail münasibətinə xüsusi diqqət ayırdı: “Bəşəriyyət naminə Yaxın Şərqdə vəziyyət dəyişməlidir. Mənim fikrimcə, iki dövlət yan-yana sülh şəraitində yaşamalıdırlar.” Bu sözləri o, 2002-ci il iyun ayının 24-də Ağ evdə etdiyi çıxışında bildirmişdir. Oğul Buş həmçinin terrorun kökünü kəsmək və sülh içində yaşamaq məqsədilə fələstinliləri yeni liderlər seçməyə və konstitusional demokratik rejim qəbul etməyə çağırdı. Daha sonra isə o, “Fələstin dövlətinin yaranması üçün konkret addımlar atmağın” vacibliyini vurğulayırdı. Burada həmçinin, Qərb sahillərindən qoşunların geri çəkilməsi, məskunlaşma prosesinin dayandırılması, fələstinlilər arasında iqtisadi inkişafa nail olunması və BMT-nin 242 və 338 saylı qətnamələrinə müvafiq olaraq 1967-ci il sərhədlərinə geri qayıtması tövsiyyə olunurdu. [303]

2002-ci ildə İsrail-Fələstin münaqişəsinin həlli istiqamətdində Səudi kral ailəsi öz Sülh Planını təqdim etdi. Plana əsasən İsrail dərhal və qeyri-şərtsiz olaraq, 1967-ci ildən əvvəl mövcud olmuş sərhədlərə geri qayıtmalı idi. Bu plan Təl-Əviv və Vaşinqtonda müsbət qarşılanmadı və beləliklə, uğursuzluğa düçar oldu. Lakin plan Vaşinqtonu yeni, daha aktiv təşəbbüslərlə çıxış etməyə məcbur etdi. [195, s.150]

Buşun yeni təşəbbüsü sülhə aparan üç mərhələləli "Yol xəritəsi" planı idi. ABŞ, Rusiya, Avropa İttifaqı və BMT-dən ibarət "kvartet" bu sülh planını tərtib etdi. İlkin mərhələdə (2003-cü il may ayı ərzində) "Yol xəritəsi" planı terrora və zorakılığa son qoyulmasını, Fələstin dövlət təsisatlarının yaradılmasını, İsrail vətəndaşlarının sıxışdırılmasının və həmçinin İsrail tərəfindən həyata keçirilən məskunlaşmanı dayandırmasını nəzərdə tuturdu. İkinci mərhələ isə (may-dekabr 2003) Kvartetin rəhbərliyi ilə 2003-cü ilin sonuna kimi müvəqqəti sərhədləri olan Fələstin dövlətinin yaradılmasını, demokratik hökumətin əsasını qoyan Fələstin konstitusiyasının qəbulunu, ən nəhayətdə isə qaçqınlar, su və inkişaf məsələlərinin müzakirəsini nəzərdə tutan konfrans təşkil olunmalı idi. Üçüncü mərhələdə isə (2004-cü ilin may ayına kimi) Kvartet İsrail-Fələstin arasında sərhədlər, Qüds, qaçqınlar və məskunlaşma kimi məsələlərə dair sülh danışıqlarının son statusunu müzakirə edəcək növbəti konfransın təşkil olunmasına cavabdeh olacaqdı. Bu konfransda həmçinin İsrail-Livan, İsrail-Suriya sülh müqavilələri də müzakirə olunacaqdı. [259]

İlk başda planın baş tutacağına dair ümidlər var idi. Belə ki, 2005-ci il seçkilərində qalib gəlmiş Fələstin muxtariyyətinin baş naziri Mahmud Abbas İsrail dövlətinin mövcudluğuna haqqı olmasını təsdiq etdi və İsrailə qarşı terror hücumlarını qarşısının alacağına dair boynuna öhdəlik götürdü. İsrail baş naziri Ariel Şaron isə Fələstin dövlətinin yaranması prinsiplərini qəbul etməyə və Qərb sahilində qanunsuz məskənləri ləğv edəcəyinə razılıq verdi. [216, s.103]

Lakin bütün bunlara baxmayaraq, Yol xəritəsi planının reallaşması bir sıra çətinliklərlə üzləşdi. İlk başda, həm İsrail, həm də Fələstin Qüds üzərində nəzarət və Fələstin qaçqınlarının hüquqlarına dair əsas məsələlərdə güzəştə getməkdə könülsüz idi. İsrail hökuməti Fələstin hökumətini Həmas və digər ekstrimist qrupların həmlələrinin qarşısını ala bilməməkdə günahlandırırdı. Fələstinlilər isə İsraili yaşayış

məskənələrini ləğv etməməkdə və üstəlik Qərb sahili məskənlərində güclü müdafiə qüvvələrini toplamasına görə ittiham edirdi . [285]

Qətillərin, ev basqınlarının, bir sözlə zorakılığın sayı artıqca, fələstin hərbçilərinin həyata keçirdiyi terror aktlarını dayandırmaq cəhdləri uğursuzluğa düçar olduqca və İntifadaya qarşı hərbi əməliyyatlar uzandıqca İsrail öz taktikasını dəyişməli oldu. İsrail işğal olunmuş ərazilərdə divardan sədd çəkmək qərarına gəldi. Vatikan və Avropa İttifaqı bu qərara görə İsraili ittiham etdi və hətta Vaşinqton da məsələ ilə əlaqədar İsrailə xəbərdarlıq etdi. [263]

İsraillilərin fikrincə ölkələrinin təhlükəsizliyi baxımından divarın olması vacib idi və yalnız təhlükəsiz vəziyyət əldə olunduqdan sonra bu divar aradan qaldırıla bilərdi. Bu birtərəfli addım Fələstin liderləri tərəfindən İsrailin münaqişənin həlli üçün aparılan danışıqlardan uzaqlaşmaq istəyi kimi qiymətləndirilirdi. İsraililərin fikrincə isə fələstinlilərlə aralarında sədd çəkmək onların milli təhlükəsizliyinin tələbi idi. Bu divar israillilər arasında terrorla mübarizə üçün atılan çox düzgün bir addım kimi qiymətləndirilirdi. Lakin daha sonralar da israillərə qarşı terror aktları həyata keçirildi. [195, s.152]

Təhlükəsizlik divarının ucaldılması Ərəb dünyasında çoxları tərəfindən İsrailin sülh prosesinə nə səviyyədə yanaşmasının isbatı olduğu fikrini ortaya çıxartdı. İsrailin ucaltdığı işğal olunmuş ərazilərdəki divar təqribən 1967-ci ildən əvvəlki, beynəlxalq ictimaiyyətin de-fakto tanıdığı “Yaşıl xətt” kimi qəbul edilən sərhdəllərlə hüdudlanırdı. Lakin bir çox yerlərdə divarın Qərb sahilində yəhudi məskənlərini İsrail tərəfə çəkilməsi ilə sərhəddə əhəmiyyətli dərəcədə əyilmə hiss edilirdi. İşğal olunmuş ərazilərdə olan məskənləri dərhal boşaltmaq fələstinlilərin başlıca şərti idi və bu vəziyyətin birbaşa sülh prosesində problem yaradacağına dair fikirlər irəli sürülmüşdür. Fələstin torpaqlarının təhlükəsizlik divarı hörülməklə açıq şəkildə qəsb edilməsi məsələni beynəlxalq səviyyəyə qaldırdı.

2004-cü ilin iyun ayının 9-da Beynəlxalq Ədalət Məhkəməsi İsrailin ayırdığı səddin qanuniliyi barədə məsləhət xarakterli fikrini bildirdi. İsrail gələcəkdə məhkəmədə bu məsələnin baxılmasına etiraz etdi və bildirdi ki, onun buna dair heç bir səlahiyyəti yoxdur. Məhkəməyə təqdim olunan sənədə etiraz edən İsrail bildirib

ki, çəkilmiş sədd qanuni deyil, siyasi xarakter daşıyırdı. Bu məsələ israillilər və fələstinlilər arasında qarşılıqlı həll olunmalıdır. Məhkəmə bir çox hallarda İsrailin iddiasını ləğv etdi. Məhkəmə bəyan etdi ki, İsrail öz vətəndaşlarını qorumalı olsa da, bu iş beynəlxalq hüququn tələblərinə uyğun həyata keçirilməlidir. Məhkəmə İsraili divarın ucaltmasını dayandırmasını, Yaşıl zolaqdakı torpaqlardan çəkilməsini və ziyan çəkmiş fələstinlilərə təzminat ödəməsini tövsiyyə etdi. İsrail bu tələbləri yerinə yetirmədi. [274]

2008-ci ildə hakimiyyətə gələn ABŞ-ın sayca 44-cü prezidenti Barak Obama ilk prezidentlik müddətinə seçildiyi zaman bir çoxları nəinki ABŞ-da, həmçinin bütün dünyada siyasi baxımdan dəyişikliklərin baş verəcəyinə və xüsusilə də İslam dünyasına sülh gələcəyinə inanırdı. Bu cür düşünməyə əsas verən bir sıra amillər var idi. Onlardan biri Barak Obamanın müsəlman olması ilə bağlı yayılan fərziyyələr idi. Digər amillər sırasında isə ABŞ qoşunlarının İraqdan çıxarılması, Usama Bin Ladenin öldürülməsi və Quantonamo həbsxanasının bağlanması daxil idi. Bu amillər də ABŞ-ın yürütdüyü siyasətdə uğurlu bir addım kimi qiymətləndirilirdi.

Xarici siyasətdə Barak Obamanın qarşısında duran ən mühüm və çətin vəzifə ABŞ-ın dünyada və dünya ictimaiyyəti qarşısında qazandığı mənfi obrazı dəyişmək üçün Yaxın Şərqə və müsəlman dünyasına yeni yanaşma tətbiq etməkdən ibarət idi. [15, səh. 3-4] Obama dəfələrlə qeyd etmişdir ki, Yaxın Şərqdə sülh ABŞ-ın strateji maraqları üçün mühüm əhəmiyyət malikdir. Lakin İsrail-Fələstin sülh prosesi zamanı onun ifadə etdiyi fikirləri ilə hərəkətləri arasında böyük fərqin olduğu ortaya çıxır.

Corc Buş və Barak Obama adminstrasiyasının Yaxın Şərqdə həyata keçirdiyi siyasət heç də bir-birindən kəskin şəkildə fərqlənmirdi. Müsəlman dünyasına müharibə elan edən və İsrailə qarşı xüsusi yaxınlığı ilə tanınan Buşdan fərqli olaraq, Obama Amerika və müsəlman dünyası arasında münasibətlərin istiqamətini düşmənçilik və silahlı qarşıdurmadan ümumi maraqlar və əməkdaşlığa doğru dəyişməyə cəhd göstərirdi. Lakin bu cəhd heç də Obamanın ABŞ-ın xarici siyasətində hər hansı bir dəyişiklik edəcəyi anlamına gəlmirdi. Əslində Obama diqqəti tədricən Asiya qitəsinə yönəltmək istəsə də, ABŞ Yaxın Şərqə laqeyidlik nümayiş etdirə bilməzdi. O, İsrail-Fələstin münaqişəsinin ABŞ və Yaxın Şərq

dövlətləri ilə münasibətlərdə mərkəzi mövqe tutduğunu qəbul edirdi. Prezidentliyinin ilk günlərində Barak Obama bəyan etdi ki, o, İsrail-Fələstin sülh danışıqlarında yaxından iştirak edəcək və Fələstin dövlətinin yaranmasına yardım göstərəcək. [174, s.116-117]

2008-ci ildə İsrailin basqını ilə Qəzza zolağında baş vermiş qırğın Barak Obamanı tez bir zamanda bu münaqişənin sülh yolu ilə həll olunmasına dair tədbirlər görməyə vadar edir. İsrailin baş naziri Benyamin Netanyahu və onun İsrail koalisiya hökumətindəki tərəfdaşları fələstinlilərlə hər hansı bir sülh razılığının qəbul olunmasına ehtiyac duymurdu. Bu biganəliyin əsas səbəbi Qərb sahilində yaşayış məskənlərinin işğalının davam etməsi və yeni evlərin tikilməsi idi. [312] Benyamin Netanyahu dünya ictimaiyyətinin İsrail tərəfinin işğal olunmuş ərazilərdə məskunlaşmasına qarşı göstərdiyi təzyiqlərə müqavimət göstərmiş və bu məsələ ilə əlaqəli prezident Obama ilə üç dəfə üz-üzə gəlmişdir.

Ümumiyyətlə, Barak Obamanın prezidentliyinin ilk dövründə onun Fələstin məsələsinə yanaşmasında üç əsas məqama önəm vermək lazımdır. Birincisi, ümumilikdə, Yaxın Şərq və xüsusilə Fələstinə dair ilkin planların qeyd olunduğu Qahirə nitqi; ikicisi prezidentin Fələstin sərhədlərinə dair qeydləri; sonuncusu isə, ABŞ-ın Fələstinin BMT-yə qəbulu təklifinə, UNESCO-nun və 2012-ci ildə isə BMT-nin tanımasına dair reaksiyası.

Barak Obamanın 2009-cu ildə Qahirə universitetində baş tutmuş Qahirə nitqi müsəlman dünyasında ABŞ tərəfindən yeni yanaşma kimi qəbul olunur və Fələstin məsələsi bu yanaşmanın tərkib hissəsi sayılırdı. Qahirə nitqində Obama İsrailin ABŞ üçün böyük əhəmiyyətə malik olmasını söyləyir, lakin münaqişənin sona çatmasını və nəticənin hər iki tərəfi qane etməsinin vacibliyini xüsusilə vurğulayırdı. Barak Obama qeyd edirdi ki, Həmasın mövcudluğunun fələstinlilər üçün çox əhəmiyyətli olduğunu bilir, lakin Fələstin xalqının onları zorakılıqdan çəkinməyə və İsraili tanımağa məcbur etmələri də bir o qədər önəmlidir. Eyni zamanda, o, təkid edirdi ki, İsrail Fələstinin bir dövlət kimi mövcud olma hüququnu tanımalıdır. ABŞ-ın İsrail məskənlərinə qarşı mövqeyinin qənətbəxş olmadığını da vurğulayırdı. [151, s. 679]

Qahirə nitqi və Barak Obama adminstrasiyası tərəfindən edilən qeydlər Fələstin muxtariyyəti daxilində müsbət gələcəyə az da olsa ümid yaratdı. Kənardan elə görünürdü ki, ABŞ İsrailə təzyiq göstərərək, Fələstin xalqının önündə deyil, arxasında dayanacaq. [275]

Lakin Barak Obamanın müraciətində elə də bir yenilik yox idi. Üstəlik, Barak Obamanın Netanyahu ilə olan mübahisəsinin məntiqi sonluqla nəticələnməməsi Ərəb dünyasında onun çox da böyük nüfuza malik olmamasına dair fikirlərin səslənməsinə səbəb oldu. [151, s. 684]

Obamanın münaqişənin həllinə dair təklifləri İsrail daxilində də narazılıqlara səbəb olmuşdur. Çünki ABŞ-ın xarici siyasəti və Yaxın Şərqə dair qərarları hər zaman İsrail dövlətinin təsiri ilə formalaşmış və bu da ABŞ-ın Fələstin məsələsinə dair yanaşmasına təsir etmişdir. İsrailin bu davamlı təsirini izah edən 3 səbəb vardır: ABŞ-da İsrailə dair müsbət ictimai fikir; İsrailin, xüsusilə Soyuq müharibə dövründə malik olduğu strateji əhəmiyyət; ABŞ-da fəaliyyət göstərən yəhudi lobbisi və yəhudi əsilli amerikalı seçicilər. [160, s. 285-286]

2009-cu ildə Barak Obama İsrailin yeni yaranmış hökumətinə sülh danışıqlarına başlaması, Qərb sahilində və Şərqi Qüdsdə qismən də olsa yaşayış məskənlərinin inşasını dondurmaqla bağlı təzyiq göstərdi. Benyamin Netanyahu isə bu inşanın gələcəkdə də davam edəcəyini bildirdi və bəyan etdi ki, fələstinlilər İsraili yəhudi dövləti kimi qəbul etməlidirlər. Barak Obama ilə Benyamin Netanyau arasında olan bu gərginlik iki ölkə arasında münasibətlərə də təsir etdi. İsrailin ABŞ-dakı səfiri Miçel Oren qeyd etmişdir ki, iki ölkə arasında münasibətlər 1975-ci ildən bəri ilk dəfə idi ki, zəifləmiş və aşağı səviyyəyə enmişdir. [250] Fələstin muxtariyyətinin prezidenti Mahmud Abbas isə İsrailin Fələstin torpaqlarını müsadirə etdiyi müddətdə heç bir danışıqların aparılmayacağına dair bəyanat verdi. [256]

Barak Obamanın münaqişənin həlli yolunda göstərdiyi növbəti dəstək Yaxın Şərq və Şimalı Afrikanın inkişafına dair ABŞ Dövlət Departamentinə verdiyi qeydlər idi və burada əsas məsələ İsrail-Fələstin münaqişəsinə yönəlmişdir. Bu qeydlə ABŞ prezidenti 1967-ci il müharibəsindən öncəki sərhədələrə əsaslanan həll yolunu dəstəklədiyini bəyan etmişdir.

Eyni zamanda, Barak Obama İsrail-ABŞ əlaqələrinin dərin köklərə malik olması və ABŞ-ın "İsrailin təhlükəsizliyinə dair öhdəliyinin sarsılmaz" olduğunu bildirirdi. O, həmçinin İsrailin özünü müdafiə etmək hüququnun olduğunu da vurğulayırdı. Buna baxmayaraq, Barak Obama qeyd edirdi ki, sülh planına nail olmaq hər iki tərəfdən asılıdır. Yaxın Şərqdə və Şimalı Afrikada baş verən hadisələrə ünvanladığı güman edilən Qahirə nitqində İsrail-Fələstin münaqişəsinə diqqət çəkməklə, Barak Obama bu münaqişəni həll etmək üçün öhdəlik götürdüyünü nümayiş etdirdi. Güman etmək olar ki, Obamanın bu məsələyə dair xüsusi nitq söyləməsinin əsas səbəbi İsraildə və ya işğal olunmuş ərazilərdə baş verə biləcək hər hansı bir üsyanın qarşısını almaq idi. İsrail bu çıxışa tez bir zamanda reaksiya göstərdi. Ölkənin baş naziri təkidlə qeyd etdi ki, əgər İsrail 1967-ci ildən əvvəlki sərhədlərə geri qayıtsa, bu dövlət üçün həyati təhlükə yarada və ölkə "müdafiəsiz" vəziyyətdə qala bilər. [261]

Sələflərindən fərqli olaraq, Barak Obama İsrail məskənlərinə dair fikirlər də səsləndirmiş və İsraili bu hərəkətinə görə ittiham etmişdir. Lakin nə o, nə BMT Təhlükəsizlik Şurasının 1976-cı ildə qəbul olunuş 446 saylı qətnaməsinə əsaslanaraq, onların qeyri-qanuniliyini vurğulamır, nə də ki, İsraili öz hərəkətlərindən daşınmağa məcbur edəcək addımlar atmırdı.

2010-cu il 26 sentyabr tarixində Barak Obama sülh danışıqlarını fəallaşdırmaq üçün Ağ evdə Fələstin muxtariyyətinin lideri Mahmud Abbas, İsrailin baş naziri Benyamin Netanyahu, İordaniya kralı II Abdulla və Misir prezidenti Hüsnü Mübarəkin iştirakı ilə sammit təşkil etdi. İordaniya və Misirin də sammitə cəlb etməsində Barak Obamanın əsas məqsədi bu ölkələrin öncəki illərdə sülh danışıqlarında birbaşa iştirak etmələri və xüsusilə Misirin Fələstin dövləti yarandığı təqdirdə İsrailin təhlükəsizliyinin təmin edəcəyinə əmin olmaq istəyi idi.

Qeyd etmək lazımdır ki, sammitdən öncə Barak Obama Benyamin Netanyahu ilə görüşmüş və sülh danışıqları zamanı əsas diqqəti sərhəd, qaçqınlar və Qüds məsələsinə daha çox yönəldərək, Qüdsün şərqində aparılan inşa işlərinin dayandırılmasına ümid etmişdir. Lakin Barak Obama, eyni zamanda Mahmud Abbası yaşayış məskənlərinin inşasını dayandırması tələbini kənara qoymağı təklif etmiş və razılaşmanın son statusuna dair böyük məsələlərə diqqəti yönəltməyə çalışmışdır.

Ağ evdə baş tutan sammit də uğursuzluğa düçar oldu. Netanyahu yeni yaşayış məsəkənlərin inşasını qismən də olsa dayandırmaq arzusunda olmadıqlarını bəyan etdi. Fələstin yaşayış məskənlərinin inşasının dayandırılmadığı və işğal olunmuş Şərqi Qüdslə bağlı ciddi müzakirələrə hazır olmadıqları təqdirdə İsraillə birbaşa danışıqlara başlamaq istəmədiyini bildirdi. Barak Obama Mahmud Abbasa sammitdə iştirak etməsi üçün təzyiq göstərmişdir. Hətta ABŞ-ın Ərəb müttəfiqi olan Səudiyyə Ərəbistanının kralı Abdulla əl Saud Abbasa Vaşinqtona səfər etməsə, Fələstinə bu dövlət tərəfindən verilən yardımın kəsilməsi ilə bağlı xəbərdalıq da etmişdir. [254]

Ağ evdə keçirilən sammitlə eyni ildə Misirinin Şarm-əl-Şeyx şəhərində baş tutmuş görüşdə yaşayış məskənlərinə dair məsələ Mahmud Abbas və Benyamin Netanyahu arasında gərginliyə səbəb oldu və hər hansı bir irəlliləyişin mümkünlüyünü istisna etdi. Belə olduğu halda, Barak Obama diplomatik cəhdlər edərək, hər iki tərəfi birbaşa danışıqları davam etdirməyə vadar etdi. Böyük Britaniya, Fransa və BMT İsraili məskənlərin inşasını dayandırmağa çağırdığı bir zamanda, Barak Obama xüsusi elçisi Con Mitçeli Netanyahu və Abbasa təsir etmək üçün regiona ezam etdi.

Netanyahu heç bir vəcdlə yaşayış məskənlərinin inşasının dayandırılmasına razılıq vermirdi. Bu vəziyyət Fələstin xalqını təngə gətirmişdi: Fələstinin sülh danışıq qrupunun üzvü Nabil Şaatın bir sitatını vurğulamaq yerinə düşər: “Biz artıq ABŞ-ın inşa olunan yaşayış məskənlərinin əlehinə olduqlarını bildiyimiz təqdirdə, onların inşasının dayandırılması üçün bir iş görməmələrini qəbul edə bilmərik. Biz ABŞ-dan yaşayış məskənlərinə qarşı qətiyyətli mövqe nümayiş etdirməsini istəyirik. Məni ABŞ-ın bunu etməyə qadir olmadığı çox təəcübləndirir.” [263]

Danışıqlar prosesini canlandırmaq üçün Barak Obama Benyamin Netanyahuya sadəcə doxsan gün ərzində yaşayış məskənlərinin inşasını dayandırmaq müqabilində əmlak və xidmətlər təklif edilən uzun bir siyahını təqdim etdi. Buraya 3 milyon dollar dəyərində metal başlıqlı F-35 döyüş reaktivləri də daxil idi. ABŞ, həmçinin Fələstin müstəqilliyinə dair hər hansı bir qətnaməyə qarşı veto hüququndan istifadə edəcəyinə söz verdi. Benyamin Netanyahu isə öz növbəsində Barak Obamanın bu təklifini də rədd etdi.

Artıq Fələstin tərəfi əmin oldu ki, bundan sonra ABŞ Fələstin dövlətinin yaradılmasına yardım etmək üçün üzərinə heç bir öhdəlik götürməyəcək. Lakin Barak Obama yenə də qeyd edirdi ki, İsrail-Fələstin arasında sərhədlər iki tərəfin razılığına əsasən 1967-ci ildən öncəki sərhədlər əsasında müəyyənləşdirilməlidir. Obama, həmçinin Fələstini BMT Baş Assambleyasında dövlətin tanınması ilə əlaqəli yürütdüyü strategiyasına görə ittiham etdi və hakim Fəth partiyası ilə Həmas arasında barışıq paktını tənqid etdi. O, həmçinin İsrailin gələcəkdə Fələstin dövlətinin yarandığı təqdirdə onun tərkisilah olunması tələbini dəstəkləyirdi. Lakin Netanyahu ABŞ-ın sərhədlərə dair söylədiklərinə kəskin etirazını bildirdi. Belə olduğu təqdirdə, Obama sözlərində düzəliş edərək bildirdi ki, İsrail və Fələstin 1967-ci ildə olduğundan fərqli olan sərhədlərlə bağlı qərarı ikitərəfli danışıqlar əsasında qəbul etməlidirlər. Bu, ABŞ-ın xarici siyasətində baş verən çox böyük dəyişiklik idi.

2011-ci ilin sentyabrında Mahmud Abbas Fələstinin BMT tərəfindən tanınması və tam hüquqlu üzvü olması üçün bu təşkilata üz tutdu. Fələstin muxtariyyətinin rəhbəri Mahmud Abbas Fələstinin bir dövlət kimi BMT tərəfindən tanınmasının vacibliyi qərarına gəldikdə, bu hərəkətə qarşı olan və Mahmud Abbası bu tanınma fikrindən daşınmağa çalışdıran ilk insanlardan biri də Barak Obama idi. Belə ki, o, BMT Təhlükəsizlik Şurasında Fələstin məsələsini qaldırmaqla açıq şəkildə bunu bəyan etdi. Fələstin məsələsinə qarşı öz əks mövqeyini izah edərkən, o, qeyd edirdi ki, sülhə ancaq iki ölkə arasında davam edən danışıqlar nəticəsində nail olmaq olar. Bundan əlavə, BMT-nin UNESCO təşkilatı Fələstini rəsmi şəkildə tanıdığı halda, ABŞ qanunverici orqanı olan Konqres bəyan etdi ki, onlar Fələstinə göstərdikləri illik 80 milyon dollar maddi yardımı dayandıracaqlar. [277]

Mahmud Abbas bir il sonra Fələstinin müstəqilliyi üçün yeni bir cəhd etdi, bu dəfə o, BMT Baş Assambleyasına ölkəsinin qeyri-üzv müşahidəçisi olması iddiasını irəli sürdü. Əvvəlki illə müqayisədə bu il tanınmaya nail olmaq üçün daha çox üzvün səs verməsi önəmli idi. 2012-ci ilin noyabrında 138 səs leyhinə, ABŞ da daxil olmaqla 9 səs əleyhinə və 41 ölkə isə bitərəf qalmaqla, Fələstin Muxtariyyəti BMT-də qeyri-üzv müşahidəçi statusunu qazandı. [317] Fələstinin BMT-nin ixtisaslaşmış qurumlarına (agentliklərinə) və Beynəlxalq Cinayət Məhkəməsinə də üzv olmasından

başqa, bu, həmçinin dövlətçiliyin qurulması istiqamətində atılan ciddi bir addım idi. ABŞ hələ də, BMT üçün ən önəmli donor ölkə olmaqda davam edir və BMT-nin ixtisaslaşmış qurumu olan UNESCO kimi BMT-nin özünü də istədiyi zaman donor dövlət olma haqqından məhrum edə bilərdi. [317] ABŞ öz müttəfiqlərini də bu qərara qarşı səsverməyə inandırmağa çalışırdı, lakin Fransa və İtaliya Fəlsətinin leyhinə səs verdi, Böyük Britaniya isə bitərəf qaldı. [156] ABŞ-ın gətirdiyi dəlil əvvəlkilərdən heç də fərqlənmirdi, Fələstin dövləti yaranmamışdan öncə İsrail və Fələstin danışıqları yeniləməli və həll yolu onların ikisinin arasında baş tutmalı idi. Fələstinin iddiası ABŞ hökümətinin regional münaqişələrə çox da baş qoşmaq istəmədiyini söylədiyi zamanı meydana çıxdı. Buna yuxarıda da qeyd edildiyi kimi seçki öncəsi məsələlər və yəhudi əsilli seçicilərin iştirakı da təsir edirdi.

Baş Assambleyada Mahmud Abbas alqışlarla, ölkəsində isə həm tərəfdarları, həm də onu tənqid edənlər tərəfindən qəhrəman kimi qarşılandı. Ramallahdakı çıxışında o, qeyd edirdi: "Biz qanunun aliliyi nəzərə alınmadığı təqdirdə və yaşayış məskənlərinin inşasının tamamilə dayandırılmadığı təqdirdə danışıqları qəbul edə bilmərik". [157]

Ağ ev Fələstinin bu addımına qarşı iki diplomatı - Denis Ros və Deyvid Heylini Qüds və Ramallaha göndərdi. Diplomatlar çalışırdılar ki, Fələstin lideləri Barak Obamanın 2011-ci il may ayında etdiyi təklif əsasında Fələstin dövlətinin yaranmasına dair razılığa gəlsinlər. Plan iki dövlət arasında qarışıqlı razlıq əsasında torpaq dəyişdirilməsi şəklində 1967-ci ildən əvvəlki sərhədlərə əsaslanan danışıqların aparılmasını tələb edirdi. Lakin Fələstin rəsmiləri ABŞ-ın bu təklifini rədd etdi. [301]

Kvartet kimi tanınan ABŞ, Avropa İttifaqı, Rusiya və BMT 2011-ci ilin sentyabrından münaqişəyə dair müzakirələrin davamı məqsədilə Nyo-Yorkda görüşdü. Kvartet İsrail və fələstinlilərdən gündəlikdə duran məsələlər barədə razılığa gəlməyi, bir ay ərzində birbaşa danışıqları yeniləməyi, üç ay ərzində, yəni 2012-ci ilin sonuna kimi ərazi və təhlükəsizliyə dair müfəssəl təkliflər verməyi tələb etdi. Hər iki tərəf altı ay ərzində danışıqlarda əsaslı irələyişə nail olmalı və 2012-ci ilin sonuna kimi yekun razılığa gəlməli idirlər. [285]

Kvartetin planı heç də konkret və hər iki düşərgəni bir araya gətirəcək dərəcədə əsaslı deyildi. Kvartetin bəyanatından dərhal sonra İsrail tərəfi 1100 yeni yaşayış məskənləri inşa etməyə başladı. Lakin hələ 2009-cu il Qahirədə çıxışı zamanı Barak Obama bəyan etmişdir: “ABŞ İsrailin inşasını davam etdirdiyi yaşayış məskənlərinin qanuniliyini qəbul etmir. Bu inşa prosesi öncəki razılıqları pozur və sülhə nail olma cəhdlərini sarsıdır.” [209]

2010-cu ilin sentyabr ayında Barak Obama Fələstinin BMT-yə üzvlüyünə qapı açdığı halda, bir il sonra Fələstinin eyni tələblə BMT qarşısına çıxmasına etiraz etdi və veto hüququndan istifadə edəcəyini açıq şəkildə bəyan etdi. BMT-də Barak Obama bildirdi ki, fələstinlilər dövlət yaratmazdan öncə İsraillə sülh əldə etməlidirlər. Onun fikrincə, həm İsrail, həm də fələstinlilərin münaqişədə haqlı olduqları məqamlar vardır.

Bu illər Benyamin Netanyahu ilə Barak Obama arasında münasibətlər bir qədər gərgin olsa da, o, ABŞ prezidentinin bu nitqini ürəkdən dəstəklədiyini bəyan etdi. Fələstin düşərgəsində isə buna qarşı münasibət birmənalı olmadı. Belə ki, Fələstin siyasətçisi Hanan Aşravi təəssüfünü bu cür bildirdi: “Obamanı dinləyərkən, insana elə gəlir ki, İsrail Fələstini deyil, Fələstin İsraili işğal edib.” [166]

Regionun bir sıra siyasi şərhçiləri Barak Obamanın Fələstin dövlətinin yaranmasına qarşı BMT-də veto qoymasını “bütün ərəblərə qarşı açıq müharibə” kimi qiymətləndirdi. Həmas isə Mahmud Abbasın BMT-yə müraciətinin hər hansı bir nəticə verəcəyinə inanmırdı və onlar qeyd edirdilər ki, Abbas bütövlükdə Fələstin xalqını təmsil etmək iqtidarından deyil, ümumxalq razılığı olmadan heç bir sülh müqaviləsi imzalana bilinməzdi.

ABŞ, Avropa İttifaqı və ABŞ-ın Ərəb müttəfiqlərinin Həması zəiflətmək və siyasi səhnədən kənarlaşdırmaq cəhdi uğurla nəticələnmədi, əksinə bu İslam qruplaşması Qəzzada öz mövqeyini möhkəmləndirdi. 2006-cı ilin yanvarında Həmas Fələstində keçirilən parlament seçkilərində yerlərin böyük hissəsini qazanmasına və Fəth üzərində qələbə çalmasına baxmayaraq, 2011-ci ilin may ayında barışıq paktı imzalansa da, iki tərəf arasında gərginlik qalmaqda idi.

2011-ci ilin sentyabr ayından Barak Obama BMT-yə müraciət edərək bildirdi ki, Fələstin rəsmiləri yaşayış məskənlərinin inşasını dondurması tələbini kənara qoyaraq, Benyamin Netanyahu ilə danışıqlar masasına geri dönməlidir. Obama prezidenti israillilər və fələstinlilərə qarşı elə münasibət göstərirdi ki, sanki onlar danışıqlarda bərabər gücə malik idilər. Barak Obamanın 2009-cu il Qahirə çıxışından nümayiş etdirdiyi mövqe, 2011-ci il BMT-də etdiyi çıxışda nümayiş etdirdiyi mövqedən tamamilə fərqlənirdi. Prezidentliyinin ilk illərində İsrailin yaşayış məskənlərinin inşasının qanunsuz olduğunu iddia edən Barak Obama BMT-də çıxışında bu inşanın qanunsuz olmasına dair heç bir söz söyləməmişdi. Barak Obama bu hərəkəti ilə ABŞ-ın sadəcə Fələstin dövlətçiliyinin əleyhinə olduğunu deyil, həmçinin İsraili açıq şəkildə dəstəklədiyini sübut edirdi.

Ərəb-İsrail münaqişəsi ABŞ-ın yerli siyasətinə hər zaman təsir göstərmişdi. ABŞ-ın 37-ci prezidenti Riçard Niksondan tutmuş 44-cü prezidenti Barak Obamaya kimi ABŞ prezidentləri istər Ərəb-İsrail, istərsə də, birbaşa İsrail-Fələstin sülh danışıqlarında atacaqları hər bir addımın nəticələrindən xəbərdar idilər, prezident və siyasətçilər İsraili tənqid etməmişdən öncə bir deyil, iki dəfə düşünürdülər, çünki atılan istənilən yalnış bir addım onlara həm maddi, həm də seçici səsi baxımından baha başa gələ bilərdi.

Konqres üzvləri də İsraili "qəzəbləndirməyin" təhülükəli olduğunu dərk edirdilər. 2010-cu ilin mart ayında Barak Obama ilə Benyamin Netanyahunun Ağ evdə gərgin keçən görüşündən sonra, Demokrat və Respublikaçılardan ibarət Konqres liderləri Netanyahunu böyük təmtəraqla qarşıladılar: "Biz, Konqresdə İsraili dəstəkləyirik. Konqresdə biz İsrailə dair məsələlərdə bir ağızdan çıxış edirik" deyə onlar qeyd etmişdirlər. [166]

Ərəb dövlətləri isə hesab edirdilər ki, 2002-ci ildə təklif olunmuş sülh formulası əsasında danışıqları davam etdirmək daha düzgündür. Bu formulaya əsasən İsrail 1967-ci ildə Şərqi Qüds də daxil olmaqla, işğal etdiyi ərazilərdən çəkilməli və qarşılığında Ərəb dövlətləri İsrailin müstəqilliyini tanımalı idi. Bu, İsrail dövlətinin yarandığı dövrdən Ərəb dövlətlərinin onu tanıması üçün qəbul olunmuş ilk razılıq idi. Ərəb dövlətləri üçün regionda sülhə nail olmaq çox önəmli idi, çünki regionda sülh

İran dövlətinin Ərəb səhnəsinə müdaxiləsinin qarşısını alacaq, İranın Həmas və Livandan Hizbullah kimi radikal müttəfiqlərini zəiflədəcəkdi. [283]

İsrail, ABŞ və bir sıra Avropa ölkələri üçün Həmas sülhə heç bir cəhd göstərməyən və Əl-Qaidə kimi İsrail dövlətini məhv etməyə yönəlmiş bir təşkilat idi. Məhz bu səbəbdən bu təşkilat İsraili bir dövlət kimi qəbul etməyənədək və zorakılıqdan çəkinməyənədək diplomatik danışıqlardan kənarlaşdırılmalı idi. Həmas liderləri dəfələrlə qeyd edirdilər ki, münaqişənin həlli üçün İsrailin 1967-ci ildən əvvəlki sərhədlərə geri qayıtması vacibdir və sülh danışıqlarının nəticəsi yalnız Fələstində keçiriləcək referendum zamanı Fələstin xalqının istəyi ilə qəbul oluna bilər.

2012-ci ildə artıq aydın idi ki, Barak Obamanın 2011-ci il BMT Baş Assambleyasında çıxışı sülh prosesində uğursuzluğun etirafı, ədalətli diplomatiyadan geri çəkilməsi və İsrailin qələbəsi demək idi. Barak Obama Fələstin torpaqlarını işğal etmiş İsraili baş vermiş hadisələrin qurbanı kimi təqdim edir. ABŞ üçün İsrailin təhlükəsizliyi Fələstinin təhlükəsizliyindən və hətta öz müqəddaratını təyin etməsindən daha çox önəmli idi. “Amerikanın əsas borcu İsrailin təhlükəsizliyini qorumaqdır. Bizim İsraillə dostluğumuz çox dərin və sarsılmazdır ” deyə Obama bildirmişdir. [174, s.136-138]

Obama və Netanyahu arasında olan münasibətlər bu günə kimi hakimiyyətdə olmuş ABŞ prezidenti və İsrail baş naziri arasında olan münasibətlərin ən gərgini idi, lakin bu zərrə qədər də iki ölkənin müttəfiqliyinə xələl gətirmədi. ABŞ-dan İsraillə yardım və dəstək axını davam edirdi. İki liderin razılaşmadığı məsələ sülh prosesi, nüvə danışıqları, İranla razılığa dair siyasət idi, lakin mütəffiqlik olduğu kimi qalırdı. Obamanın hakimiyyətinin son ilində iki ölkə hökumətləri İsrailə yeni on milyard ABŞ dolları həcmində hərbi yardım haqqında danışıqlar aparmışdırlar. [316]

Digər sələfləri kimi, Obama da xarici siyasətdə yerli siyasətçilərin əsirinə çevrilmişdir. O, İsrailə qarşı kifayət qədər tutarlı təzyiqlər göstərə və özünün inandığı fikirləri çıxış və bəyanatlarına tətbiq edə bilməmişdir. Prezidentliyinin ilk vaxtlarından verdiyi vədlərə baxmayaraq, dövlət strukturları Barak Obamanı vədinə xələf çıxmağa məcbur etdi. Dövlət strukturlarının prezidentə bu təzyiqi İsrail-Fələstin

münaqişəsində ABŞ xarici siyasətinin düçar olduğu uğursuzluğun səbəbini izah edir. Lakin Barak Obamanı digər ABŞ prezidentlərində məhz İsrail-Fələstin münaqişəsinə yanaşmasında fərqləndirən cəhət onun Çiqako universitetində işlədiyi zaman həmin universitetdə işləyən fələstinli həmkarları ilə İsrail-Fələstin münaqişəsinə dair araşdırma aparması idi. [174, s.135]

Fəslin tədqiqindən də aydın olduğu kimi ABŞ-İsrail müttəfiqliyinin yarandığı andan etibarən bu dövlət İsrail-Fələstin münaqişəsində mərkəz mövqe tutmuşdur. Soyuq müharibənin məhsulu olan bu müttəfiqlik müasir dövrdə belə iki dövlət arasında mövcud ən dayanıqlı əlaqələr kimi tarixə düşmüşdür. Lakin ABŞ bu münaqişəyə cəlb olunmaqla heç bir irəliləyişə nail olmadı, çünki sadiq müttəfiq və regionun sülh carçısı olmağın mümkünsüzlü son onilliklərdə öz təsdiqini tapdı. Üstəlik 11 sentyabr 2001-ci il hadisələrindən sonra ABŞ-ın regionda başlatdığı "terrora qarşı müharibə" vəziyyəti bir qədər də qəlizləşdirdi. Transmilli terrorizmlə mübarizə aparan ABŞ üçün Fələstin məsələsində daha böyük problemlə üzləşdirdi. Belə ki, Ərəb dünyası üçün fələstində vuruşanlar terrorist yox, işğalçılara qarşı və azadlıq uğrunda mübarizə aparanlar idi. Təəcüblü deyil ki, ABŞ üçün İsrailin Fələstinlə mübarizəsi terrora qarşı mübaribə və öz milli təhlükəsizliyinin müdafiəsi demək idi.

İsrail-Fələstin münaqişəsi başlayandan ABŞ-da hakimiyyətdə Demokratlar və ya Respublikaçılar partiyasının nümayəndələri olmasından asılı olmayaraq, bu münaqişənin həlli istiqamətində ABŞ heç də hər zaman obyektiv mövqedən çıxış etməmiş və bir daha öz mənafeni üstün tutaraq, ikili standartlar nümayiş etdirmişdir. Məhz ABŞ-ın Yaxın Şərq siyasətinin əsaslarından birini təşkil edən İsrailinin təhlükəsizliyinin təmini amilini nəzərə alsaq, bu münaqişənin həllinin də məhz İsrail dövlətinin xeyrinə aparılması insanda heç bir təəccüb oyatmır.

Həqiqət dəyişmir: bu münaqişənin həlli həm İsrail, həm Fələstin, həm də Yaxın Şərq üçün həyati əhəmiyyət daşıyır. Lakin Vaşinqtonun İsraili davamlı olaraq dəstəkləməsi sülhə ən başlıca əngəldir və birbaşa olaraq regionda öz mövqeyinə xələl gətirməsi ilə nəticələnir.

# III FƏSİL
# ABŞ-IN ANTİ-TERROR SİYASƏTİ: YAXIN ŞƏRQ REGİONU

## 3.1. 11 sentyabr 2001-ci ilə qədər ABŞ-ın anti-terror siyasətində Yaxın Şərq regionu

Fərqli təzahür formalarına malik olan terrorizm sözünün mənşəyi latın dilindən olan "terror" qorxu, dəhşət sözündən götürülmüşdür. Terrorizm dini, siyasi və ya ideoloji məqsədlərə nail olmaq üçün bir qrup insan və ya fərd tərəfindən günahsız, sülhsevər insanlara qarşı yönəlmiş zorakılıq aktıdır. Hazırda bu termin özündə qeyri-qanuni zorakılıq və müharibə sözlərini ehtiva edir.

XX əsrdə terrorizmin tətbiqi mexanizmlərində və onun reallaşdırılmasında böyük dəyişikliklər olmuşdur. Belə ki, terrorizm siyasi səhnədə ifrat sağçılardan ifrat solçulara kimi bir sıra siyasi hərəkatlar üçün xarakterik xüsusiyyətə çevrildi. Texnoloji nailiyyətlər terroristlərə fəallıq və insan ölümü ilə nəticələnən fərqli hadisələri həyata keçirtməyə imkan vermişdir. Terrorizm totalitar rejimlə idarə olunan Nasist Almaniyasında Adolf Hitlerin, Sovet İttifaqında İosif Stalinin timsalında həyata keçirilən faktiki dövlət siyasəti kimi qəbul olunmuşdu. [305] Bu ölkələrdə qorxu abu-havasını yaratmaq üçün heç bir hüquqi əsas olmadan təqiblər, həbslər, işgəncələr və edamlar həyata keçirilmiş, bununla da, insanlar milli ideologiyaya sədaqətli olmağa məcbur edilmiş və bu ideologiya rəhbərlər tərəfindən ölkənin iqtisadi, sosial və siyasi məqsədlərinə nail olmaq üçün başlıca vasitə elan edilmişdir.

Ümumi şəkildə terrorizm fərd və ya bir qrup insan tərəfindən mövcud siyasi institutlar daxilində sabitliyi pozmaq və ya onları devirmək üçün həyata keçirilən fəaliyyət kimi təsnif olunur. Terrorizmdən müstəmləkə əleyhinə (İrlandiya və Böyük Britaniya, Əlcəzair və Fransa, Veytnam və Fransa, ABŞ), mübahisəli torpaqlara yiyələnmək üçün iki müxtəlif xalq arasında (Fələstin və İsrail), fərqli dini məzhəblər (Şimali İrlandiyada Katolik və Protestanlar, Yaxın Şərqdə sünni və şiələr), ölkə

daxilində inqilab qüvvələri ilə mövcud olan hökumətlər (İran, İndoneziya, Argentina və s.) arasında münaqişələr zamanı istifadə olunmuşdur.

Terrorizmin bir məfhum kimi ictimaiyyətə tanınması və onun insanlara bilavasitə təsiri müasir dövrdə KİV-in inkişafı ilə mümkün olmuşdur. Baş verən istənilən bir zorakılıq aktı tez bir zamanda televiziya ekranlarının baş xəbər monşetinə çıxarılmış, terroristlərin tələb, narazılıq və siyasi məqsədləri milyonlarla insanın diqqətinə çatdırılmışdır. Müasir terrorizmin xarakterik xüsusiyyəti onun qurbanlarının çox zaman təsadüfən seçilmiş və terror hadisəsinin bir parçasına çevrilmiş günahsiz insanlar olmasıdır.

Terrorizmə qarşı mübarizə ABŞ-ın Yaxın Şərq siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. ABŞ Dövlət Departamenti terrorizmə qarşı mübarizəyə haqq qazandırmaq üçün onun tərifini bu cür vermişdir: “Terrorizm-dövlətlə heç bir əlaqəsi olmayan qruplar və ya gizli dövlət kəşfiyyatçıları tərəfindən mülki hədəflərə qarşı yönəlmiş, qabaqcadan planlaşdırılmış və siyasi cəhətdən motivləşdirilmiş zorakılıq aktıdır.” [295]

ABŞ-ın beynəlxalq terrora qarşı mübarizə cəhdi 1967-ci il Altı günlük müharibədən sonra fəallaşan 1950-ci illərin sonunda Küveyt və Körfəz ölkələrində yaşayan Yasir Ərəfatın başçılığı ilə fələstinlilər tərəfindən əsası qoyulan, əsas məqsədləri Fələstinin azadlığı və Pan-Arab dünyasından ayrılaraq, milli-müqəddəratını təyin etmək olan Fəth partizan hərəkatının radikallaşması ilə başladı. 1970-ci ilin sentyabr ayında fələstinlilərin eyni zamanda 4 təyyarəni qaçırmaq istəklərinə cavab olaraq, o zaman hakimiyyətdə olmuş ABŞ-ın 37-ci prezidenti Riçard Nikson adminstrasiyası ilk ABŞ Federal anti-terror tədbirini həyata keçirtdi. Belə ki, bir sıra beynəlxalq uçuşlarda hava qüvvələri marşallarının iştirakı təmin edildi və beynəlxalq hava limanlarında metal aşkar edən detektorlar quraşdırıldı.

Riçard Niksondan sonra hakimiyyətdə olmuş ABŞ-ın 38-ci prezidenti Gerald Rudolf Ford isə nüvə terrorizminə qarşı mübarizəni əsas tutdu. Belə ki, 1970-ci illərə kimi plutonium və zənginləşmiş uran ilk dəfə olaraq, silahlı qoruma və təhlükəsizlik tədbirləri tələb edirdi. Nüvənin təyini, aşkar olunması və ondan qorunması üçün 200

nəfər mütəxəssisdən ibarət Atom Enerji Komissiyasının əsası qoyuldu. Qeyd edilən bu tədbirlər heç də genişmiqyaslı və qlobal deyildi. [216, s. 25]

1981-ci ildə hakimiyyətə gəlmiş ABŞ-ın 40-cı prezidenti Ronald Reyqanın dövründə ABŞ-ın antiterror strategiyası qəbul edildi. 1971-ci ildə FAT-ın Qanlı sentyabr qrupu ABŞ səfirini, 1973-cü ildə Sudanda səfirlik rəsmisini və 1976-cı il Livanda isə digər bir diplomatı qətlə yetirilməsi faktına baxmayaraq, 1970-ci illərdə Mərkəzi Kəşfiyyat İdarəsi bu hadisələrə cavab olaraq, Yaxın Şərqdə hansısa bir gizlin və effektiv əməliyyat həyata keçirməmişdir. ABŞ siyasətçiləri narazı fələstinliləri razı salmaq üçün diplomatik vasitələrə əl atmağa başladı. MKİ Riçard Nikson və Gerald Ford adminstrasiyası zamanı Yasir Ərəfatla danışıqlara başladı. Hətta terrorçuları razı salmaq üçün ABŞ İsraildən həbsdə olan FAT silahlılarını azad etməyi xahiş etdi. [224,s.65-70]

Lakin vəziyyət Ronald Reyqan hakimiyyətinin ikinci dönəmində dəyişdi. Belə ki, o zaman prezident adminstrasiyasının sözçüsü və terrorizmə qarşı mübarizə sahəsində mütəxəssis Riçard Alan Klark və digər mütəxəssislər 11 sentyabr hadisələrindən öncə də əl-Qaidəyə qarşı mübarizə aparmışdı.

1975-ci il dekabrın 27-də Abu Nidal (ANO) terror təşkilatının münayəndəsi Vyana və Roma hava limanlarında bilet satışı kassasına atəş açmış, nəticədə aralarında 11 yaşlı ABŞ vətəndaşı Nataşa Simson olmaqla, 16 insan həlak olmuş, 110-sı isə yaralanmışdır. 1985-ci ildə isə həmin təşkilat Misirə aid təyyarəni qaçırtmışdır. Misir desantları nəzarəti ələ almaq istədikləri zaman, biri amerikalı olmaqla 59 sərnişin dünyasını dəyişmişdi. [235, s.26]

Ronal Reyqan adminstrasiyası antiterror strategiyası qəbul etsə belə, terrora qarşı mübarizəyə elə də fəal yanaşmırdı. Lakin 1983-cü ildə Livanın paytaxtı Beyrutda vətəndaş müharibəsi zamanı, daha sonra Hizbullah kimi tanınan İslam Cihadı terror təşkilatı tərəfindən ABŞ hərbi qüvvələrinin yerləşdiyi binaya bomba atılması nəticəsində 241 ABŞ və 58 fransız sülhməramlılar, 6 mülki vətəndaş və 2 terrorçu həlak olmuşdur. Bu hadisədən sonra da Ronal Reyqan adminstrasiyası belə desək, susdu. [254]

Həmin dövrdə Ronald Reyqan adminstrasiyasının ABŞ vətəndaşlarının da qurban olduğu terror hadisələrinə qarşı mübarizəsinin zəif olmasının bir sıra səbəbləri var idi. Bunlardan biri ölkədə hərbçi veteranların zorakılığa qarşı olmaları və atılacaq hər hansısa bir addımın İsrail dövlətinin törətdiyi qanlı hadisələrlə bir tutulacağından ehtiyat etmələri idi. Digər bir səbəb isə, MKİ rəhbərlərinin bu hadisələrin tez bir zamanda unudulacağını və bir daha baş verməyəcəyinə ümid bəsləmələri idi. Həmçinin, ABŞ rəsmiləri düşünürdülər ki, coğrafi baxımdan ABŞ terrorçuların hədəflərindən çox uzaqda yerləşir və baş verəcək hadisələrin ABŞ-a təsiri olmayacaq. Onlar həmçinin düşünürdülər ki, FAT və onun kimi digər təşkilatlar ABŞ-dan maliyyə dəstəyi alır, nə üçün onlar maliyyə dəstəyi aldıqları bir dövlətə zərbə endirsinlər? [169, s. 319-320]

1980-ci illərdən 1990-cı illərə kimi dünya terror aktlarının sayında kəskin azalma müşahidə edildiyi halda, növbəti onilliklərdə biz dini zəmində narazı müsəlmanlar tərəfindən ABŞ-a qarşı həyata keçirilən terror aktların şahidi oluruq. Yaxın Şərqdə müsəlman dövlətlərinə xas olan bir sıra amillər bu meyli gücləndirdi. Doğum səviyyəsində artım və iqtisadi gerilik olduğundan öz həyat səviyyələrini yaxşılaşdırmaq üçün çox kiçik imkanlara malik olan gənc nəsil yetişirdi. Region ölkələrində hakim olan avtoritar rejimlər demokratik islahatların aparılmasına imkan vermirdi. Müasir KİV-lər narazılığa və nifrətə səbəb yaradan Qərbin zənginliyini və mənəvi pozğunluğunu əks etdirən təsvirlər göstərirdi. Bu cür şəraitdə zorakılıq siyasi ifadə üçün cəlbedici seçimə çevrilmişdir. Soyuq müharibə dövrünün başa çatması və üstəlik elektron ünsiyyətin geniş yayılması terrorçuların əlaqə qurmalarına və bilavasitə terrorizmin inkişafına yardım etmişdir. [214, səh. 24-40]

Baş verən hadisələrdə çaşqınlıq yaratmaq üçün, meydana Sovet qoşunlarına qarşı Əfqanıstanda vuruşan mücahid adlanan islam döyüşçüləri gəlir. Bu döyüşçülər ABŞ-ın regionda, xüsusilə Əfqanıstanda yeritdiyi siyasətinə yardım edirdilər. ABŞ liderləri və siyasətçiləri zaman-zaman dilemma qarşısında qalırlar: İslam haqqında necə danışmalıyıq? Müsəlmanlar bizə dost, yoxsa düşməndirlər? ABŞ prezidentləri və siyasətçiləri açıq şəkildə amerikalıların İslam dininə qarşı dost münasibətində olduqlarına inandırmaqla bu dilemmanı aradan qaldırmağa çalışırdılar.

Bu cür ideologiya ilə İslamçılar 1980-ci illərin sonu 1990-cı illərin əvvəlində siyasi təzyiqi artırdılar. Əfqanıstanda vuruşan ərəblər Yaxın Şərq, Cənubi Asiya, Şimali Afrika və keçmiş Sovet İttifaqının tərkibində olan müsəlmanların yaşadıqları ərazilərə səpələndilər. Dini və siyasi lider Həsən-əl Turabi Sudanda hakimiyyəti ələ keçirdi. Həmas İsrailin mövqelərini bombardıman etməklə Fələstin Azadlıq Təşkilatı ilə hakimiyyət uğrunda mübarizə aparırdı. Misirdə Hüsnü Mübarəkin dünyəvi hakimiyyətini qeyri-sabit etmək üçün İslam Cihadı və İslamiyyə Camaatı 1992-1997-ci illərdə minlərlə qurban verilməsi ilə nəticələnən terror aktlarına start verdi. İslamçılar həmçinin Pakistanda və Qərb yönümlü Səudiyyə Ərəbistanı krallığında dünyəvi hökumətləri devirmək haqqında düşünürdülər. Əlcəzairdə isə İslam partiyası olan İslam Azadlıq Cəhbəsi (Front Islamique du Salut) 1991-ci ilin dekabr ayında ölkədə keçirilən seçkilərdə qalib gəlmişdir, lakin Əlcəzair ordusu seçkiləri ləğv etmiş və 1992-ci ilin yanvarında hakimiyyəti ələ almışdır.

Bu qəzəb dalğasına baxmayaraq, İslamçıların 1990-cı illərin sonunda fəaliyyətlərinə məhdudiyyətlər qoyuldu. Əlcəzair ordusu 1991-ci ildə hakimiyyətə gəlmiş İslamçılar tərəfindən vətəndaşların üsyanını boğaraq hakimiyyəti ələ aldı. Fələstin xalqı arasında qazandığı rəğbətə görə FAT Həmas üzərində qələbə çaldı. 1995-ci ildə sui-qəsdən xilas olan Hüsnü Mübarək İslamçıların cəzalandırılması və xalqın dövlətə sədaqətini qorumaq üçün iqtisadi islahatlarla hakimiyyəti əlində saxlamağa müvəffəq oldu. 1990-cı illərin sonlarında Türkiyə, Pakistan, İndoneziya, Səudiyyə Ərəbistanında, Əlcəzair və Sudanda mötədillər hakimiyyəti ələ aldı, hakimiyyətdə olanlar isə mövcud hakimiyyətlərini möhkəmləndirdi. İranda 1997-ci ilin may ayında hakimiyyətə mötədilləri təmsil edən baş nazir Məhəmməd Xatəmi gəlsə də, radikal anti-amerika mövqeyinə sahib olan ali dini rəhbər Ayətullah Hüseyn əli Xamneyi ölkənin təhlükəsizlik aparatına nəzarəti əlində saxlayır və Yaxın Şərqdə terror aktlarının baş verməsinə dolayı yolla da olsa səbəb olurdu. [254]

1990-cı illərin sonunda Əfqanıstan ən güclü İslam istehkamı kimi meydana çıxdı. Sovetlərin geri çəkilməsi ilə oyanan mücahidlər 1992-ci ilə Kabulda hakimiyyəti ələ aldı və bu, təcrübəli döyüşçülərin transmilli şəbəkələrinin fəaliyyətinə imkan yaratdı. İslam qanunlarına çox ciddi sadiqliklə yanaşan siyasi

təriqət olan Taliban 1996-cı ildə Əfqanıstanda hakimiyyəti ələ aldı. İlk öncə, Qərb dövlətləri bu rejimi dəstəkləyirdi, çünki ölkədə vəziyyətin sabitləşməsinə və neft kəmərlərinin inşasına dair imkanların olacağına ümid edirdi. Lakin çox keçmədi ki, Taliban ölkədə insan haqlarını pozmağa və ultra-mühafizəkar İslam qanunlarını təcrübədən keçirməyə başladı. [214, s. 46-47]

Daha pis vəziyyət isə Qərbin Taliban rejiminin Osama bin Ladenə sığınacaq verməsi qənaətində olması ilə meydana gəldi. 1980-ci illərdə Sovet işğalına müqavimət göstərmək üçün Əfqanıstanda bir sıra qüvvələrin ABŞ-la müttəfiqlik etdiyi zaman Osama bin Laden Səudiyyə Ərəbistanında üstün mövqeyə malik oldu və təşkilati bacarığını nümayiş edirdi. O, həmçinin İslamın ifrat versiyasını əsas tutaraq, Müsəlman dünyasından Əfqanıstana toplaşan həmvətənləri ilə şəbəkə yaratmış və Əl-Qaidə kimi tanınan "müqəddəs döyüşçülər"dən (cihad edənlərdən) ibarət təşkilatın əsasını qoymuşdur. 1990-cı ildə İraq Küveytə hücum edəndə Osama bin Laden Səudiyyə Ərəbistanını İraqdan qorumaq üçün cihad edənlərdən ibarət qoşun yığmağı təklif etdi, lakin Kral Fəhd ABŞ-ın dəstəyinə arxalanmağı üstün tutdu. Amerika əsgərlərinin Ərəbistanda, əsasən də, müqəddəs torpaqlar - Məkkə və Mədinə ətrafında mövcudluğu Osama bin Ladeni hiddətləndirmişdir, cünki "allahsızlar"ın müqqəddəs torpaqlara daxil olması İslam dininə zidd idi. 1991-ci ildə o, Sudanda məskunlaşdı və Əl-Qaidə üzvləri ilə əlaqəni bərpa etdi. Onun əsas qəyəsi həm ABŞ ordusunu Səudiyyə Ərəbistanından sıxışdırıb çıxartmaq, həm də onlara qapı açan Səudiyyə Ərəbistanının mövcud rejimini devirmək idi. 1996-cı ildə Sudandan qovulan Osama bin Laden Talibanın dəstəyi ilə fəaliyyətini davam etdirdiyi Əfqanıstana yerləşdi. Cihad üçün İslam legionuna təlim keçərək, Osama bin Laden onları dünyaya qarşı vuruşmağa təhrik etdi. [180, s. 313-320]

1990-cı illərin sonunda mahiyyət etibarı ilə Osama bin Laden Səudiyyə Ərəbistanı və ABŞ-a qarşı müharibə elan etdi. Osama bin Laden Səudiyyə liderlərini "çoxtanrılıqda" günahlandırırdı, çünki o, "insanlar tərəfindən uydurulan qanunlar Allahın qadağan etdiklərinin həyata keçirilməsinə imkan yaradır" deyə düşünürdü. 1996-cı ilin avqust ayında Osama bin Laden "İşğal olunmuş müqəddəs torpaqlarda amerikalılara qarşı cihad" bəyannəməsini dərc etdi. 1998-ci ilin fevralında bin Laden

və Misirdə əl-Cihadın lideri Ayman əl-Zavahiri yəhudilərə və xaçpərəstlərə qarşı Beynəlxalq İslam Cəbhəsinin yaranmasına dair xartiya imzaladılar. Xartiya müsəlmanları "mümkün olduğu yerdə istənilən ölkədə istər mülki, istərsə də hərbi amerikalıları və onların müttəfiqlərini öldürməyə" cağırırdı. Osama bin Ladenin fikrincə, ikiüzlülükdə, müqavimətə layiq olan işğalçı qüvvə kimi 1990-cı illərin ABŞ-ı, 1980-ci illərin Sovet İttifaqına bənzəyirdi. O, həmçinin açıq şəkildə hesab edirdi ki, ABŞ-a hücum islamçılar üçün ictimai dəstəyi gücləndirəcək. [286]

1990-cı illərdən başlayaraq, ABŞ rəsmiləri islamçılığı anlamağa cəhd göstərdi. Öz növbəsində Corc Buş adminstrasiyası 1991-ci ildə İslam Azadlıq Cəhbəsinin (Front İslamique du Salut) seçkilərdə qalib gəlməsi ilə Əlcəzair ordusunun hərbi çevriliş etməsi vəziyyətini səssizcə izlədi. Corc Buş və Bill Klinton hökumətinin rəsmiləri Yaxın Şərqdə demokratik islahatları müdafiə edir, islamda olan sülhməramlı meylləri qəbul edir, müsəlman və qeyri-müsəlman vətəndaşlar arasında qaçılmaz olan münaqişələri rədd edirdi.

1992-ci ildə Corc Buşun hakimiyyəti dövründə Dövlət Katibinin köməkçisi Edvard Djerejianın İslam və terrorizm haqqında söylədiyi fikirlər çox maraq doğurmuşdur: "ABŞ İslamı heç də Qərblə Şərqi üz-üzə qoyan və ya dünyada sülhə hədə olan bir din kimi baxmır". [174, s.78-85]

ABŞ-ın İslama qarşı müharibə aparmamasının təsdiqi İslamçı terroristlərə qarşı müharibənin genişlənməsinə baxmayaraq, ABŞ-da ard-arda hakimiyyətə gələn adminstrasiyaların siyasətinin heç də müsəlmanlara qarşı düşmən mövqeyində olmamasını dəfələrlə bəyan etməsində idi. Corc Buş (ata), Bill Klinton və Corc Buş (oğul) və ya onların adminstrasiyalarının yüksək rütbəli məmurları İran, Sudan, İraq və Liviya kimi ölkələri ektremist təhlükəsi olan ölkələri kimi tanıyırdı. Lakin xüsusi vurğulanırdı ki, Yaxın Şərqdə mövcud olan digər dövlətlər heç də təhlükə yaratmırlar, əksinə onlar demokratiya yolunu seçmişlər. İslama qarşı müharibə aparmadıqlarını sübut etmək üçün, prezident Bill Klintonun Milli Təhlükəsizlik məsələləri üzrə köməkçisi Antoni Leyk 1994-cü ildə etdiyi çıxışda bildirirdi ki, "Bütün dünyada olduğu kimi Yaxın Şərq regionunda da fundamental şəkildə bölünmə mövcuddur. Ziddiyyət heç də sivilizasiyalar və dinlər arasında deyil, bu,

əsarət və buna cavabdeh olan hökumətlər, mötədillik və ekstremiz arasındadır... Bizim düşmənimiz əsarət və ekstremizmdir, çox təəsüf ki, bu qarşımıza dini və ya dünyəvi simada çıxır. Biz terror, dözümsüzlük və zorakılıq ilə gündəmə gəlmək istəyənlərə qarşıyıq". [277, səh 4]

Qlobal Təhlükəsizlik Şurasında çıxışı zamanı Prezident Klinton daha da irəli gedərək bəyan etmişdir: "Qərb dünyası İslamla müharibə aparmır. Qərb tamamilə İslama qucaq aça bilər. İslamın ənənəvi dəyərləri sırasında olan dini etiqada, ailə və cəmiyyətə, yaxşı əməllərə sıx bağlılıq Amerika dəyərləri ilə bir harmoniya təşkil edir. Məhz bu səbəbdən, biz öz insanlarımızı, etiqadımızı, adət-ənənəmizi yaxşı bilərək, İslam dininə mənsub olan insanlarla sıx harmoniyada yaşamağın mümkünlüyünü qəbul edirik". [217, s.5]

1990-cı illərdə islamçılıq ideologiyasının böyük miqyasda qəbul edilməməsinə baxmayaraq, Bill Klinton adminstrasiyası terror təhlükəsi ilə üz-üzə qaldı. 1993-cü ilin fevralında İslamçı terrorçular tərəfindən Nyu-Yorkda Dünya Ticarət Mərkəzinin maşınlar üçün dayanacağında partladılan bomba nəticəsində 6 insan həlak olmuş və minə yaxın insan xəsarət almışdır. Terror aktının əsas məqsədi binanı məhv etməkdən ibarət idi, lakin buna nail olunmadı. Dünya Ticarət mərkəzinə edilən bu hücüm sübut etdi ki, ABŞ hökuməti İslama tənqidi yanaşmaqda heç də maraqlı deyildi. Belə ki, 1993-cü il hücumunun bir sıra oyunçularının 1990-cı ildə Amerika-İsrail cəmiyyətinin sədri, siyasi və dini lider olan Rabii Meir Kaxanenin qətli ilə əlaqəsi mövcud olmuş və əslində onlar hüquq-mühafizə orqanlarının nəzarətində olmalı idilər. Lakin İslama qarşı qoyulmayan bu ayrı-seçkilik, onların o zaman məsluliyyətə cəlb olunmasının qarşısını aldı.

Rabii Meir Kaxanenin qatili olan Misir əsilli Amerika vətəndaşı Əl Səyyid Nosair öz iş yoldaşlarını İslam dininə gətirməyə çalışdığı üçün işdən qovulmuş, evində onun tərəfindən kustar üsulu ilə hazırlanmış bombalar aşkar edilmişdir. Bundan əlavə, yuxarıda qeyd edilən qətl ilə bağlı bir sıra dəlillərin olması faktına baxmayaraq, ABŞ Xüsusi Xidmət Orqanlarının Ərəb dilinə edilmiş tərcümə variantlarından bu cinayət heç bir zaman terror aktı kimi qiymətləndirilməmişdir.

Məhz bu səbəbdən bir sıra şərhçilər bəyan edirlər ki, 1993-cü il hücumunun qarşısı alına bilərdi. Çünki məhz 1993-cü ildə baş vermiş hadisənin iştirakçıları, böyük ehtimalla Rabii Meirin qətlində də iştirak etmişdirlər.

1995-ci ilin aprel ayında ABŞ-ın Oklahoma şəhərində yaşayış binasının ABŞ-ın Körfəz müharibəsi veteranı tərəfindən partladılması nəticəsində 168 nəfər həyatını itirmiş, yüzlərlə insan yaralanmışdır. Nəticədə vətəndaşları arasında öz ölkələrində də terror hadisələrinin baş verə biləcəyi qorxusu meydana çıxdı. 1995-ci ildə Tokio metrosunda baş vermiş əsəb sistemini paralizə etmə təsirinə malik qaz hücümü nəticəsində on iki nəfər həlak olmuş, altı minə yaxın insan isə xəsarət almışdır. Bu hadisə ABŞ vətəndaşlarını onların da ölkələrində kütləvi qırğın silahlarından istifadə oluna biləcəyi ehtimalına inandırdı. Keçmiş Sovet İttiqanın atom və bioloji silahlara sahib olmasına dair hesabatlar əhali arasında narahatlığın əsasız olmadığını bir daha sübut etdi. [158, s. 92-93]

Bütün bu hadisələr Bill Klintonu bir sıra anti-terror tədbirləri həyata keçirtməyə vadar etdi. İlk öncə, o, hüquq-mühafizə orqanlarının terror aktlarının qarşısının alınması və bu cür hadisələr törədən cinayətkarların təqib edilməsinə dair qanunun qəbul olunmasına və nəhayət ölkə daxilində istənilən kütləvi qırğın silahları hücumuna qarşı hökumətin cavabının planlaşdırılmasına dair qanun layihəsinin qəbulu üçün Konqresə təzyiq göstərdi. Dəniz arxası ərazilərdəki ölkələrdə prezident hüquq-mühafizə və nüvə silahlarının yayılmamasına dair qarşılıqlı əlaqələrin inkişafı təşəbbüsünü irəli sürdü. O, həmçinin İrana qarşı hər il Hizbullah və Həmasa 100 mln dollar yardım etdiyi üçün beynəlxalq sanksiyaların tətbiq olunması təşəbbüsünü irəli sürdü. 1996-cı ilin martında Şarm-el Şeyxdə 14-nün Ərəb ölkələri liderlərindən ibarət olan 25 ölkənin liderlərinin iştirakı ilə İsrail və digər yerlərdə terrorizmi pisləmək məqsədilə "Sülhməramlıların sammiti" təşkil edildi. O, həmçinin terrorizmlə mübarizənin uzunmüddətli və davamlı olması üçün çalışırdı. [165, s. 675]

Bill Klintonun terrorizmi siyasi gündəliyə salmaq istəməməsinə baxmayaraq, tez bir zamanda o, Yaxın Şərqdə və dünyanın fərqli yerlərində İslam ekstremistləri ilə üzləşmək məcburiyyətində qaldı. 1996-cı ilin iyun ayında kimlikləri müəyyən edilə bilinməyən terrorçular Səudiyyə Ərəbistanının Dəhran şəhərində ABŞ Hava

Qüvvələrinin heyətinə məxsus məkanda partlayıcı maddələrlə dolu yük maşınını partlatdılar, nəticədə 19 insan həlak olmuş və yüzlərlə, həm ABŞ Hava Qüvvələri heyətinin üzvləri, həm də siravi vətəndaşlar yaralanmışdır. Bu hadisədən sonra ABŞ təhlükəsizliyi qorumaq üçün bu ərazidə qoşunlarının sayını artırdı. ABŞ hökuməti həmçinin İran və Dəhran şəhərində bomba atmış naməlum şəxslər arasında əlaqəni aydınlaşdırdı və öz kəşfiyyat istiqamətini o zaman Sudanda yerləşmiş Osama bin Ladenə yönəltdi. Mərkəzi Kəşfiyyat İdarəsində Osama bin Ladenin və əl-Qaidənin izlərini araşdırmaq üçün xüsusi şöbə yaradıldı. ABŞ Sudana Əfqanıstanda Talibanla birgə fəaliyyət göstərən bin Ladeni təhvil verməsi üçün təzyiq göstərdi. 1998-ci ilin yazında Bill Klinton Osama bin Ladeni tutmaq üçün MKİ-ə xüsusi əməliyyat aparmaq səlahiyyəti verdi. [215, s. 119]

Sığındığı Əfqanıstandan Osama bin Laden ABŞ-a qarşı elan etdiyi müharibəni başladı. 1998-ci ilin avqust ayında eyni zamanda aralarında on ikisinin ABŞ vətəndaşı və qırxının yerli işçı olduğu və ümumilikdə 257 insanın həlak olduğu və 5000-dən çox insanın yaralandığı ABŞ-ın Keniya və Tanzaniyadakı səfirliklərində terror aktı həyata keçirtdi. Buna cavab olaraq, Bill Klinton səfirliklərin qorumasını artırdı, terror aktlarının qarşısını almaq üçün digər ölkələrlə əməkdaşlıq etdi, terrora qarşı mübarizənin güclənməsi və texnologiyanın inkişafına maddi dəstək göstərdi. Hüquq mühafizə orqanlarının işinin gücləndirilməsi ilə bir sıra irəlliləyişlərə nail olundu. Belə ki, İordaniya və Misir rəsmiləri bu ölkələrdə əl-Qaidə zərbələrini dəf etdi və ABŞ hökuməti 1999-cu ilin dekabrında Los-Ancels Beynəlxalq Hava Limanında baş verə biləcək hücumun qarşısını aldı. 2001-ci ilin mayında əl-Qaidənin dörd üzvü 1998-ci il səfirliklərə hücumla bağlı təqsirləndirilmiş və ömürlük həbs cəzasına məhkum olunmuşlar. [214, s. 105-126]

Bill Klinton da əl-Qaidəyə qarşı müharibəyə başladı. Afrikada səfirliklərin bombalamasından iki həftə sonra o, iki ölkədə terrorçuların hədəflərinə yetmiş doqquz raket zərbəsi endirməyi əmr etdi. Raketlər hədəfə vuruldu, nəticədə Əfqanıstanda iyirmiyə yaxın terrorçu məhv edildi. Klinton həmçinin Talibana Osama bin Ladeni ABŞ hökumətinə təhvil verməsinə görə təzyiq göstərdi və xəbərdarlıq etdi ki, əl-Qaidənin növbəti baş verə biləcək hər hansı bir terror aktı üçün Taliban rejimi

məsul olacaq. Bill Klinton həmçinin, Əfqanıstana qarşı beynəlxalq maliyyə sanksiyasının tətbiq edilməsi təklifini irəli sürdü və bunun reallaşması üçün konkret addımlar atdı. Prezident bin Laden və onun ətrafında olan yaxın silahdaşlarına qarşı ölümcül hücumların qanuniləşdirilməsinə dair qərarlar imzaladı, MKİ onların yerləşdikləri əraziləri müəyyən etməsi üçün təzyiq göstərdi və Pentaqona Əfqanıstanda əməliyyatlara başlamaq əmr verdi. Lakin Bill Klinton Əfqanıstana birbaşa müdaxilədən qaçdı, çünki o, ABŞ və dünya ictimaiyyətinin bu cür birbaşa müdaxiləyə dəstək verəcəyinə şübhə ilə yanaşırdı. [202, s. 364-368]

Münaqişə Bill Klintonun prezidentliyinin son illərinə kimi davam etdi. 2000-ci illərin əvvəllərində Osama bin Ladenin tapıldığı anda zərərsizləşdirilməsi məqsədilə Klinton Ərəb dənizində iki sualtı qayıq yerləşdirməsi əmrini verdi. Həmin ilin oktyabrında əl-Qaidə üzvləri bomba ilə dolu qaçırılmış qayığı Ədən körfəzində ABŞ-a məxsus və həmin anda yanacaq dolduran "USS Cole" adlı gəminin yanında partlatdı və nəticədə on yeddi ABŞ dənizçisi həlak oldu, gəmi tamamilə məhv edildi. Bill Klinton Osama bin Ladenə qarşı cavab hücumları həyata keçirmək istəyirdi, lakin onun yerləşdiyi məntəqə haqqında dəqiq kəşfiyyat məlumatı olmaması hücumların baş tutmamasına səbəb oldu. Özünün *Mənim həyatım* adlı memuarında Bill Klinton qeyd edir: "Mən çox tərəddüd içində idi. Düşməni ələ keçirmək çox çətin idi, hər kəs potensial hədəf idi, bizim nəhəng arsenalımız maneələri dəf edə bilmirdi, müasir dünyada informasıya texnologiyalarının inkişafı bizə qarşı idi". [165, səh. 747]

Əl-Qaidənin ABŞ-a qarşı ən dramatik hücumu Bill Klintonun prezidentliyi dövründən sonra 11 sentyabr 2001-ci ildə baş verdi. On doqquz əl-Qaidə əməliyyatçısı eyni zamanda dörd ABŞ təyyarəsini qaçırtdı və onlardan ikisi Nyu-York şəhərində yerləşən Beynəlxalq Ticarət Mərkəzinə (Əkiz Qüllələrə) çırpıldı və nəticədə hər iki bina çökdü. Üçüncü təyyarə Vaşinqton yaxınlığında yerləşən Pentaqon binasına çırpıldı və binanın bir hissəsi dağıntıya məruz qaldı. Dördüncü təyyarə isə Vaşinqtonda hədəflənmiş yerə çırpılmalı idi, lakin oncədən edilən xəbərdarlıqdan sonra daha böyük faciənin qarşısını almaq üçün təyyarə göydə vuruldu, içindəki terrorçu və sərnişinlər həlak oldu. 11 sentyabr hücumu 1941-ci il

Yaponiya hərbi qüvvələrinin Pörl Harbor limanına etdikləri hücumundan sonra ABŞ ərazisində düşmən tərəfindən ona qarşı edilən ən böyük miqyaslı hücum idi. Üç mindən çox insanın həlak olduğu bu faciə ABŞ dövlətini beynəlxalq terrora qarşı qəti və geniş vüsətli mübarizə aparmağa məcbur etdi. Terror aktından sonra bir neçə gün ərzində ölkənin maliyyə sistemi iflic vəziyyətə düşdü. [11, səh. 54-55]

Əslində, ABŞ-ın terrora qarşı mübarizəsi ilə müharibəsi anlayışlarını bir-birindən ayırmaq çox düzgün olardı. Çünki yuxarıda da qeyd edildiyi kimi, ABŞ istər əl-Qaidə, istərsə də terror təşkilatlarına dəstək verən regionun qeyri-demokratik ölkələri ilə açıq şəkildə müharibə deyil, iri və ya kiçik miqyaslı hərbi əməliyyatlarla müşahidə olunan mübarizə aparırdı. 11 sentyabr hadisələri bu mübarizənin heç də yetərli olmamasını həm özlərinə, həm dünya dövlətlərinə, həm də dünya ictimaiyyətinə sübut etdi. Lakin bir faktı da nəzərdən qaçırtmaq lazım deyil ki, tarixə nəzər saldıqda və dissertasiya işi zamanı aparılan araşdırmadan da aydın olur ki, regionda terrorizmi, zorakılığı, iqtisadi və siyasi geriliyi, insan inkişafı baxımından aşağı səviyyəli ölkələrin mövcudluğu, avtoritar və ya qeyri-demokratik rejimlərin və bir sözlə regionda qeyri-sabit vəziyyətin səbəbkarı öz maraqları naminə onsuz da həssas olan bölgənin və bu bölgədə yaşayan insanların taleyini heç düşünməyən məhz ABŞ və digər Qərb dövlətləridir.

Terrorçunun milliyəti və dini olmur. İstənilən bir halda həyata keçirilən terror aktına heç kim bəraət qazandırıla bilməz. Lakin regionda yeridilən təcavüzkar siyasətin nəticəsi terror dalğasının coğrafiyasını məsafələrdən asılı olmayaraq genişləndirdi. Ərazisində demək olar ki, dağıdıcı müharibə görməmiş, insan inkişafı baxımından dünyanın ən mühüm regionu olan Şimali Amerika və bu materikin, nəinki materikin dünyanın ən qüdrətli dövləti olan ABŞ-ı belə terror dalğası bürüdü və ölkə qismən də olsan terrorçuların hədəfinə çevrildi.

Dissertasiya işində aparılmış tədqiqatda növbəti illərdə terrora qarşı müharibə və bu müharibənin Yaxın Şərq regionu üçün hansı ağır nəticələrlə müşayət olunduğu araşdırılır. Regionda terrorun kökünün kəsilmədiyi, əksinə bir sıra terror təşkilatlarının fərqli qruplar tərəfindən maddi və hərbi baxımdan dəstəklənərək, daha da güclənən və regiona, günahsız insanlara hansı əzabların verildiyinin şahidi oluruq.

## 3.2. 11 sentyabr 2001-ci ildən sonra ABŞ-ın anti-terror siyasətində Yaxın Şərq regionu

XXI əsrin əvvəli dünyanın siyasi düzənini dəyişəcək, hətta bir sıra hallarda müasir dövrün başlanğıcı kimi qiymətləndirilən 2001-ci il 11 sentyabr hadisəsi ABŞ tarixini iki dövrə böldü: 11 sentyabr 2001-ci ildən əvvəlki ABŞ və bu dövrdən sonrakı ABŞ. Bu hadisə dünyanın, xüsusilə də Yaxın Şərq regionun gələcəyinə birmənalı şəkildə mənfi təsir etmiş terror aktının həyata keçirilməsi ilə başladı. Belə ki, Əl-Qaidə terror təşkilatının iyirmi nəfər üzvü II Dünya müharibəsindən sonra ilk dəfə ABŞ ərazisində insan tələfatına və ciddi dağıntılara səbəb olan terror aktı həyata keçirmişdir. ABŞ-ın keçmiş Milli Təhlükəsizlik katibinin köməkçisi Stevart Beyker terror hadisəsi baş verəndən bir müddət sonra bildirdi ki, "bütün hökumət üzvləri hücümunun hardansa gələcəyindən xəbərdar idi". [251, səh. 39]

Bütün bunlardan az-çox xəbərdar olan məmurlar təyyarə qaçırdanlardan yalnız birini, Məhəmməd Xantanini sərhəd keçid məntəqəsində saxlamışdılar. Bəs əgər hökumət üzvləri təhlükənin gələcəyindən xəbərdar idilərsə, sərhəd keçid məntəqələrində niyə güclü yoxlanış yox idi? Ehtimallardan biri, hadisə baş verməmişdən üç ay öncə, yəni 2001-ci ilin iyun ayında ABŞ Dövlət Departamentinin Səudiyyə Ərəbistanı üçün Viza Ekspres proqramını təsis etməsi idi. Belə ki, Səudiyyə Ərəbistanının vətəndaşları viza almaq üçün ABŞ konsulluğunda ərizə yazmamalı və yoxlamadan keçməməli idilər. Yalnız turist agentliklərində iki səhifəlik ərizəni doldurmaq kifayət edirdi. Bundan əlavə, Səudiyyə Ərəbistanının təzyiqləri onun vətəndaşlarının ciddi yoxlamadan keçməsinin qarşısını aldı.

Yalnız 11 sentyabr hadisələrindən sonra ABŞ siyasətçiləri və qanun keşikçiləri iddia etdilər ki, terrorizmdə İslam faktorunu qəbul etmək artıq qaçılmazdır. İslama qarşı ABŞ-ın ziddiyyətli siyasəti 1992-ci ildən bəri davamlı idi. Ronald Reyqandan sonra hakimiyyətə gəlmiş hər bir prezident özlərinə haqq qazandırmaq məqsədilə cihad edən müsəlmanlar tərəfindən ABŞ-a qarşı terrorizm reallığının mövcudluğunu anlamışdır. Eyni zamanda isə onlar terrorizm kontekstində İslamı birbaşa olaraq ittiham etməkdən də yayınmağa çalışmışdırlar.

Bundan əlavə, belə hesab edilirdi ki, ABŞ siyasətçiləri işlətdikləri ifadələrdən düzgün istifadə etməli və bununla da, "mötədil müsəlmanların qəlbini və düşüncələrini ələ almalı və dini ideologiyadan qidalanan terroristlərin isə ideallaşdırılmasından qaçmalı idi". Terrorçuların "cihadçılar" adlandırılması onların əməllərinə dini baxımdan qanunilik görüntüsü verirdi.

2001-ci il 11 sentyabr terror aktına qarşı ABŞ-ın rəsmi cavabı 1876-cı ildən bəri ən gərgin keçən seçkilərdən sonra 2001-ci ilin yanvar ayında hakimiyyətə gəlmiş Corc Buş tərəfindən verildi. Terror aktından bir neçə dəqiqə sonra Buş vitse-prezident Riçard Çeyneyə "Biz müharibə şəraitindəyik. Bunun cavabını kimsə verməldir!" fikrini bildirir. [280]

2002-ci il fevralın 8-də televiziya verilişində "terrorizm" haqqında ABŞ prezidentinə hər hansı bir sualın verilməməsinə baxmayaraq, o, bu kəlməni duz 22 dəfə işlətdi. Buş terrorizm termininin izahı vermiş, onun tarixi haqqında danışmış, həmin dövrdə yaratdığı hədədən və gələcəkdə dünya üçün səbəb ola biləcək təhlükədən bəhs etmişdir. [278]

11 sentyabr 2001-ci il terror aktından sonra prezident Corc Buş administrasiyası Yaxın Şərqdə ABŞ siyasətini tamamilə yenilədi. O, xarici siyasətdə yenidən Yaxın və Orta Şərq ölkələrinə müdaxiləni əsas götürdü. "Buş Doktrinası" ABŞ prezidenti Corc Buşun bir-biri ilə əlaqəli xarici siyasət prinsiplərini izah edərkən istifadə olunan ifadədir. Buş Doktrinasında təqdim edilən ilk müfəssəl siyasi sənəd 2002-ci ilin sentyabrında Ağ ev tərəfindən çap edilən "ABŞ-ın Milli Təhlükəsizlik Strategiyası" idi. Buşun İraqda həyata keçirtdiyi hərbi əməliyyatlar bu sənədə əsaslanmışdır.

2001-ci il 11 sentyabr hadisələri Yaxın Şərqə dərin və davamlı təsir göstərmişdir. Talibanı sıxışdırmaq və Əl-Qaidə terror təşkilatının kökünü kəsmək məqsədilə Əfqanıstana basqınla başlayan "terrora qarşı müharibə" beynəlxalq səviyyədə dəstək gördü. 1994-cü ildə yaranmasına və 1996-2001-ci illər ərzində Əfqanıstanı idarə edən Taliban dünyada elə də tanınmasa da, üç ölkə-Səudiyyə Ərəbistanı, BƏƏ və Pakistan Taliban hakimiyyətini rəsmi şəkildə tanımışdı.

1999-cu ildə BMT Talibandan Osama bin Ladenin təhvil verilməsini tələb edən 1267 saylı qətnaməni qəbul etdi. [321] Bu addım beynəlxalq ictimaiyyətin bütün əl-

Qaidə liderlərini terrorçu kimi cəzalanma istəyini göstərirdi. 2001-ci il terror aktı təcili şəkildə bu məsələnin reallaşmasını tələb etdi. ABŞ-ın başçılığı ilə Əfqanıstana basqın baş vermiş terror hadisəsinə qarşı qanuni şəkildə veriləcək cavab hesab edilirdi. Beynəlxalq ictimaiyyət onsuz da terrordan viran qalmış ölkəyə qarşı atılacaq bu addımdan narahatlığını ifadə etsə də, hərbi müdaxilənin qaçılmaz olduğu fikri ilə də razı idi.

ABŞ Əfqanıstandakı Taliban rejimini 11 sentyabr hadisələrindən bir neçə ay sonra devirdi. Bundan sonra ölkədə Taliban tərəfdarları ABŞ-a qarşı müqavimət hərəkatına başladı. Yaraqlılar Əfqanıstan və Pakistan sərhədlərini asanlıqla keçərək, regionun müharibə lordları ilə öz güclərini birləşdirmişdilər. Əfqanıstan inkişafdan çox geri qalmış və kasıb bir ölkə idi. Taliban rejimi dağıldıqdan sonra bu ölkədə qanunsuz tiryək istehsalı artmışdır. ABŞ gec də olsa Əfqanıstanda 2004-cü ilin oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün əhalinin siyahıya alınması üçün BMT-dən yardım istədi. Kərzai prezident seçildi, lakin bu illər əzində o, bu prezidentliyə müxalif olan müharibə lordları, tiryək qaçaqmalçılığı və üsyançılara qarşı mübarizə aparmalı oldu. [195, s.161-163]

ABŞ-ın növbəti hədəfi Səddam rejimini devirmək idi. 2000-ci ildə ABŞ hökumətinin aldığı məlumata əsasən İraqın əhalisinin sayı 27 milyondan çox idi. Bir çox Ərəb dövlətləri kimi İraqın da əhalisinin böyük əksəriyyətini gənclər təşkil edirdi, əhalinin 40%-ə yaxının yaşı 14-dən aşağı idi. Əhalinin böyük əksəriyyəti ərəblərdən, 15-20 %-i isə kürdlərdən ibarət milli azlığa mənsub idi. Müsəlmanların çox olduğu bir ölkədə şiələr əhalinin 60-65%-ni təşkil edirdi. [252] Buna baxmayaraq, 2003-cü ilə kimi, yəni ABŞ tərəfindən rejim devrilənə kimi dövləti güc yolu ilə sünni azlığının nümayəndəsi olan Səddam Hüseyn idarə edirdi.

1980-1988 İran-İraq, 1991-ci Küveyt müharibəsindən sonra 2003-cü ilə qədər olan dövrdə beynəlxalq ictimaiyyət üçün İraq “fırıldaqçı ölkə” statusunu qazanmışdır. 1990-cı ildə ABŞ BMT Təhlükəsizlik Şurasının 661 saylı qətnaməsi ilə rejimə qarşı ciddi sanksiyalar tətbiq etmişdi. Qətnamənin əsas məqsədi İraqı Küveytdən geri çəkməyə məcbur etmək və 1991-ci il müharibəsindən sonra İraqın bütün kütləvi qırğın silahlarının məhvinə dair qəbul etdiyi razılığı qorunmaq idi. Məhz bu

baxımından, 2003-cü ildə İraqın işğalı Corc Buş adminstrasiyasının qəfil reaksiyasına tuş gəlmədi. "Terrora qarşı müharibə" münaqişənin baş verə biləcəyi yerli siyasi mühiti yaratmışdır. [195, s. 161-162]

Məlum 11 sentyabr hadisəsindən sonra Buş adminstrasiyası İraq rejiminin Əl-Qaidə terror təşkilatı ilə əlaqəli olduğunu bəyan etdi. Bundan əlavə, Corc Buş adminstrasiyası İraqı ərazisində kütləvi qırğın silahlarını inkişaf etdirməkdə ittiham etdi. 2003-cü ilin mart ayında dünyanın bəzi güclü ölkələrinin sözdən başqa olmayan cağrışına və Ərəb dövlətlərinin etirazına bağmayaraq, ABŞ İraqa soxuldu. Müharibə may ayının 1-də bitdi və Buş öz qələbəsini elan etdi. [319]

Səddam rejimi devrildi. Lakin özünü Səddamın davamçıları adlandıran bir sıra silahlı qruplaşmalar xarici müdaxiləçilərə qarşı amansız mübarizə aparmağa başladılar. Əslində, ABŞ söz verdiyi demokratiyanı, azad cəmiyyəti İraqa gətirə bilmədi, ölkə fəlakətlə üzləşdi, onu vətəndaş müharibəsi bürüdü. Bundan əlavə, ABŞ hökuməti terrora qarşı müharibə aparmaq və terrorun kökünü kəsməklə Yaxın Şərq regionunda yaşayan insanları "zalım rejim"lərdən xilas edərək, buraya demokratiya gətirmək niyyətində olduqlarını bildirdi. Demokratiyanın genişləndirilməsi ideyası soyuq müharibə bitdikdən sonra Bill Klinton adminstrasiyası hakimiyyətdə olduğu zaman irəli sürülmüşdür. Daha sonrakı adminstrasiya isə bu fikirdən heç də daşınmadı və hakimiyyətə gəldikdən sonra Yaxın Şərqin demokratikləşdirilməsi ilə modernizasiya kursunun tətbiqinə başladı.

Rəsmi səviyyədə bu haqda 2003-cü ilin payızında İraqa müdaxilədən dərhal sonra danışıldı. 2004-ci ilin iyun ayında "Böyük yeddiliyin" "genişlənmiş" Yaxın Şərq və Şimali Afrika" regionunun inkişafı və gələcəyinə dair əməkdaşlıq" sammitində demokratiyanın genişləndirilməsi fikri elan edildi. Çox güman ki, məhz İraqa hərbi müdaxilə demokratiya quruculuğu fikrini gündəmə gətirmişdir. Maraqlıdır ki, Amerika ziyalıları və siyastəçiləri müdaxilənin yalnış olduğunu etiraf etsələr də, Yaxın Şərqdə demokratiyanın qurulmasının davam etdirilməsi xəttini dəstəkləyirdilər. [128, s. 72-89]

2003-cü ilin fevral ayında BMT-də çıxış edən ABŞ-ın o zamankı dövlət katibi Koulen Pauel ictimaiyyəti inandırmağa çalışırdı ki, İraqda kütləvi qırğın silahları

mövcudur. ABŞ İraq ərazisində heç də iddia etdiyi kütləvi qırğın silahlarının inkişaf etdirilməsinə dair bir sübut tapa bilmədi və 2005-ci ildə ABŞ Kəşfiyyat İdarəsinin topladığı yalnış məlumatlar əsasında bu qənaətə gəldiyini elan etdi. ABŞ rəsmiləri isə kəşfiyyat idarəsinin ona səhv məlumat verməsini və prezident adminstrasiyasının aldandığını bəyan etdi. [257]

Bu fikrin bir az absurd səslənməsi hər kəsə aydın idi. ABŞ kimi fövqəlgücün minlərlə dinc sakinin həlak olması və öz yurdlarından didərgin düşməsi, ölkənin infrastrukturunun dağıdılması, regionda gərgin olan vəziyyətin daha da gərinləşməsi və İraqı tamamilə dağıtması fonunda ABŞ MİK-in yalnış məlumatına aldanaraq bu addımı atmağı müəyyən mənada gülünc səslənirdi.

Buş adminstrasiyasının İraqa hərbi müdaxiləsi bilavasitə ABŞ dövlətinin nüfuzu üçün bir zərbə idi. Buş adminstrasiyası tərəfindən atılan addımların neqativ tərəfləri onun terrora qarşı müharibəsinə haqq qazandırmağı çətinləşdirir. Belə ki, atılan addımın gözlənilməyən nəticələri və konkret fikirləri təcrübədə tətbiq etməyin reallaşmasını məhdudlaşdırdı.

Əslində, İraqa müdaxilə bir çox baxımdan yalnış idi. Birincisi, ABŞ müsəlman dünyasında ona bəslənən inamı itirdi. İkincisi, bu müharibə ABŞ-ın diqqətini terrorizmlə mübarizə istiqamətindən xeyli yayındırdı. Bundan əlavə, supergücə malik bir ölkə müharibədən sonra İraqda vəziyyəti sabitləşdirə və iddia etdiyi demokratiyanı qura bilmədi. Hərbi müdaxilə heç də amerikalı hərbçilərin həlak olmasına və maddi baxımdan çəkilən zərərə dəymədi.

ABŞ-ın keçmiş dövlət katibi xanım Madlen Olbraytın Buş adminstrasiyasının İraqa müdaxiləsinə bildirdiyi fikir, ümumilikdə, ABŞ-da bu siyasətə qarşı heç də birmənalı fikrin olmadığının göstəricidirdir. “Elə günlər olurdu ki, heç qəzet oxumaq istəmirdim. Mənə belə gəlir ki, ABŞ hökuməti beynəlxalq terrorizmə qarşı mübarizəyə tamamilə bacarıqsız şəkildə reaksiya verdi. Bu mübarizə ABŞ-ın dünyadakı şöhrətinə xələl gətirdi, demokratiya və azadlığın inkişafının möhkəmlənməsi üçün nəzərdə tutulmuş aydın və səlis strategiyanın işlənib həyata keçirilməsinin əvəzinə, bu mübarizə terror və terrorizmə aid ümumi şuarların

səslənməsi ilə məhdudlaşdı. Lakin eyni zamanda, düşünürəm ki, Buş adminstrasiyası həddən artıq çətin və mürəkkəb bir problemlə üzləşib”. [201, s.16]

Buşun hakimiyyəti illərində onun adminstrasiyası tərəfindən Yaxın Şərqdə apardığı müharibəyə qismən də olsa bəraət qazandırmaq üçün ABŞ dövlətinin regionda demokratiyanın inkişafına töhfə vermək istəyi fikri tez-tez səslənirdi. Əslində ABŞ-ın demokratiyanın inkişafına dair fikri 2001-ci ildə regionda avtoritar rejimlərlə mübarizə fonunda meydana gəlmişdir. “ABŞ-ın Milli təhlükəsizlik strategiyası”nda terrorizmə qarşı müharibə və bu regionda yaşayan xalqları “zalım rejimlər”dən xilas edərək demokratiyanın inkişafında onlara yardım göstərmək istəyi öz əksini tapmışdır. [milli strategiya]

Yaxın Şərqdə demokratikləşmə haqqında Respublikaçılar partiyası heç də İslam aləmində öz müttəfiqlərini seçməyə və onları elan etməyə tələsmirdi. Onlar daha çox demokratiyanın faydalı, mövcud rejimlərin isə zərərli olduğunu xalqlara aşılamağa çalışırdı. Buna baxmayaraq, ABŞ-ın bu hərəkəti belə dikbaşlıq və lovğalıq kimi qəbul olunurdu. Apardıqları aqressiv müharibə fonunda demokratiyaya bu çağırış ərəbləri cəlb etməkdən çox onları ABŞ-dan uzaqlaşdırırdı.

2000-ci illərin əvvəlində Vaşinqton Yaxın Şərqdə demokratik özünüdərk anlayışını artırmaq üçün bir sıra layihələrin həyata keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. Həyata keçirilən layihələri təsnifləndirsək, onların heç də təsiretmə qabiliyyətinə görə deyil, ssenari və sərfiyyata uyğun həyata keçirildiyinin şahidi olarıq. Belə ki, ABŞ regionda özünə yaxın və dost bildiyi rejimlər qurmaqla, istədiyi demokratiyanı regionda tətbiq etmək istəyirdi. Səudiyyə Ərəbistanı, Suriya və Misir buna etiraz edərək bildirdi ki, demokratikləşmə regiona xaricdən deyil, daxildən gətirilməlidir. Regionda sülhə nail olmamış hansısa bir demokratiyanın inkişafından danışmaq Yaxın Şərqdə mövcud olan dövlət rəsmilərinə inandırıcı gəlmir və onlar ABŞ-ın bu təşəbbüsünə inanmırdılar.

İlk öncə ABŞ Yaxın Şərqin “demokratik cəmiyyətə” aid etmək istədiyi ölkələrini maliyyə dəstəyi göstərməklə şirnikləşdirməyə çalışırdı. (Buna misal olaraq, Livana illik iki milyardlıq yardımı göstərmək olar.) Bu məqsədlə 2002-ci ildə Vaşinqton tərəfindən “Minilliyin İnkişafı Fondu” yaradıldı. 2004-cü ildə isə “böyük

yeddilik" ölkələrinin sammitində "Böyük Yaxın Şərq və Şimali Afrikaya dair təşəbbüs" fondu yaradılmasına qərar verildi. Sammitin yekun sənədində qeyd olunurdu ki, "dünya ictimaiyyəti Yaxın Şərq regionunda üç sahəyə diqqəti ayırmalıdır: insan azadlığının olmaması, savadsızlıq və qadın haqlarının qorunması. Bu sahədə problemlərin qalması "böyük yeddilik" qrupuna üzv olan bütün dövlətlərin milli maraqlarına təhlükə törədir və ekstremizm, terrorizm, beynəlxalq cinayətkarlıq və qeyri-qanuni miqrasiyaya yol açır." [327]

Yuxarıda qeyd edilən fondlarla yanaşı Yaxın Şərqdə demokratiyanın inkişafına yardım etmək üçün bir sıra böyük qeyri-hökumət təşkilatları təsis edildi. Bunların sırasında Demokratiya naminə milli fond, Beynəlxalq Respublikaçılar İnstitutu, Beynəlxalq Demokratiya İnstitutu, "Asiya" fondu, İslam və Demokratiyanın öyrənilməsi fondu da var idi.

Bundan əlavə, ABŞ müsəlman qeyri-hökumət təşkilatları və ayrı-ayrı fərdlərə maliyyə yardımı göstərməklə demokatiyanın inkişafına töhvə verməyi düşünürdü. ABŞ Dövlət Departamenti çərçivəsində formalaşdırılmış və illik 70 milyon dollar qrant alan "Əməkdaşlığa dair Yaxın Şərq təşəbbüsü" bürosunun fəaliyyətini ekspertlər qənaətbəxş hesab edirdilər. Lakin göstərilən yardımın müqabilində demokratiyanın inkişafını onlar çox zəif hesab edirdilər. [285]

Daha effektiv addıma əl ataraq, ABŞ regionda 2002-ci ildə "Savva" radiostansiyasını efirə, 2004-cü ildə isə peyk antenası ilə "Əl-Hürrə" kanalını yayıma buraxdı. 2010-cu ilin sonlarına doğru radiostansiya ərəblər arasında kifayət qədər dinləyici toplamış, Misir və Liviya da daxil olmaqla 7 regional yayım xidməti fəaliyyətə başlamışdır. Ərəbdilli televiziya kanalı yayımını ABŞ-ın Vermont ştatında yerləşən Sprinqfild şəhərində aparırdı. Reytinq cədvəlində 2%-i belə keçə bilməyən kanal regionun aparıcı kanalı olan "əl-Cəzirə"yə belə demək olarsa, məğlub oldu.

Lakin görülən tədbirlər qismən də olsa işə yaramışdı. Belə ki, əgər 2003-2004-cü illərdə regionda Amerikaya qarşı mənfi fikirli insanların faiz nisbəti 90 idisə, 2010-cu ildə bu rəqəm artıq 70 %-ə duşmuşdur.

Təlatümlu səkkiz illik prezidentlik dövründə ABŞ-ı maliyyə fəlakəti astanasına gətirən Corc Uoker Buş adminstrasiyasından sonra hakimiyyətə gəlmiş Barak Obama

ABŞ xarici siyasətində yeni kurs axtarmağa başladı və bu kursa aydın beynəlxalq siyasi prioritet gətirdi: ABŞ-ın dolaşığa düşmüş Yaxın Şərq siyasətini bərpa etmək. İraq və Əfqanıstanda davam edən müharibələr, narazı Yaxın Şərq, davam edən terrorist hədələri, seçim hüququndan məhrum olunmuş müttəfiqlər, böyümüş regional rəqabət, davam edən və həlli müşkül olan İsrail-Fələstin sülh prosesi ABŞ-ın Yaxın Şərq siyasəti qarşısında duran əsas məsələlərdən idi. İraq və Əfqanıstandakı müharibə ilə yanaşı, Obamanın Yaxın Şərq regionu üçün önəmli hesab etdiyi məsələlər sırasına ABŞ-ın daha inandırıcı yanaşmasını yenidən bərpa etmək, İsrail-Fələstin münaqişəsinin həlli istiqamətində dərhal irəliləyiş əldə etmək və sonda İranın nüvə proqramının inkişafı cəhdinin qarşısını almaq istiqamətində daha praqmatik və realist strategiyasını ortaya çıxartmaq daxil idi.

İnauqurasiya mərasimində Obama açıq şəkildə bəyan etdi ki, onun beynəlxalq məsələlərə münasibəti öz sələflərindən fərqli olacaq. Belə ki, o, digər dövlətlərlə münasibətləri mücərrəd mənəvi dəyərlər və ya kobud hərbi güclə deyil, həqiqi əlaqələr və maraqların paylaşması fonunda həyata keçirmək niyyətində olduğunu bildirdi. İnauqurasiya mərasimində Obama çoxlu sayda müsəlmanlara "terrora qarşı müharibə, əslində "İslama qarşı müharibədir" fikrinin yalnış olmasını çatdırmağa çalışırdı. [249]

Prezidentliyi müddətində Obama Corc Buşun hərbi doktrinasından uzaqlaşmasını istəyirdi. Obama öz doktrinasında bəyan etmişdir ki, "bu doktrina Buş doktrinası kimi olmayacaq, cünki dünya indi daha mürəkkəb bir vəziyyətdədir". [174, s. 92]

Qeyd etmək lazımdır ki, "terrorizmə qarşı müharibə" "demokratiyanın inkişafı" şüarı ilə çox sıx bağlı idi. Bununla əlaqədar olaraq, bir sıra analitiklərin əgər terrora qarşı müharibə bitirsə, demokratiyanın inkişafından imtina etmək ritorikasından da bizi uzaqlaşdırması fikri ilə razılaşmamaq olmur.

Yaxın Şərq regionunda başlanan terrora qarşı müharibə müsəlmanları Qərb aləmindən daha da uzaqlaşdırdı və bu faktor əl-Qaidə, cihad edən qruplara, insanlara qarşı zorakılıq aktlarına davam etdirməyə rəvac verdi. Onlar ABŞ-a qarşı apardıqları döyüşləri müsəlmanları qorumaq məqsədi ilə etdiklərini bildirirdilər. Lakin bir çox

müsəlmanlar üçün isə terrora qarşı müharibə məhz onların dininə qarşı olan müharibə kimi qiymətləndirilirdi.

Buşdan fərqli olaraq, Obama öz sələfinin danışıq üslubunu istifadə etməməyə və "terrora qarşı müharibə" terminini "yeni strateji yanaşma" termini ilə əvəz etməyə çalışırdı. Çünki "terrora qarşı müharibə" ifadəsindəki "müharibə" sözü ABŞ-ın terror hədəsi anlayışının xarakterini düzgün ifadə etmirdi. Bu haqda ilk öncə ABŞ-ın Milli Təhlükəsizlik Agentliyinin sədri Canet Napolitano 30 iyun 2008-ci il tarixində Britaniyanın "Financial Times" qəzetinə verdiyi müsahibədə bəyan etdi. Həmin ilin avqust ayının 6-da ABŞ prezidenti Barak Obamanın terrorizmə qarşı mübarizə işləri üzrə köməkçisi Con Brennan Vaşinqtonda yerləşən "Strateji və beynəlxalq araşdırmalar mərkəzində" "terrorizmə qarşı müharibə" konsepsiyasından imtina etdiklərini rəsmi şəkildə elan etdi. Qeyd edildi ki, "nə qədər ki, ABŞ terror təhlükəsi ilə üzləşəcək" prezident və onun adminstrasiyası "Əl-Qaidə və onun müttəfiqlərini məğlub və tərkisilah etmək üçün amansız və qətiyyətli mübarizə aparacaq". [287]

"Terrora qarşı müharibə" 2009-cu ildə rəsmi şəkildə ABŞ hökumətinin leksikonundan düşür və bu termin "dəniz arxası torpaqlarda təxirəsalınmaz əməliyyatlar" ifadəsi ilə əvəz edildi. Bundan əlavə, 2009-ci ilin mart ayında Dövlət Departamentinin Anti-terror Mərkəzi terrorizm haqqında danışılarkən istifadə oluna bilən və oluna bilməyən terminlər siyahısını qəbul etdi:

• Ekstremist və ya terrorçu terminini işlətmək: hər iki ifadə kifayət qədər anlaşılandı, Amerikanın düşmənlərini aydın şəkildə müəyyənləşdirir və eyni zamanda onların əməllərinin qanuni olmasını tamamilə inkar edir.

• Sadəcə əl-Qaidə, əl-Qaidə şəbəkəsi. Əl-Qaidə hərəkatı ifadəsi istifadə edilməməlidir. Çünki belə olduğu təqdirdə, bu, siyasi legitimlik (insan hüquqları hərəkatı, işçi hərəkatı və s.) səviyyəsində başa düşülə bilər.

• Terrorçuları təsvir edərkən heç zaman cihadçı və ya mücahid kəlməsindən istifadə edilməməlidir. ABŞ düşmənlərini cihadçı, onların hərəkatını isə qlobal cihad adlandırmaqları istəmədən onların əməllərini qanuni müstəviyə mindirə bilər. [287]

Müqayisə aparsaq, görərik ki, Corc Buşun rəhbərliyi altında 2004-cü ilin iyul ayında dərc olunmuş 9/11 Kommissiya hesabatında İslam sözü 322, müsəlman sözü

145, cihad 126, cihadçı kəlməsi isə 32 dəfə işlənmişdir. Lakin Obamanın rəhbərliyi altında 2009-cu ilin avqust ayında Milli Təhlükəsizlik Strategiyasında İslam, müsəlman, cihad, çihadçılar kəlməsi heç bir dəfə də olsun işlənməmişdir. Hesabatda qeyd edilir ki, terrorçular İslamdan sui-istifadə edərək onu yalnış şəkildə mənimsəyir və təhrif edirlər. Ekstremizmlə mübarizə indi bir nömrəli missiyaya çevrilmişdir. [288]

Obama adminstrasiyasının ilk Milli təhlükəsizlik strategiyası 2010-cu ilin may ayında çap edilmişdir. Burada göstərilən əsas məqsəd və niyyətlər heç də terrora qarşı müharibədəkilərdən fərqlənmirdi. Bu məqsəd və niyyətlər özündə əl-Qaidə və onun Əfqanıstan, Pakistan və ümumiyyətlə dünyada olan "ekstremist" müttəfiqləri parçalamağı, tərkisilah və məhv etməyi, ABŞ ərazisini istənilən bir hücumdan qorumağı, hava təhlükəsizliyini artırmağı, kütləvi qırğın silahlarının terrorçuların əlinə keçməsinə mane olmağı, əl-Qaidənin ABŞ vətəndaşlarını, dənizarxası maraqlarını və orada olan müttəfiqlərini qorxutmağa imkan verməməyi ehtiva edirdi. [289] Bundan əlavə, 2011-ci ilin iyun ayında çap edilmiş Terrora qarşı Milli Strategiya ABŞ-ın təhlükəsizliyinə real hədə İslamçılıq, radikal islam və ya qlobal cihad deyil, əl-Qaidə, onun üzvləri və tərəfdarları olduqları vurğulanmışdır.

Obamanın prezidentliyi dövründə ilk nəzərəçarpan dəyişiklik onun danışıq qabiliyyəti idi. Ərəb və müsəlman dünyasına səsini çatdırmaq və diqqəti yenidən özünə cəlb etmək üçün Obama prezident kimi ilk müsahibəsini əl-Ərəbiyya televiziyasına verdi. O, qeyd etdi ki, "ABŞ və müsəlman dünyası yaxşı münasibətlərin qurulması astanasındadır və bu münasibətlər ancaq hörmətə söykənməlidir." Prezident bu fikrini bir neçə ay sonra Qurandan da dəfələrlə sitatalar gətirdiyi Qahirə görüşündə daha da aydın şəkildə təkrar etmiş və "ABŞ və müsəlmanlar arasında yeni başlanğıcın" olacağını elan etmişdi.

Çıxışında Obama müsəlmanların narazılığının səbəblərini açıqlamağa çalışaraq, söyləmişdi:

- Müstəmləməkəçilik: məhz müstəmləkəçilik vasitəsilə Qərb dünyası müsəlmanların hüquq və imkanlarının varlığını rədd etmişdir;

- Soyuq müharibə: Qərb dünyasını müsəlmanlara sankı Soyuq müharibənin baş verməsində onların məsul olduqları kimi münasibət bəsləmiş və onların istəklərini rədd etmişdir.
- Müasirləşmə və qloballaşma isə Qərb dünyasının İslama qarşı düşmənçiliyini artırdı. [174, s.96-102]

Beləliklə də, Obamanın konsepsiyasına əsasən İslam və ya müsəlman ekstremizminin kökü hüquqi narazılıqlardan qaynaqlanaraq meydana çıxdı. Bu cür "qanuni narazılıq" siyahısından başqa, İslam ekstermizmini aydınlaşdırmağa çalışan analitiklər bir sıra digər narazılıqları da qeyd edirdi:

- ABŞ-ın İsraili dəstəkləməsi və Fələstinə etinasız yanaşması;
- ABŞ-ın Əfqanıstanda apardığı hərbi əməliyyatlar;
- ABŞ-ın İraqa hərbi müdaxiləsi;
- İraq və Əfqanıstanda ABŞ-ın hərbi əməliyyatları zamanı mülki əhali arasında çoxlu sayda tələfat;
- ABŞ qoşunlarının müsəlman ölkələrində hərbi bazalarını yerləşdirməsi.

Son zamanlar yuxarıda qeyd edilən "qanuni narazılıq" amilləri getdikcə yoxsulluq, imkan məhdudluğu, təhsilsizlik və xalqın hökumətdən narazı olmasına səbəb olurdu.

2011-ci ilin iyun ayından Osama bin Landenin öldürülməsindən sonra çap olunan ən son "Terrorizmə qarşı milli strategiya" Buş adminstrasiyasının terrora qarşı müharibə strategiyasına çox bənzəyirdi. Bu strategiyada da yuxarıda qeyd edilən məqsəd və məramlar təkrar olunurdu. Lakin vurğulanmalı olan önəmli bir məqam, hər halda, əl-Qaidə ideologiyası və onunla mübarizə aparmaq ehtiyacı deyildi, həmçinin yalnız ABŞ ərazisinin bu təhlükə ilə üzləşməyi deyil, həm də Avropa, Asiya və Afrikanı da bürüyən bir çox sayda münaqişə ocaqların yaranması və bunun da qlobal əhəmiyyət kəsb etməsi idi.

Obama hakimiyyətə gəldikdən sonra ABŞ qoşunları İraqın yaşayış məskənlərindən çıxdı. Qoşunlar şəhərləri tərk etdi, lakin bu İraqı tərk etmək demək deyildi. 130 minə yaxın insan "əməliyyat gedən ön mövqelərə" köçürüldü. 10 minə yaxın amerikalı hərbçilər İraq hərbi hissələrində və bölmələrində məsləhətçi qismində

saxlanıldı. Rəsmi Pentaqon isə öz növbəsində İraqda yeni tapşırıqlara hazır olan 14 min nəfərdən ibarət dörd “məsləhətçi-yardımçı” briqada saxlamağı qərara aldı. Bu briqidalar bütün sahələrdə hərbi əməliyyatlar aparmaq iqtidarında idi. Bundan əlavə, ABŞ ordusunun şəhərlərdən çıxmağına baxmayaraq, hələ də kənd ərazilərdində patrul keşik çəkməyə davam edirdi.

İraq şəhərlərindən ABŞ qoşunları çıxdıqdan sonra Ağ ev adminstrasiyası artıq İraqda “Obama planının” qələbəsini elan etdi. Lakin bu terrorizmin yox olması deyildi. Hələ də məscidlərin qarşısında bomba partlayışının səsi gəlir və polis məntəqələrinə basqınlar edilirdi. Gündəlik təcrübədə isə insanların pul müqabilində qaçırılması hallarına da rast gəlinirdi. [32]

Prezidentliyinin ilk həftəsində rəmzi olaraq Obama Quantanamo həbsxanasını bağlamağı tələb edən qərar imzaladı. Bu addım Amerikanın beynəlxalq aləmdə nüfuzunu yenidən bərpa etmək məqsədi daşıyırdı. Buş istədiyi kimi Yaxın Şərq ölkələrini demokratik islahatlarla aldatmaqdansa, Obama daha çox yeni yanaşma tətbiq etməyi üstün tutdu. 2009-cu ildə Ağ ev iddialı demokratikləşmə məqsədlərini həyata keçirtmək üçün, İranda seçkilərdən sonra baş verən etirazlar zamanı səssiz qaldı. Bu hadisə Livanda parlament seçkilərinə müdaxilə etməmək və Əfqanıstanda kiçik hərbi əməliyyatların keçirilməsini qəbul etməklə davam etdi.

Obamanın hakimiyyəti illərində ABŞ-ın xarici siyasətində baş verən ən böyük dəyişiklik İrana qarşı olan münasibət idi. Obama “diplomatiya, cəza və sonda güc tətbiq etmədən İranın yürütdüyü siyasəti nəzarət altında saxlamaq” strategiyasını qəbul etdi. Lakin “terrorizmə qarşı müharibə”nin təxirə salınması heç də ABŞ-ın nüvə proqramına qarşı münasibətini dəyişmədi. Dalana dirənmiş nüvə məsələsinin diplomatik yolla həllini tapmaq məqsədilə “uzanmış əl” adı ilə tanınan məşhur inaqurasiya nitqinə əsasən ABŞ hökuməti Tehranla çoxsaylı və gözlənilməz danışıqlar apardı. Düzdür, Obama ilk öncə İrana əlini uzatdı, lakin daha sonra isə İranda keçirilən prezident seçkilərinin legitimliyinə dair şübhələrini dilə gətirdi. Sonda ABŞ çox çətinliklə İrandakı seçkiləri tanıdığını bəyan etdi. [254]

İranla danışıqlar aparmağa az da olsa müfəvvəq olan ABŞ adminstrasiyası həmçinin BMT kürsüsündən və onun kimi digər mötəbər arenalarda İranın nüvə iddialarına qarşı beynəlxalq təzyiqi gücləndirməyə çalışdırdı.

Nobel Sülh Mükafatı təqdimatı mərasimdə çıxışı zamanı Obama beynəlxalq ictimaiyyəti dünyada nüvə silahının yayılmasına dair sanksiyaların tətbiqində sərt olmağa çağırdı. Sanksiyalarla qorxutmaqla yanaşı, onun adminstrasiyası açıq güc tətbiq etməmək şərti ilə təhlükəli hesab olunan ölkələrin siyasətinə nəzarət etmə strategiyasını qəbul etdi. Bu stategiya özündə iki əsas məsələni ehtiva edirdi: Birincisi, İranın gücünün qarşısını daha yaxşı almaq üçün planlaşdırılmış və Yaxın Şərqin müdafiə sistemini gücləndirmək məqsədilə Avropa raketlərini mövqeyini dəyişmək və ikincisi, İranın nüvə silahlarından xəbərdar olaraq, açıq şəkildə Fars körfəzində "müdafiə çətirini" genişləndirmək. [174, s. 214-215]

İranda 2009-cu ilin iyun ayında keçirilən mübahisəli prezident seçkiləri zamanı daxili mübarizəyə səbəb olan vəziyyət yarandı. Obama ümid edirdi ki, İranda seçkilərdən sonra baş qaldıran etirazlar azalacaq və Tehranla olan diplomatik əlaqələrin bərpası davam edəcək. Lakin etirazların davam etdiyini görən Obama öz sükutunu pozmağa məcbur oldu və günahsız İran vətəndaşlarına qarşı göstərilən zorakılık aktlarını və ədalətsizliyi kəskin şəkildə qınadı.

Müxalifətin qələbəsinə və nüvə məsələsinə dair faydalı danışıqlar aparmağa inanmaq qəbuledilməz idi və bu İsrailin tək hərəkət etmə riskini artırırdı, çox güman ki, yalnız Səudiyyə Ərəbistanı İsrailə İranın nüvə ləvazimatlarını bombalamaqla taktiki dəstək göstərə bilərdi. Nəticələr artıq Obamanı qorxudurdu və əgər İranın o zamanki prezidenti Mahmud Əhmədnejat danışıqlar masasına əyləşməyi rədd etsə, Ag ev yeni sanksiyalar tətbiq etmək məcburiyyətində qalacaqdı. Hansı sanksiyaların tətbiq olunancağı məlum deyildi. Onlar Səddam rejimi kimi bu rejimi də devirəcəklərmi? Onlar bundan sonra da müxalifəti dəstəkləyəcək, yoxsa sadəcə olaraq Tehranın onları əzməsinə seyircimi qalacaqlar? Onlar İranın nüvə proqramını dayandıracaq və ya gecikdirəcək, yoxsa Tehran Qərbə tabe olmayaraq və nüvə proqramını inkişaf etdirərək əməkdaşlığa bütün ümidləri puç edəcək? Bunu isə zaman göstərəcəkdi.

ABŞ əhalisi müəyyən hissəsi terrora qarşı müharibə və kütləvi qırğın silahların məhv edilməsi bəhanəsi ilə İraqda gedən hərbi əməliyyatlara və ən əsas da ABŞ hərbçilərinin həlak olmasına görə çox narazı idi. ABŞ əhalisi 11 sentyabr hadisələrindən sonra hələ də terror təhlükəsi ilə yaşayır və baş verə biləcək hadisədən sığortalanmadıqlarını anlayırdılar. Güman etmək olar ki, Obama hakimiyyətə gələrkən "terrora qarşı müharibə"nin bitdiyini elan etməklə, eyni siyasəti başqa formada reallaşdırmaqla, bu ifadənin ağırlığını üstündən götürmüş və amerikalıları bir az da olsa sakitləşdirə bilmişdir. Lakin amerikalılar heç də düşünmürdülər ki, onlar indi terror aktlarından daha yaxşı qorunurlar.

Pyu [Pew] araşdırmalar mərkəzi 11 sentyabr hadisələrindən sonra terrorçuların ABŞ-a yenidən zərbələr endirməsinin nə qədər real olub olmadığı dair tədqiqatlar aparmışdır. 2002-ci ilin avqust ayında sorğuda iştirak edənlərin 39% söylədilər ki, terrorçuların hücumu real olaraq qalır, 34% bildirdi ki, terrora cəhdin mümkünlüyü azalmış, 22% isə bu cəhdin mümkünlüyünün artdığını bildirmişdir. 2009-cu ildə isə terrora cəhdin reallığını 44%, bu cəhdin azaldığını 35%, artdığını isə 17% insan düşünürdü. [292]

2001-ci il terror hadisəsindən böyük müddət keçməsinə baxmayaraq, ABŞ əhalisinin böyük əksəriyyəti hələ də terror hədəsinin qaldığını və hətta artdığını düşünürdü. Əslində, ABŞ əhalisinin belə düşünməyə əsası var: "terrora qarşı müharibə" zamanı terror aktlarının sayı on dəfə artmışdır. İslam ölkələri və bu ölkələrin vətəndaşlarının da ABŞ-ın regionda apardığı müharibə haqqında fikirləri heç də birmənalı deyildi. Belə ki, Misirdə əhali arasında keçirilən sorğuya əsasən əhalinin 85% düşünürdü ki, Qərb elə məhz İslamla müharibə aparır. Buna ən gözəl nümunə pakistanlı polis inspektoru Qulam Əsgər Xanın "Şeytan əl-Qaidə" adlı məqaləsini tədqiq etmək çox maraqlı olardı. Məqalədə əl-Qaidənin yaranmasında ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rolu haqqında ətraflı məlumat verilir. "əl-Qaidə uşaqları və sadə cəmiyyəti qorxuzan gözəgörünməz bir əcaib kimi düşünülmüş və reallaşdırılmışdır. Əl-Qaidə ABŞ üçün terrora qarşı sonsuz müharibə üçün bəhanə oldu. Uydurma 11 sentyabr terror aktı, Bali, Madrid, London və Bombeydə partlayışların baş verməsi ABŞ-ın qlobal siyasətinin bir hissəsini təşkil edir. Bütün

bunlar ABŞ-a elə məhz özləri tərəfinən yaradılmış terrorizmdən dünya ictimaiyyətini qorumaq üçün bir bəhanə verir”. [306, s.7] Bu kimi konspiroloji nəzəriyyələr isə elm aləmində heç də birmənalı qarşılanmır və fikir ayrılığına yol açır.

Bu dövrdə ABŞ-ın özündə siyasi nəzəriyyəçilər arasında əl-Qaidəyə dair qızğın mübahisələr gedir. Bir qismi düşünür ki, terror təşkilatları tarixi proseslərin kənarında qalan əl-Qaidədən heç bir dəstək almayaraq, terror aktlarını həyata keçirirlər. Digərləri isə bunun əksini iddia edərək bildirir ki, əl-Qaidə əvvəlki kimi fərqli terror qruplarına nəzarət edir və onları dəstəkləyir.

Talibana gəldikdə isə yuxarıda adı çəkilən pakistanlı müəllif bildirir ki, “Taliban strategiyası- dözümlülük strategiyasıdır. Belə ki, onlara görə Amerika çox böyük bir ərazini çox kiçik insanlardan qorumalıdır və əgər müharibə çox uzun çəksə yorulan və məhv olan tərəf Amerika olacaq”. Bu fikri taliblərin tez-tez işlətdiyi bir ifadəsi ilə tamamlamaq olar: “Ola bilsin ki, amerikalıların saatı var, amma bizim isə zamanımız var”. [306, s.7]

Sözdə “terrora qarşı müharibə” bitdi, amma bu qərar açıqlanandan dərhal sonra ABŞ Əfqanıstanda dörd min hərbçisinin iştirak etdiyi ən iri miqyaslı hərbi əməliyyatını apardı. 2009-cu ilin iyun ayının 24-də Obama Əfqanıstan və İraqda həmin ilin 1 oktyabr tarixinə kimi maliyyə vəsaiti ayıraraq, hərbi əməliyyatların uzadılmasına qərar verdi. 2012-ci ildə ABŞ bu regionda quru qoşunlarının sayını 569 min nəfərə çatdırdı. [327] Terrora qarşı müharibə 2010-cu ildə Pentaqona 2 milyard dollara başa gəldi.

Obama hakimiyyətə gələrkən verdiyi vədlər regionunda yaşayan xalqlar arasında Yaxın Şərqdə nəyahət ki, gözlənilən sülhün və sabitiliyin bərqərar olunmasına inam yaratmışdır. Obamanın müsəlman olması ilə bağlı fərqli versiyaların yayılması insanlarda bu ümidin doğrulacağına əminlik yaratmışdır. Obama adminstrasiyası regionda demokratiyanın inkişafı, avtoritar rejimlərdən yaxa qurtarmaq, azad olmaq üçün “səylərini” əsirgəməmiş və bu Yaxın Şərq regionunda “ərəb baharı” ilə nəticələnmişdir. “Ərəb baharı” adlanan hərəkat avtoritar rejimə və rüşvətə son qoyulması, azadlıq, sosial ədalət tələb edən bəşəri fikir və düşüncələrdən ruhlanan insanlar tərəfindən başladılmışdır. Obama ilə Buşun apardıqları siyasət

arasında fərq yalnız onda idi ki, Obama istiqamətini hərbi gücə deyil, sosial şəbəkələr vasitəsilə təkan verilmiş narazı kütləyə və onların fəaliyyətinə yönəltmişdir.

“Ərəb baharı”nın ilk qığılcımı 2010-cu ilin dekabr ayında Tunisdə başladı. “Ərəb baharı” inqilabi nümayişlər, etiraz və vətəndaş müharibəsi ilə müşahidə olunurdu. Əslində Misir və Tunisdə 2011-ci ildə nə baş vermişdi: demokratik inqilab, yoxsa sadəcə etiraz? Buna dair ən aydın şərhi Obama adminstrasiyasının adını çəkmək istəməyən mənbəsi “New York Times” qəzetinə müsahibə verərkən bildirmişdir: “Hadisələr səni qəfil yaxalayanda bax gör nələr baş verir. İki il ərzində dəfələrlə Yaxın Şərqdə vəziyyətin nizamlanmasına dair aparılan işlərdə və İran məsələsində məğlub olmuşuq. Lakin bu ssenarilərin heç birində Misirdə qeyri-sabit vəziyyətin olacağı ehtimalı yox idi. [222]

ABŞ kəşfiyyatının isə baş verən hadisələrə münasibəti çox müsbət idi. 2011-ci ilin mart ayının 10-da ABŞ kəşfiyyatının direktoru Ceyms Klepper ABŞ Senatına 34 səhifəlik sənəd təqdim etdi. Bu sənədin yalnız 2 abzasını o, Yaxın Şərqdə baş verən vəziyyətə həsr etmişdir. Onun təqdim etdiyi sənəddə hadisələr “qəfil”, “öncədən ehtimal edilməyən”, “şiddətli” sözləri ilə təsvir olunur. Sənəd sonda beynəxalq münasibətlər sisteminin proqnozunu verməyin çətinliyi ilə bağlı fəlsəfi fikirlə bitir. [164, s. 1-5]

Rəsmi Vaşinqtonun hadisələrə münasibəti 2000-ci illərdə ABŞ-ın aqressiv münasibətindən çox fərqli idi. Fevralın 23-də Barak Obama xüsusilə beynəlxalq ictimaityyətə müraciətində bəyan etdi: “Regionda baş verən dəyişiklik bilavasitə həmin regionun əhalisi ilə bağlıdır. Bu dəyişiklik ABŞ siyasətinin və ya başqa xarici qüvvələrin əməllərinin nəticəsi deyil.” [210] Lakin Vaşinqton israrçı mövqeyini itirə bilməzdi. 2011-ci ilin əvvəlində rəsmi səviyyədə Misir və Tunisə edilən zənglərin çoxu Ağ evdən gəlirdi. ABŞ özünə münasib olan istiqamətdə hadisələrə təsir etmək istəyirdi.

Vaşinqtonun Misirin eks-prezidenti Hüsnü Mübarəkə qarşı olan münasibəti də maraqlı idi. Etiraz dalğasının ilk mərhələlərində ABŞ Misirdə mövcud hökumət tərəfdə durur, onu dəstəkləyərək mövcud rejimi sabit, Mübarəkin özünü isə demokrat adlandırırdı. Sonra isə kəskin fikir dəyişikliyi oldu və bir neçə gün sonra Vaşinqton

rəsmi Qahirəni illik 2 milyardlıq maliyyə paketini dayandırmaqla hədələdi. 2011-ci ilin sentyabr ayında Mübarək prezident postuna seçilməkdən imtina etdikdən sonra ABŞ "hakimiyyətin ötürülməsini", bir neçə gün sonra isə bunun dərhal baş verməsini tələb etdi. Burada ABŞ-ın əsas məqsədi elə məhz Mübarəkin iştirakı ilə onun qurduğu siyasi sistemi saxlamaq idi. [211]

Hüsnü Mübarək rejimi zamanı məhz onun özünün zaminliyi ilə əsası qoyulmuş Misir-İsrail əlaqələri ABŞ üçün çox böyük önəm kəsb edirdi. Məsələnin qəlizliyi onda idi ki, ABŞ istəyindən asılı olmayaraq, etirazçıları dəstəkləməli idi, çünki demokratiya və azadlıq istəyinə hörmətlə yanaşmalı idi. Dolayı yolla da olsa, bu fikir diktatura ilə mübarizə üçün düzgün idi, lakin bu Vaşinqtonun strateji məqsədlərini zədələmiş və regionda təhlükəsizlik mühitini pisləşdirmişdir.

Bir sıra amerikalı ekspertlər etiraf edirlər ki, Hüsni Mübarək və Tunis prezidenti Ben Əlinin hakimiyyətdən getməsi ABŞ-ın regionda strateji aktivlərini itirməsinə səbəb olmuşdur. Amerika donanmalarının bazası yerləşən Bəhreyndə baş vermiş etirazlar fonunda İranın regional təsirinin güclənməsi haqda bir sıra ekspretlər mülahizələr irəli sürürdü. Yaxın Şərq inqilab dalğasının 1979-cu il İslam inqilabına gətirib çıxarması faktı Vaşınqtonda narahatlıqla qarşılanırdı. Hər şeydən əlavə Liviyada baş vermiş vətəndaş müharibəsi Liviya neftinin dünya bazarına çıxışına maneə yaratmış və nəticədə enerji daşıyıcılarının qiymətində artım müşahidə olunmuşdur. Belə halda təhlükəsizliyi və Suveyş kanalına maneəsiz daxil olmanı təmin edən və həmçinin islamçılarla kəskin mübarizə aparan Hüsnü Mübarək yada düşürdü.

Əgər ABŞ iddia etdiyi kimi "ərəb bahar"ının baş verməsində heç bir rol oynamayıbsa, onda onun üçün əsas məsələ regionda öz təsir dairəsini qoruyub saxlamaq idi. Bu təsir dairəsi bundan əvvəlki üç onilliklər ərzində ABŞ-ın dəstək göstərdiyi region ölkələrinin hərbi elitası idi. Tunis və Misirdə etiraz dalğası yatırıldıqdan sonra hakimiyyət hərbi qüvvələrin əlinə keçdi. [188]

Hərbiçilərlə əməkdaşlığı davam etdirən Obama adminstrasiyası ərəb inqilabçılarının liderləri arasında avtoritetini itirməməyə çalışırdı. Əslində ABŞ

inqiladan sonra hakimiyyətə gələcək istənilən bir siyasi güclə əməkdaşlığı nəzərdə tuturdu.

Yaxın Şərqdəki vəziyyətlə bağlı Vaşinqtonun müdaxilə etməmə və gözləmə mövqeyində olması onun siyasi kursunun bir hissəsi idi, lakin Livanda baş verən hadisələr və xüsusilə də yuxarıda qeyd edilən neft amili Obama adminstrasiyasını hərəkətə keçməyə vadar etdi. Müxalifətə hərbi yardım etmək təklifi ilə Fransa çıxış etdi və qısa bir zamanda BMT-nin TŞ-da buna dair qətnamə də qəbul etdirməyə müvəffəq oldu. İraq və Əfqanıstadakı xarici siyasətinin nöqsanlarını xatırlayan Obama adminstrasiyası avropalıların hərəkətlərini sakit izləyə bilməzdi. ABŞ daxilində də siyasi qüvvələr arasında fikir ayrılığı aşkar şəkildə özünü göstərirdi. Səbirli olub nəticəni gözləməyin əksinə bəziləri Misirdə və Tunisdə rejimin modernləşməsini və Livana hərbi müdaxilə üçün dünya ictimaiyyətindən dəstək alınmasının vacibliyini qeyd edirdi. [325]

Ağ ev və Pentaqona üçüncü dəfə hərbi əməliyyatlara qoşulmağın nəticəsinin necə olacağı öncədən təxmini də olsa məlum idi. Beləliklə, ABŞ NATO tərkibində Liviyada Qəddafi rejiminə qarşı birliyə qoşuldu.

ABŞ-ın beynəlxalq əlaqələr şurasının prezidenti Lesli Qelb ölkənin siyasi elitasının fikrini bu ifadələrlə bildirdi: "Əgər avropalılar ərəblərə və ya afrikalılara Qəddafiyə müxalif olanlara yardım etmək istəyirsə, qoy etsinlər, bu onların haqqıdır. Onlar qonşuluqda yaşayırlar, qoy onlar öz qərarlarını versinlər". [266]

ABŞ-ın məqsədyönlü şəkildə regionda rejimlərin dəyişməsi üçün kompaniya aparmasına dair konkret subutlar yoxdur. Dövlətlər arasında gedən gizli danışıqlar, xəbərlər və kəşfiyyat məlumatları ilə dünyanı bir anda çalxalayan məşhur Vikiliks saytında ABŞ diplomatları ilə rejimə müxalif olan liderlər, fəal vətəndaşlar və jurnalistlərlə mütəmadi danışıqlar barədə xəbərlər yayılır. Bu xəbərlərdə ABŞ-ın regionda inqilabi vəziyyət yaratmasına dair dəlillər görünmür. [325] Lakin ABŞ-ın demokratiyanın genişləndirməsi sahəsində cəhdləri və onların buna hansı yolla nail olmalarını anlamaq da önəmlidir. ABŞ-ın "ərəb bahar"ının başlanmasında birbaşa və dolayı yolla müdaxiləsi nəticədə heç də yeni demokratiyanın meydana gəlməsinə səbəb olmadı, burada sadəcə hakimiyyət dəyişdi.

Zidiyyətli və özü özlüyündə mühüm proseslər gedən Yaxın Şərq regionunda hadisələrin dinamikası sərbəst şəkildə inkişaf edir. Heç də iddia etmək olmaz ki, ABŞ bu hadisələrin gedişində təhrikedici rol oynayırdı. Lakin Vaşinqton heç də regionun siyasətindən kənarda qalmır, əksinə fəal şəkildə onun işlərinə müdaxilə edir. Və ərəblərin bir çoxu məsləhət üçün məhz ABŞ-a üz tutur.

Hakimiyyətinin ikinci dörd ilində Obamanın üzləşdiyi problemlər sırasında İran məsələsi həlli ən çətin olan problem idi. İstənilən bir vasitə ilə beynəlxalq əməkdaşlıq, diplomatik danışıqlar və hətta dünya miqyasında nüvə tərkisilahından danışılsa belə, Obama Tehranla danışıqlar masasında əyləşməyin bir yolunu tapa bilmirdi. Ag ev sanksiyaların ciddi olduğunu anlayırdı, lakin Obama adminstrasiyası həmçinin bilirdi ki, nəticə əldə etmək üçün uzun illər gözləmək lazımdır.

Digər bir problem isə dünyanı, xüsusilə də Avropa və Asiyanı terror hədəsi ilə qorxudan yeni bir qruplaşmanın siyasi meydanda peyda olması idi. “Ərəb baharı”ndan sonrakı qarmaqarışıq vəziyyətdən yaralanan “əl-Qaidə” terror təşkilatı oldu. İraq cəmiyyəti 2014-cü ildə də müharibə ilə üzləşdi. Əsası “əl-Qaidə” tərəfindən qoyulmuş, ətrafında narazı sünnüləri toplayan və özünü “İraq Şam İslam Dövləti” adlandıran İŞİD qruplaşması müharibənin başlamasına səbəb oldu. Adından da məlum olduğu kimi bu qrup, əsasən, İraq və Suriyanın torpaqları hesabına müstəqil dövlət yaratmaq niyyətində idi. Son zamanlar təhlükənin daha da yaxınlaşması və artması fonundan çıxış edərək, İŞİD öz xilafətinin sərhədlərinin xaricində də terror hücumlarını fəallaşdırmışdır. Buna misal olaraq, 1 noyabr 2015-ci il Rusiyaya məxsus sərnişin təyyarəsinin Misir üzərində vurulması və daha sonra isə 2015-ci il noyabr ayının 13-də Parisdə baş vemiş terror aktını göstərmək olar.

İŞİD-ə qarşı mübarizə ABŞ siyasətçilərini uzun müddət düşünməyə vadar etməmişdir. Obama adminstrasiyasının planı İŞİD-in “tənəzzül və məhvinə” nail olmaq idi. Bu planın hava hücümları və quru qoşunlarının yardımı ilə reallaşması nəzərdə tutulurdu. Ağ ev isə strateji uğurun hansı formada olmasına dair və ya bu dırnaqarası dövlətin mövcudluğuna son qoyulması ilə bağlı plan göstərməmişdir. Lakin 2015-ci il noyabr Paris terror aktından sonra keçmiş Dövlət Katibi Hillari Klinton prezidentin ünvanına örtülü də olsa tənqid səsləndirmişdir: “Yeni mərhələyə

başlamaq və mövcud olan və ya mövcud ola biləcək xilafəti məhv etmək lazımdır”. [294]

Ağ ev rəsmilərinin fikrincə İŞİD-ə qarşı uzun müddət ərzində plan qurulması ABŞ-ı yeni bataqlığa çəkəcəyi bağlı narahatlığa əsas verirdi. Əgər Obama adminstrasiyası İŞİD-i məhv etməklə bağlı konkret və inandırıcı bir plan ortaya çıxartsa, bu vəziyyət ABŞ üçün indiki vəziyyətindən fərqli olaraq, daha böyük imkanlar verə bilər. Obama özü İŞİD-i məhv etməklə bağlı zidiyyət içində idi. İraq müharibəsindən sonra prezident böyük maliyyə vəsaiti tələb edən hərbi kompaniyalara start vermək haqqında xeyli tərəddüd etmişdir. Lakin o, İŞİD-in genişlənməsinin qarşısını almağın da önəmli olmasını dəfələrlə bəyan etmişdir. Paris terror aktından çox az müddət öncə Obama “ABC News” televiziya kanalına verdiyi müsahibədə söyləmişdir: “Başlanğıcda bizim məqsədimiz onları nəzarət altında saxlamaq idi və biz bunu etmişik”. Bu çıxışdan belə başa düşmək olar ki, Obama İŞİD-in heç də asan həlli yolu olmayan uzun-müddətli problem olduğunu qəbul edirdi. [299]

Əslində isə, İŞİD-i məğlub etmək və ya yer üzündən silmək heç də qarşıda duran ən önəmli məqsəd deyildir. ABŞ hökumətinin əsas məqsədi İraq və Suriyada sabitliyi bərqərar etməkdir. Müharibə heç də düşməni məhv etmək deyildir; əsas məsələ elə bir sülh vəziyyəti yaratmaqdır ki, təhlükə bir daha baş qaldırmasın. Əgər vəziyyət Kabuldəki Taliban, Bağdaddakı Səddam, Tripolidəki Qəddafi rejiminin devrilməsi kimi xaos və anarxiya ilə nəticələnəcəksə, rejimi dəyişməyin bir əhəmiyyəti qalmır. Raqqadakı İŞİD rejimi də bu qəbildəndir. Əslində, İŞİD-in sələfləri 2007-ci ildə ABŞ qoşunlarının Bağdadda möhkəmləndiyi bir zaman zəifləmişdir. Bağdadda təriqətçilik və yalnış idarəetmə sayəsində qiyamçılar geri dönə bildilər.

Obamanın yürütdüyü xarici siyasət kursuna nəzər yetirdikdə, onun özünü idelist kimi deyil, fərasətli, praqmatik realist kimi sübut etdiyini görürük. Bu fakt onun Yaxın Şərq siyasətində daha aydın hiss edilirdi: Buşun demoratikləşmə ritorikasından uzaqlaşmaq, İraqda sabitliyi bərpda etmək, Əfqanıstan və Əl-Qaidəyə qarşı məhdud

hərbi əməliyyatlar həyata keçirtmək, rəqabətə açıq olmaq və milli maraqlara əks gəldiyi zaman rəqiblərinə təzyiq göstərmək.

Bu praqmatiklik Obamanı müsəlman dünyasında Amerikanı güc tətbiq etmədən istədiyini diktə etməyə cəhd göstərməsinin bir nişanı idi. İsrail və Fələstini sülhə vadar etmək üçün Həmasla danışıqlar masasına oturaraq, öz prinsiplərini qurban verərək, maliyyə baxımından İsrailə təzyiq göstərmək və Suriya ilə danışıqları yenidən bərpa etmək bu cəhdlər sırasında idi. İranla danışıqlarda irəliləyiş əldə etmək üçün qəti qərarlar qəbul etmək şərt idi, daxildə etiraz edənlərin zərbəsini azaltmaq üçün Tehranı danışıqlar masası ətrafında əyləşməyə vadar etmək üçün diplomatik yollara əl atmalı və ya beynəlxalq təzyiqi və sanksiyaları yeniləmək lazım idi.

2008-ci ildən hakimiyyətdə olmuş Barak Obama və onun adminstrasiyası da Yaxın Şərq timsalında dünyaya sülh gətirə bilmədi. Əksinə, son zamanlar regionun etnik tərkibinə görə çox çeşidliliyi ilə seçilən Suriyada etnik münaqişələr, hakimiyyət uğrunda mübarizə, vətəndaş müharibəsi, digər tərəfdən İŞİD-in həyata keçirtdiyi hərbi əməliyyatlar Yaxın Şərqdə son onilliklər ərzində gərgin olan vəziyyəti daha da gərginləşdirmişdir.

Bu gün ABŞ xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edən Yaxın Şərq regionunda həyata keçirilən fundamental siyasətlərdən biri olan terrora qarşı mübarizənin aparılmasına ABŞ hökuməti təkcə Yaxın Şərq regionunda deyil, eləcə də bütün dünyada xüsusi önəm verir. Terrora qarşı mübarizədə daha effektiv və səmərəli olmaq üçün ABŞ siyasi təsissatları daxilində terrorizmə qarşı bir sıra bölmə, sektor və ya şöbələrin əsası qoyulmuşdur. Buna misal olaraq, Dövlət Departamentinin Terrorizm və Ekstremizmə qarşı Bürosu, ABŞ Dövlət Ədliyyə Departamentinin Terrorizmə qarşı mübarizə şöbəsi, Milli Terrora qarşı Mübarizə Agentliyi və s. misal göstərmək olar. ABŞ bu siyasəti reallaşdırdığı gündən MKİ-i və digər qurumlara terrora qarşı mübarizə üçün küllü miqdarda maliyyə vəsaiti ayırmışdır. Lakin buna baxmayaraq, ABŞ qarşısına qoyduğu başlıca məqsəd olan terrorun kökünü tamamilə kəsməyə müvəffəq ola bilmir, nəinki bu cür terrorist qrupların və ya təşkilatların eləcə də, onlara qoşulan insanların da sayında artım hiss edilir. Onda belə bir sual ortaya çıxır, ABŞ terrora qarşı ciddi mübarizə aparırmı?

Yoxsa onlar sadəcə ölkədə xalqı terror təhlükəsi barədə məlumatlandıraraq, yeritdikləri siyasətə haqq qazandırmaq istəyirlər? Bundan əlavə, təəssüf doğurdan məqam ABŞ siyasi səhnəsində, ABŞ ictimaiyyətində Yaxın Şərqdə baş verən münaqişələr və müharibələr zamanı amerikalıların və israillilərin istər Fələstin, istər İraq, Suriya və digər Yaxın Şərq insanlarından daha çox zərər çəkmiş, daha acınacaqlı vəziyyətdə olduğunu göstərməsidir.

Coğrafi baxımdan Yaxın Şərq regionda baş verən hadisələrin fəsadları ABŞ-dan daha çox Avropa və regiona qonşu olan ölkələrə təsir etməkdədir. Yaxın Şərqdə dözülməz həyat şəraiti, aclıq, səfalət, müharibələr, durmadan verilən itkilər insanları daha etibarlı bölgələrə köç etməyə məcbur etmişdir. Türkiyə Respublikası humanistlik nümayiş etdirərək, Yaxın Şərqdən xüsusilə Suriyadan gələn miqrantlara qapı açmış, onların normal həyat şəraitinə malik olması üçün dövlət səviyyəsində tədbirlər görmüşdür. Lakin beynəlxalq konfranslar, tədbirlər təşkil etməklə Yaxın Şərqdə baş verən münaqişələrdən narahat olduğunu bildirən, regionda insan haqlarının kobud surətdə pozulduğunu və bu insanların da layiqli həyat yaşamaq hüquqları olduğunu ucadan bəyan edən Avropa ölkələrinin liderləri, eləcə də Avropa ictimaiyyəti isə bu istəklərinin işdə deyil, sözdə olduğunu subut etməkdədirlər.

Bütün deyilənlər bir daha sübüt edir ki, Yaxın Şərqə demokratiyanın deyil, ilk öncə sülhün gətirilməsi nəinki region ölkəri, ümumilikdə dünya üçün çox önəmlidir. Əgər ABŞ iddia etdiyi kimi terrorizmin kökü, mərkəzi və ya başlanğıc nöqtəsi məhz Yaxın Şərqdirsə, onda bu regiona yönəlik siyasətə dəyişiklik etməyin zamanıdır. Regiona yönəlmiş siyasət hərbi müdaxiləyə deyil, əməkdaşlığa söykənməlidir. Əməkdaşlıq region ölkələrində sabitliyin əldə olunması, insanların və xüsusilə cavanların təhsilə cəlbi, ölkələrin iqtisadi mühitinin yaxşılaşdırılması ilə həyat səviyyəsinin yüksəldilməsinə söykənə bilər və  düşünürük ki, bu da regionda terrorizmin kökünü kəsməyə, sülhün və əmin amanlığın bərqərar olmasına təkan verə bilər.

# NƏTİCƏ

ABŞ-ın xarici siyasətinin priortet istiqamətlərindən birini və bəlkə də, ən önəmlisini təşkil edən Yaxın Şərq siyasəti və onu şərtləndirən amillərin bəzisi zamanla dəyişmiş, bəzisi isə olduğu kimi qüvvədədir. Belə ki, XX əsrin ikinci yarısından başlayaraq, regionun zəngin karbo-hidrogen ehtiyatlarına nəzarəti əldə saxlamaq iddiası və regionda maraqlarını təmin etmək üçün İsrail dövləti ilə müttəfiqlik haqqında dissertasiya işində geniş şəkildə tədqiq edilmişdir. Aparılan araşdırmadan da məlum olduğu kimi bundan sonrakı illərdə də bu iki mühüm amil ABŞ-ın Yaxın Şərq siyasətinin əsasını təşkil edəcəyinə dair hər hansı bir tərrədüdə yer vermir.

Tarixlə siyasətin qarşılıqlı təsiri Vaşinqtonun Yaxın Şərq siyasətini aydın anlamağa imkan verir. Soyuq müharibənin dinamikası, İsrail dövlətinin yaranması və enerji təhlükəsizliyinin təmin edilməsi ehtiyacı Vaşinqtonun qlobal proqnozlarında başlaca yer tuturdu. ABŞ-ın Yaxın Şərqin siyasi həyatına nə dərəcədə nüfuz etməsi heç kimə sirr deyil. Tədqiqat işi zamanı araşdırıldığı kimi Yaxın Şərqin hazırki vəziyyəti daxili gərginlik və xarici müdaxilənin nəticəsində meydana gəlmişdir. Aydın olduğu kimi 1950-ci ildən bəri ABŞ-ın xarici siyasəti bu gərginliyi kəskinləşdirməyə və alovlandırmağa xidmət etmişdir.

Lakin zamanla ABŞ-ın Yaxın Şərq siyasətini şərtləndirən amillərdən bəzisi dəyişmişdir. Belə ki, XX əsrin ortalarından etibarən Sovet İttifaqının regionda genişlənmənsinin qarşısını almaq ABŞ-ın Yaxın Şərq siyasətindən prioritet mövqeyə sahib idisə, 1991-ci ildə Soyuq müharibə bitdikdən sonra bu amil artıq qüvvəsini itirir. Yeni dünya düzəni qurulduqdan sonra ABŞ-ın Yaxın Şərq siyasəti onun dünyada hansı güc və qüdrətə sahib olduğunun açıq göstəricisi idi. Belə ki, II Dünya müharibəsi və Soyuq müharibə ABŞ rəsmilərinə regionun enerji ehtiyatlarını, hərbi bazalarını və Sovet İttifaqı sərhədlərinin hüdudlarında yerləşən digər ərazilərin önəmini bir daha xatırlatdı. Bu, ABŞ-ın regionda "sabitlik və təhlükəsizlik" naminə öhdəlikləri öz üzərinə götürməsinə səbəb oldu. XXI əsrdə ABŞ Yaxın Şərqdə həyati əhəmiyyətə malik maraqlarını müəyyənləşdirdi və regionda möhkəmlənməyə başladı.

Zaman keçdikcə isə, onun yerini dünyanın qlobal hədələrindən birinə çevrilən terrorizmlə mübarizə tədbirləri aldı.

ABŞ-ın Yaxın Şərqin zəngin karbo-hidrogen ehtiyatlarına malik olmaq və bunula da ölkəsini ucuz neft axını ilə təmin etmək istəyi onun bilavasitə həyata keçirtdiyi enerji təhlükəsizliyi siyasəti ilə əlaqəli idi. Bu siyasətin həyata keçirilməsində ABŞ regiona qarşı ikili standarlara malik siyasətini ortaya qoydu. Belə ki, ABŞ-ın Yaxın Şərq siyasətinə nəzər salsaq, regionda onun əməkdaşlığa və müdaxiləyə söykənən ikili siyasət apardığının şahidi olarıq. XX əsrin ilk illərində ABŞ-ın anti-müstəmləkə tarixi Yaxın Şərq regionunun liderlərini Vaşinqtonu Ərəb xalqlarının potensial dostu olması fikrinə inandırdı. Lakin beynəlxalq münasibətlər heç də hər vaxt dostluğa söykənməyib. Beynəlxalq münasibətlər sistemində ölkələrin davranışlarının realist şəkildə qəbul olunması öz maraqlarının təmin edilməsinin hər şeydən üstün olmasını açıq-aydın göstərir. ABŞ və digər böyük dövlətlər tarix boyu hər zaman dünyada özləri və müttəfiqlərinin mövqelərini möhkəmləndirməyə çalışmışdır. Yaxın Şərqdə də eyni prinsiplər tətbiq olunmuş və olunmaqdadır.

Əslində, ABŞ-ın Yaxın Şərq siyasətini araşdırarkən qarşımıza ümumi mövzular çıxır: müdaxilə, güc tətbiqi, mütəffiq qazanmaq, insan əzabına istinad edilən bərabərlik dəyərlərinin qabardılması, geo-siyasi strategiya və iqtisadi gücə malik olma istəyi. Beynəlxalq münasibətlər sistemində hər bir dövlət məhz xarici siyasətin istiqamətlərini ciddi şəkildə hesablama ehtiyacı duyur. Hər halda, bu sistemin ən güclü dövləti kimi ABŞ fərqli standartları müdafiə edir. Daha vacibi isə ABŞ-ın qlobal liderlik məsuliyyətini öz üzərinə götürməsi idi. Yaxın Şərqdə isə ABŞ regiona sülh və demokratiya gətirmək niyyətinində olduğunu hər zaman bəyan etmişdir.

Ucuz neft axınına sahib olmaq ölkənin iqtisadi inkişafının əsasını təşkil edən amillərdən biridir. Bu amilə bağlı olaraq, dövlət əhaliyə yüksək sosial şərtlər altında yaşamağa imkan verir. Ölkədə sosial problemlərin az olması əhalinin hökumətinə inanmını və ona dəstəyini artırır. Bununla da, hökumət yerli sabitlik və inkişafa nail olur. Lakin neft yalnız yerli deyil, həm də qlobal əhəmiyyətə malik elə bir strateji amildir ki, bu amil hər zaman böyük dövlətlərin beynəlxalq rəqabətini formalaşmasını şərtləndirmişdir.

XX əsrin son onilliklərində və XXI əsrin əvvəllərində Yaxın Şərq regionunda dövlətlərarası zidiyyətlərin və siyasi vəziyyətin kəskin surətdə gərginləşməsinə daxili və xarici amillərin təsiri səbəb olmuşdur. Bunlardan ən mühümü Yaxın Şərq ölkələrinin siyasi mövqeyindən asılı olan neft məhsullarının qiymətində nəzərəçarpacaq dərəcədə artımın olması idi. Lakin qiymətlərin formalaşmasında bu cür dəyişiklik Qərb dövlətləri, xüsusilə də ABŞ tərəfindən narazılıqla qarşılanırdı. Yerli dövlətlərin neftdən gələn gəlirlərinin artması, öz növbəsində regionda hakim elitanın iddialarını da artırdı. Silahlanma prosesi də sürətləndi, region ölkələri sanki bu sahədə bir-biri ilə rəqabətə girmişdilər. Digər tərəfdən ABŞ-ın region ölkələrinin siyasi, hərbi və ideoloji baxımdan daxili işlərinə müdaxiləsi gücləndi. Bu müdaxilə ABŞ-ın maraqlarını təmin edən qlobal əhəmiyyətli strateji xammal olan neftin ticarətinə və Fars körfəzində siyasi vəziyyəti nəzarətdə saxlamaqla izah olunurdu.

Bu müdaxilədən sonra Fars körfəzində geo-siyasi vəziyyətin dəyişməsi aşağıdakı hadisələrlə müşayət olundu: a) İran və Əfqanıstanda hakim rejimlərin sosial-siyasi və dini konsepsiyaya əsaslanan anti-ABŞ (anti-Qərb) və radikal meyllərin meydana gəlməsi; b) İraq-İran, İraq-Küveyt müharibələri; c) Qərbin hərbi güclərinin iştirakı ilə Fars körfəzində neft maraqları uğrunda mübarizənin müharibə formasına keçməsi (burada, əsasən, ABŞ-ın İraqa hərbi müdaxiləsini söyləmək lazımdı).

Yeni dünya düzəni qurulduqdan sonra Yaxın Şərq ölkələrinin siyasi statusunun müəyyən olunmasında neft mühüm və həlledici silaha çevrildi. Buna ən bariz nümunə elə İraq və orada baş verən siyasi və hərbi münaqişələrdir.

ABŞ Körfəzin daxili işlərinə müdaxilə etmək üçün ilk öncə ideoloji silahı əldə əsas tutdu. Daha sonra isə regionda dövlətlər arasında və hətta dövlətlərin daxilində baş verən münaqişələrin həlli üçün beynəlxalq hüquq normalarına əsaslanaraq, insan hüquqlarının pozulmasını, dünya üçün təhlükəli hesab edilən bir sıra kütləvi qırğın silahlarının mövcudluğunu və terrorizm bəlasını əsas gətirərək regiona müdaxilə üçün əlverişli şərait yaratdı. Qarşısına qoyduğu vəzifəni yerinə yetirmək üçün Vaşinqton yaranmış regiondaxili gərginliyi qorumağa can atırdı. Nəticədə meydana çıxan

vəziyyət: ölkələrarası münaqişələr, müharibə, zamanla güclənən və daha sonra yıxılan diktator rejimləri.

Soyuq müharibənin məhsulu kimi ortaya çıxan ABŞ-İsrail müttəfiqliyi bu gərginliyin mərkəzində durur. Belə ki, ABŞ-ın Yaxın Şərq siyasətini araşdırarkən, ABŞ-İsrail əlaqələrinin bu siyasətdə çox önəmli yer tutuduğu görürük. Lakin Vaşinqton və Təl-Əviv arasında olan əlaqələrin fərqli istiqamətdə inkişafı heç də regionda anti-amerika meyillərinin azalmasına səbəb ola bilməmişdir. ABŞ-ın güc və təsiri ilə Yaxın Şərq siyasətində İsrail heç də bu ölkənin yeganə müttəfiqi deyildi. ABŞ-ın Yaxın Şərq siyasətinin məğzini daha yaxşı anlamaq üçün XX əsrdə regionun bütov siyasi tarixini nəzərdən keçirmək tələb olunur. 1950-ci illər Vaşinqtonu ikili standartlarla hərəkət etməyə vadar edən amillər ABŞ-ın regiona müdaxiləsinin başlaması ilə tarixə düşmüşdür. Bu müdaxilə prosesi şəxsi maraqların diktəsi ilə müşayiət olunurdu. 1953-cü ildə İranda öz nüfuzunu möhkəmləndirmək və sosializmdən qorunmaq məqsədilə Vaşinqton demokratik yolla seçilmiş İran hökumətin devrilməsində böyük rol oynamışdır. Buna zidd olaraq, Küveytdə 1991-ci ildə status-kvo ABŞ maraqlarına uyğun olaraq müəyyənləşmiş və qeyri demokratik, neftlə zəngin, ABŞ-ı dəstəkləyən bir rejim hakimiyyətdə idi. Bu sadalanan hadisələrin İsrail-Fələstin münaqişəsi ilə heç bir əlaqəsi yoxdu, lakin bu hadisələr Vaşinqtonun regional siyasətə müdaxilə edən bir aktor kimi çıxış etməsindən xəbər verir. Belə olduğu halda necə iddia etmək olar ki, ABŞ-İsrail müttəfiqliyi onun Yaxın Şərq siyasətinin mərkəzində durur? Bu suala cavab almaq üçün fələstinlilər və onların düçar olduqları çıxılmaz vəziyyəti misal göstərmək kifayət edər. İsrail dövləti yarandıqda, ələxsüs də 1967-ci ildən sonra baş verən hadisələr fələstinlilərin cəmiyyətdən təcrid olunmasına, kənarlaşdırılmasına və işğala gətirib çıxartmışdır.

Vaşinqtonun yürütdüyü ikili standartlara digər bir nümunə olaraq, insan hüquqlarının kobud şəkildə pozulduğu, cəmiyyətin demək olar ki, bütün sahələrində gender ayrı-seçkiliyin mövcud olduğu, ölkənin ümumxalq səsvermə yolu ilə qəbul edilən konstitusiya ilə deyil, bilavasitə şəriət qaydaları ilə idarə olunması, ən əsası mütləq monarxiya üsulu və birbaşa olaraq, qeyri-demokratik rejimlə idarə olunan Səudiyyə Ərəbistanı, BƏƏ və s. ölkələr ABŞ üçün heç bir təhlükə vəd etmir. Bu

ölkələrlə ABŞ arasında sıx əməkdaşlığa söykənən münasibətlər mövcuddur. Yuxarıda göstərilən iki arqumenti qarşı-qarşıya qoysaq, ikili standarların əsas səbəbinin neftlə xüsusilə zəngin olan bu dövlətlərlə münasibətlərin daim normal saxlanılması təşkil edir. Kolumbia Universitetinin professoru Jean-Marc Oppenheimın fikrincə illər ərzində ABŞ-da belə bir fikir formalaşıb: “Biz (ABŞ) bizimlə neft sahəsində əməkdaşlı edən ölkələrinin daxili işlərinə qarışmırıq”. Məhz bu düşüncə və dünyada insan hüquqlarının təmin olunmasının çarçısı kimi çıxış edən ABŞ üçün hansı zərurətidən doğduğunu anlamaq çətin deyil.

İki ölkə arasında olan əlaqələr hər zaman normativ siyasi dəyərlərə söykənməlidir. ABŞ-Fələstin münasibətləri ABŞ-İsrail əlaqələrinin tam əksidir və İsraillə yaxın əlaqələr heç də ABŞ-a qarşı mövcud kütləvi narazılığın yeganə səbəbi deyildir. Belə ki, Fələstində və ya İraqda əziyyət çəkən əhalinin ümumi vəziyyətinin amerikalılar və israillərin çəkdiyi əziyyətlə müqayisədə nə qədər acınacaqlı olması heç də ABŞ-ın xarici siyasət gündəminə düşmür. İnformasiya texnologiyalarının və Ərəb mediasının inkişaf etdiyi bir zamanda bu ayrı-seçkilik geniş şəkildə işıqlandırılır. Məsələ ondadır ki, ABŞ-da fəaliyyət göstərən Amerika-İsrail İctimai Əlaqələr Komitəsi ölkənin ən güclü yəhudi lobbisidir. Bu komitə ABŞ-da nüfuzlu dairələrinə təsir etmək iqtidarındadır. İsrail-Fələstin sülh proseslərində ABŞ-ın iştirakı zaman onun siyasətinin formalaşmasına təsir göstərən başlıca təsissat məhz Amerika-İsrail İctimai Əlaqələr Komitəsidir. Bu komitənin Siyasət və İdarəetmə məsələləri üzrə direktoru Marvin Feuerin sözlərinə görə “biz, yəhudilər dünyada ən aparıcı KİV-lərinə nəzarət edirik, lakin Yaxın Şərqdə KİV-ə nəzarət edə bilmirik”. Bununla da, İsrail-Fələstin münaqişəsində olan ədalətsizlik dünya ictimaiyyətinə çatdırılır.

ABŞ-da hakimiyyətə Respublikaçılar və ya Demokratlar partiyasının nümayəndəsinin gəlməsinə baxmayaraq, bu partiyalar ABŞ-ın Yaxın Şərq siyasətində ölkəsinin maraqlarını hər zaman müdafiə etmişdir. Lakin qeyd etmək lazımdır ki, bu maraqlarda zaman keçdikcə hansısa dəyişikliklər baş verə bilər. Buna misal olaraq, XXI əsrin bəlası olan terrorizmi vurğulamaq yerinə düşər. 11 sentyabr hadisələri Yaxın Şərqdə vəziyyətin fundamental şəkildə qeyri-sabit olması istiqamətində silsilə

hadisələrin baş verməsinə zəmin yaratdı. Lakin Əfqanıstandakı Taliban rejimin devrilməsi bu ölkədə yaşayan insanlar üçün böyük xoşbəxtlik idi. Beynəlxalq münasibətlər sisteminin sabitliyi üçün həyati əhəmiyyətə malik olmasını subut edən qeyri-sabit Yaxın və Orta Şərq dövlətlərinin milli səviyyədə yenidən qurulmasına dair ABŞ-ın götürdüyü dəstəkyönümlü öhdəliklər heç də özünü doğrultmadı. ABŞ siyasətçiləri Taliban və Əl-Qaidə üzvləri üzərində əldə olunmuş asan qələbədən ürəklənmişdilər. 2001-ci ildə hakimiyyətə Corc Uoker Buşun gəlməsi ilə yeni-mühafizəkarlar üzərlərinə götürdükləri öhdəliyini "terrora qarşı müharibə" miqyasında genişləndirərək, Əfqanıstanda qazanılan qələbəni Buş doktrinasının uğuru kimi qiymətləndirmişdilər. Bunun nəticəsində Vaşinqton rəsmiləri "terrora qarşı müharibə" və İraqda rejimi dəyişmək ehtiyacı arasında mövcud olan incə əlaqəni önə çəkən siyasəti reallaşdırmaq iqtidarında oldular.

2003-ci ildə İraqa qarşı həyata keçirilən hərbi əməliyyatlar ABŞ xarici siyasətinin görünməmiş ölçüdə siyasi fəlakəti kimi qiymətləndirilir. Bunun nəticəsində "terrora qarşı müharibə" həm hərbi, həm də ideoloji baxımdan özünü doğrultmamışdır. Talibandan azad olandan altı il sonra Əfqanıstan üsyançılar və beynəlxalq güclər arasında gedən münaqişə astanasında idi və İraq vətəndaş müharibəsindən viran qalmışdır. İdeoloji baxımdan da mənzərə çox ürəkağrıdıcı idi. ABŞ özünün beynəlxalq etibarını ciddi şəkildə zədələdi.

Maraqlıdır ki, ABŞ-ın Yaxın Şərqə demokratiya gətirmək istəyi region daxilində "ərəb baharı" kimi tarixə düşmüş diktator rejimləri və onların devrilməsi istiqamətində region xalqlarının ayağa qalxması ilə nəticələndi. ABŞ rəsmi şəkildə bu proseslə heç bir əlaqəsi olmadığın bəyan etsə də, bu dəfə regionun "demokratikləşdirilməsi" prosesi hərbi müdaxilələrlə deyil, sosial şəbəkələrdə təbliğat aparmaqla başladıldı. Nəticədə regionda etnik münaqişələr, vətəndaş müharibələri, hakimiyyət uğrunda mübarizələr vəziyyətin daha da qeyri-sabit olmasına səbəb oldu.

ABŞ-da Valter Rassel Mid, Robert Briqham kimi tədqiqatçı və alimləri, eləcə də, ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Con Ceyms Faso kimi siyasətçiləri, qəbul edirlər ki, ölkənin illər ərzində Yaxın Şərqdə demokratiyanın

yayılması və inkişafı uğrunda apardığı siyasət iflasa düçar olmuşdur. Bu gün ABŞ fərqli din, mədəniyyət və adət-ənənələrə malik olan cəmiyyətlərə öz demokratiya anlayışını tətbiq etməyin mümkünsüzlüyünü dərk edir. “Axı siz, dünyaya demokratiya dərsi verən amerikalı syasətçilər, Yaxın Şərqdəki bu dözülməz vəziyyəti necə dəyişdirə biləcəksiz” sualına konqressmen Fasonun cavabı “biz (ABŞ) dünyanın polisi deyilik, biz demokratiya üçün şərait yaratdıq, qalanını isə demokratiya istəyən xalq özü qazanmalıdır” ifadəsini işlədərək öz siyasətlərinə bəraət qazandırmış olur.

ABŞ-ın Yaxın Şərq siyasətinin yarım əsrdən çox bu formada davam etməsinə beynəlxalq ictimaiyyətin, xüsusilə də ABŞ vətəndaşlarının günahsiz insanların həyatları, onların aclıq və səfalət içində yaşamaları hesabına ucuz neft axınının təmin edilməsinə etiraz etməməsi bir az təəcüblüdür. Çünki belə bir təcrübəyə 1955-1975-ci ildə ABŞ prespektivindən yanaşıldıqda Veytnam, veytnamlıların deyimində isə Amerika müharibəsi kimi tarixə düşmüş müharibədə rast gəlinmişdir. Belə ki, Riçard Niksonun hakimiyyəti dövründə 2 milyona yaxın ABŞ vətəndaşı hökumətə Veytnamdan çıxmağı, bu müharibənin heç bir faydasının olmamasını bildirərək, tətil etmişdirlər. ABŞ-da yaşayan zəncilər “heç bir veytnamlı mənə zənci deməmişdir”, digər vətəndaşlar “ordu geri qayıtsın”, “Veytnamda müharibəyə son”, “mənim oğlum Veytnamda həlak oldu, nə səbəbə Amerika?”, “58318 ABŞ hərbçisi, 4 amerikalı tələbə nə üçün ölüb?” və s. kimi şüarlar səsləndirərək, dövlətlərindən bu regionda hərbi müdaxiləyə son qoymağı tələb etdilər. Lakin bu cür münasibəti Yaxın Şərqə “terrora qarşı müharibə” adı ilə də etsə də, buna bənzər şüarlar dövlət rəsmilərinə təsir etmək üçün belə səsləndirilmədi. Bəzi tədqiqatçılar bunun səbəbini Yaxın Şərqdə ABŞ hərçilərinin ölüm sayının 6500 olması ilə əlaqələndirirlər. Digər alimlər isə ABŞ-da yeni nəslin daha nadan və məlumatsız, dar dünya görüşünə malik, qlobal siyasətə qatılmaq arzusunda olmaması ilə əlaqələndirirlər.

Lakin ABŞ-da fəaliyyət göstərən bir sıra qeyri-hökumət təşkilatları (QHT) heç də hökumətin apardığı siyasəti dəstəkləmir. Onlardan bəzisi öz hökumətlərinin maraqları üzündən viran qalmış Yaxın Şərq regionunda gənclər arasında təhsilə cəlb olunma ilə bağlı əsaslı işlər aparır. Bundan əlavə, “Sülh naminə Yəhudi səsi” adlı QHT İsrailin Fələstinə qarşı apardığı siyasəti pisləyir, onu sülhün əldə olunması üçün

1967-ci ildən öncəki sərhədlərə geri qayıtmağın mühüm olduğunu vurğulayır və İsrailin bu siyasətini dəstəkləyən ABŞ hökumətini hər zaman qınayır. Bu QHT "İslamafobiyaya qarşı müsəlmanlarla birgə" şüarı altında tədbirlər təşkil edir.

Çox təəssüf ki, Erməni terrorizmindən əziyyət çəkən Azərbaycan Respublikası da ABŞ siyasətinin ikili standarlarına məruz qalmışdır. Hələ əsrin əvvəllərindən çağdaş günümüzə kimi Ermənistan Respublikası başda olmaqla, dünyanın fərqli ölkələrində fəaliyyət göstərən erməni terror təşkilatları Azərbaycan Respublikasının sərhədləri daxilində misli görünməmiş soyqrım, terror aktları, cinayətlər törətmişdirlər. 31 mart 1918-ci ildə Bakı və Bakı ətrafında erməni terror təşkilatı olan "Daşnaksütyun" terror təşkilatının fəaliyyəti nəticəsində 12 mindən çox insanın həlak olması ilə nəticələnən Mart soyqrımı, 1994-cü il 19 mart tarixində 14 insanın həlak olması və 49 insanın yaralanması ilə nəticələnən metronun "20 Yanvar" stansiyasında baş vermiş terror aktı və ya həmin ilin 3 iyul tarixində metronun "28 may" və "Gənclik" stansiyaları arasında 13 nəfərin həlak olması, 43 insanın yaralanması ilə nəticələn digər bir terror aktı buna misal ola bilər.

Baxmayaraq ki, Azərbaycan Respublikası Cənubi Qafqazda ABŞ-ın reallaşdırdığı terrora qarşı mübarizədə ən etibarlı tərəfdaşıdır, ölkəmiz terrora qarşı mübarizədə bu qədər "həssas" olduğunu dəfələrlə bəyan edən ABŞ tərəfindən bu sahədə diqqət və dəstək görmədi.

Terrorizmin kökünü kəsmək bu gün dünyanın fövqəlgücləri üçün imkansızdırmı? Qanunsuz silah satışı, terror təşkilatlarının maliyyələşdirilməsinə nəzarəti ələ almaq və ümumiyyətlə, terrorizmin inkişafına mane olacaq tədbirlər həyata keçirmək mümkün deyilmi? Əlbəttə, əgər bu sadalananlar milli maraqlara zidd gəlirsə, onu həll etmək ABŞ üçün heç də önəmli deyil.

Bu gün İŞİD, Əl-Qaidə kimi terror təşkilatları ilə mübarizə aparan ABŞ əslində keçmişdə səbəb olduğu səhvləri ilə mübarizə aparır. Belə ki, XX əsrin 70-ci illərində Sovet İttifaqının Əfqanıstana daxil olması ABŞ-dan buna qarşı adekvat tədbirlər həyata keçirtməyi vadar edirdi. Əfqanıstan və Pakistan sərhədlərində "allahsız" Sovet İttifaqına qarşı İslam dininin şüarlarını psixoloji silah olaraq əlinə alan dini ektrimist qruplaşmalar meydana gəldi. Taliban, Al-Qaidə, mücahidlər bu qruplara ən gözəl

nümunədir. Onların təlimi birbaşa olaraq, ABŞ tərəfindən aparılırdı. Pakistanın sabiq baş naziri Bənəzir Bhutto ABŞ rəsmilərinə "siz Frankinşteynin bədheybətin yaradırsız, cənablar!" ifadəsini yersiz yerə işlətməmişdir. Sovet İttifaqı dağıldı, ABŞ özünü aparıdığı ideoloji təbliğat vasitəsi ilə Soyuq müharibənin qalibi elan etdi. Lakin vaxtı ilə yaratdığı "bədheybət"ləri məhv etmək üçün alternativ plan hazırlamamışdır. Kris Gibson, Malia Du Mont kimi bir sıra ABŞ tarixçi və mütəxəssislərinin fikrincə, bu Ronal Reyqan adminstrasiyasının ən böyük səhvi idi. Bu cür terror qruplarından ilhamlanaraq peyda olan İŞİD terror təşkilatı regionun bəlasına çevrilib və onu məhv etmək, məhz mənəvi cəhətdən ABŞ-ın boynuna düşür.

ABŞ-ın qlobal əhəmiyyətə malik, dünyada, xüsusən də Yaxın Şərq regionunda sülhün bərqərar olmasına mane olan yuxarıda sadalanan amillərin qarşısını almaq üçün təsirli tədbirlər görməməsinin digər səbəblərindən bir də çox güman ki, ABŞ-ın bu regionda çox uzaqda yerləşməsidir, yəni ABŞ bu gün özünü Yaxın Şərq regionda gedən, hər gün insan itkisi ilə nəticələnən terror hadisələri və ya silahlı toqquşmalardan kənarda hiss edir. Onun əhalisi bu cür çətin vəziyyətdən əziyyət çəkmir, azyaşlı uşaqlar silah səsinə yuxudan oyanmır və ya açılan silahların qurbanı olmur, aclıq və səfalətin əsiri deyillər, daima qorxu və vahimə içində yaşamırlar. Lakin heç kimə sirr deyil ki, müasir dünyamızda terror sərhəd tanımır və terrora qarşı mübarizə aparmamaq, bilavasitə onun qurbanına çevrilməsi və onun daha da güclənməsinə səbəb olur.

Son illər ABŞ-ın xarici siyasətini şərləndirən bir sıra amillər meydana çıxmışdır. Bu gün ABŞ üçün dünya hegemonluğu uğrunda apardığı siyasətdə başlıca maneə Çin və Rusiyanın durmadan artan iqtisadi və hərbi gücüdür. ABŞ "West Point" Hərbi Akademiyasının dosenti Skot Silverstone fikrincə, "bu gün bu ölkələrin ABŞ-ın rəqibi olması elə ölkənin öz günahıdır. Belə ki, ABŞ Yaxın Şərqdə "demokratiyanın yayıması" uğrunda mübarizə aparıldığı bir vaxtda, Çin və Rusiya öz iqtisadi və hərbi potensialını bu illər ərzində artırmış və istər regionda, istərsə də, dünyada ABŞ üçün başlıca rəqibə çevrilmişdir." Lakin Yaxın Şərq elə bir regiondur ki, hər zaman ABŞ-ın xarici siyasətində prioritet mövqeyə sahib olub, hazırda sahibdir və gələcəkdə də sahib olacaqdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


